# AZƏRBAYCAN RESPUBLİKASINDA SƏRBƏST TOPLAŞMA AZADLIĞININ TƏMİN OLUNMA VƏZİYYƏTİ

## QANUNVERİCİLİK VƏ PRAKTİKA

### MONİTORİNQİN NƏTİCƏLƏRİNƏ DAİR HESABAT



Vətəndaşların Əmək
Hüquqlarını Müdafiə Liqası

Açıq Cəmiyyət İnstitutu-Yardım Fondu
İnsan Hüquqları və İdarəetmə
Üzrə Qrant Proqramı (Budapeşt)

## AZƏRBAYCAN RESPUBLİKASINDA SƏRBƏST TOPLAŞMA AZADLIĞININ TƏMİN OLUNMA VƏZİYYƏTİ

## QANUNVERİCİLİK VƏ PRAKTİKA

# MONİTORİNQİN NƏTİCƏLƏRİNƏ DAİR HESABAT

Bakı – 2007

**Ümumi redaktə və tərtibat**
*Sahib Məmmədov*

**Monitorinqi həyata keçirən heyət**
*Sahib Məmmədov (hüquqşünas-layihənin koordinatoru)*
*Elbrus Məmmədov (hüquqşünas)*
*İradə Cavadova (hüquqşünas-vəkil)*
*Həmid Xəlilov (maliyyə meneceri)*

**Monitorinq üzrə məsləhətçilər**

Slawomir Cybulski (İnsan Hüquqları üzrə Helsinki Fondu-Polşa)
Bogna Chmielewska (İnsan Hüquqları üzrə Helsinki Fondu-Polşa)
Adam Bodnar (İnsan Hüquqları üzrə Helsinki Fondu-Polşa)
Lukasz Bojarski (İnsan Hüquqları üzrə Helsinki Fondu-Polşa)

Azərbaycan Respublikasında sərbəst toplaşma azadlığının təmin olunma vəziyyətinin monitorinqinə dair nəticələri özündə əks etdirən bu nəşr Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqası tərəfindən həyata keçirilən və Açıq Cəmiyyət İnstitutu-Yardım Fondu. İnsan hüquqları və İdarəetmə üzrə Grant Proqramı (Budapeşt) tərəfindən maliyyələşdirilən **"Azərbaycan Respublikasında sərbəst toplaşma azadlığının təmin olunmasının vəziyyətinin monitorinqi"** adlı layihə çərçivəsində hazırlanaraq nəşr olunmuşdur.

**Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqası**
**Ünvan: Bakı AZ1014, Rəsul Rza 87\9**
**Tel: (994 12) 495 85 54; (994 50) 314 49 15**
**E-mail: clrpl@bakinter.net; smamedov@rambler.ru**
**www.clrpl.org**

ISBN - 978-9952-25-070-1

© VƏHML
© ACİ-YF

# MÜNDƏRİCAT


**Giriş**
**4**

**Qanunvericiliyin analizi**
**8**

**Siyasi partiya və ictimai təşkilatların fəalları arasında keçirilmiş sosioloji sorğunun nəticələri**
**25**

**Toplantı keçirməklə bağlı verilən xəbərdarlıqlara müvafiq icra hakimiyyəti orqanlarının cavablarının analizi**
**34**

**Kütləvi aksiyaların hakimiyyət orqanları tərəfindən dağıdılması zamanı fiziki zorakılığa məruz qalmış və məsuliyyətə cəlb edilmiş şəxslərlə strukturlaşmamış intervülər**
**46**

**Toplantılar zamanı toplantı iştirakçılarının, təşkilatçıların və asayişi təmin edən qüvvələrin davranışının müşahidəsi**
**48**

**Mətbuatın analizi**
**50**

**Monitorinq üzrə yekun nəticələr**
**52**

**Tövsiyyələr**
**61**

**Əlavələr**
**66**

# GİRİŞ

Azərbaycan Respublikasının 1995-ci il 12 noyabr tarixində qəbul etdiyi Konstitusiyanın 49-cu maddəsi hər kəsin başqaları ilə birgə toplaşmaq azadlığı hüququnu özündə təsbit edir. Konstitusiyanın maddəsinə görə dinc yığıncaqların, mitinqlərin, nümayişlərin və s. kütləvi tədbirlərin keçirilməsi üçün hakimiyyət orqanlarından icazə tələb olunmur. Konstitusiyaya görə təşkilatçılar müvafiq hakimiyyət orqanını qanunvericilikdə nəzərdə tutulmuş müddət ərzində xəbərdar etməlidirlər.

Konstitusiyanın qəbul olunmasından bir neçə il sonra 1998-ci il tarixində **"Sərbəst toplaşmaq azadlığı haqqında Azərbaycan Respublikası Qanunu"** da qəbul olunmuşdur. Ölkənin cinayət və inzibati xətalar məcəllələrində və digər müvafiq normalarında da insanların sərbəst toplaşma azadlığının təmin olunması və bu azadlığın həyata keçirilməsinə mane olmağa görə sanksiyalar nəzərdə tutulmuş və bu azadlığın təmin olunmasının qaydaları və prosedurları müəyyən olunmuşdur.

Ölkənin tərəfdar çıxdığı Mülki və Siyasi Hüquqlara dair Beynəlxalq Pakt və İnsan Hüquqları və Əsas Azadlıqların Müdafiəsinə dair Avropa Konvensiyasının müvafiq müddəaları da dövlət üzərinə bu fundamental azadlığın təmin edilməsi üçün öhdəlik qoymuşdur. Bununla belə ölkədə bu fundamental azadlığın həyata keçirilməsində ciddi problemlər mövcuddur. Ölkədə mövcud olan siyasi partiyalar, ictimai birliklər, həmkarlar ittifaqları və insanlar qrupu sərbəst toplaşma azadlığından istifadə etmək istədikdə və ya edərkən ciddi problemlərlə üzləşməli olurlar. Ölkə Konstitusiyasının və ölkənin tərəfdar çıxdığı Beynəlxalq Normaların tələblərinə görə sərbəst (və ya

dinc) toplaşma azadlığının həyata keçirilməsi üçün yeganə şərt müvafiq hakimiyyət orqanlarını vaxtından əvvəl xəbərdar etmək olduğu halda, Azərbaycanda bu azadlığın həyata keçirilməsi de-fakto icazə xarakteri daşıyır. İstənilən təsisat və insan qrupu sərbəst toplaşma azadlığı hüququndan istifadə etmək istədikdə bunun üçün müvafiq strukturlardan icazə almalıdır. Əks halda hər hansı toplantı "sanksiyalaşdırılmamış toplantı" hesab olunur.

Son bir neçə il ərzində ölkədə baş verən ciddi siyasi proseslər dövründə, o cümlədən 2003-cü ilin Prezident seçkiləri, 2005-ci ilin Parlament seçkiləri ərəfəsində və sonra sərbəst toplaşma azadlığına qarşı hakimiyyət tərəfindən həyata keçirilən basqılar təkcə ölkə ictimaiyyətini deyil, həmçinin beynəlxalq ictimaiyyəti də ciddi şəkildə narahat etməkdədir. ATƏT və Avropa Şurası ölkədə sərbəst toplaşma azadlığının təmin olunması üçün səylər göstərir. Beynəlxalq qurumlar, xarici ölkələrin müvafiq qurumları, İnsan Hüquqlarını müdafiə edən Beynəlxalq Qeyri-Hökumət Təşkilatları öz dövrü hesabatlarında Azərbaycanda sərbəst toplaşma azadlığının məhdudlaşdırıldığını dəfələrlə qeyd etmişdir.

Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqası ölkədə sərbəst toplaşma azadlığı hüququnun təmin olunmasının real vəziyyətini öyrənmək məqsədi ilə obyektiv indikatorlardan istifadə etməklə monitorinq həyata keçirmişdir. Layihə Açıq Cəmiyyət İnstitutunun İnsan Hüquqları və İdarəetmə üzrə Qrant Proqramı (Budapeşt) tərəfindən maliyyələşdirilmişdir.

Monitorinq zamanı aşağıdakı monitorinq alətləri tətbiq olunmuşdur:

**Qanunvericiliyin analizi**

**"Sərbəst toplaşma haqqında"** Azərbaycan Respublikası Qanunu və bu qanunun icrasının təmin olunması ilə bağlı mövcud olan qanun qüvvəli aktlar analiz edilmişdir. Qanunvericiliyin analizi zamanı ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosunun (ODIHR) "Toplaşma azadlığına dair qanunvericiliyin hazırlanması üzrə" Rəhbər Prinsipləri və İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin müvafiq məhkəmə prisidentləri ilə müqayisələr aparılmışdır.

**İctimai təşkilat, siyasi partiya fəalları arasında sorğuların təşkili**

Peşəkar sosioloq ölkənin aparıcı siyasi partiyalarının, ictimai təşkilatların fəalları arasında sorğular keçirmiş və nəticələrə uyğun olaraq yekun rəy hazırlamışdır. Anonim keçirilən yazılı anket sorğusu əsasən Bakı, Gəncə, Əli-Bayramlı və Sumqayıt şəhərlərində aparılmışdır. Sorğulara

110 nəfər cəlb olunmuşdur. Nəticələr əsasında rəy hazırlanmışdır.

**Toplantı keçirməklə bağlı verilən xəbərdarlıqlara müvafiq icra hakimiyyəti orqanlarının cavablarının analizi**

Əsasən Bakı şəhər İcra Hakimiyyətinə müxtəlif siyasi partiya və ictimai təşkilatların toplantı keçirməklə bağlı müxtəlif vaxtlarda ünvanladığı xəbərdarlıq məktubları və onlara Bakı şəhər İcra Hakimiyyətinin cavab məktubları analiz edilmiş və hesabat hazırlanmışdır. Hesabatda şəhər icra hakimiyyətinin kütləvi tədbirin keçirilməsinə qoyduğu qadağaların əsaslandırılması həm Milli qanunvericilik, o cümlədən Konstitusiyanın müvafiq müddəaları, həm də beynəlxalq normalar kontekstində qiymətləndirilmişdir.

**Kütləvi aksiyaların hakimiyyət orqanları tərəfindən dağıdılması zamanı fiziki zorakılığa məruz qalmış və məsuliyyətə cəlb edilmiş şəxslərlə strukturlaşmamış intervülərin təşkili**

Müxtəlif vaxtlarda toplantılarda iştiraka görə güc strukturlarının fiziki zorakılığına məruz qalmış və ya iştiraka görə cəzalandırılmış 20 nəfərlə strukturlaşmamış intervülər keçirilmişdir.

Müxtəlif siyasi qüvvələri, ictimai təşkilatları təmsil edən, yaxud bitərəf olan şəxslər onlara verilən suallara cavablar vermiş, zorakılığa məruz qaldıqları toplantıda baş verən hadisələri təsvir etmişlər.

**Toplantılar zamanı toplantı iştirakçılarının, təşkilatçıların və asayişi təmin edən qüvvələrin davranışının müşahidəsi**

Bakı şəhərində təşkil olunan iki toplantı müşahidə edilmişdir. Bunlardan biri yürüş-mitinq, digəri isə piket olmuşdur. Yürüş mitinq "Müsavat" partiyası tərəfindən 18 mart 2007-ci il tarixində, piket isə 15 may 2007-ci il tarixində "Azadlıq", "Yeni Müsavat", "Bizim yol", "Gündəlik Azərbaycan", "Realnıy Azerbaydjan" qəzetləri, "Qanun" jurnalı, "Turan" informasiya agentliyi tərəfindən təşkil olunmuşdur. Birinci tədbir hakimiyyət orqanları tərəfindən sanksiyalaşdırılmış, digərinin keçirilməsinə isə qadağa qoyulmuşdur. Müşahidə zamanı "müşahidə xəritəsində" müvafiq qeydlər aparılmış və fotoşəkillər çəkilmişdir.

**Mətbuatın analizi**

3 ay ərzində ölkənin 3 populyar qəzeti "Azadlıq", "525-ci qəzet", və "Zerkalo" qəzetlərində Sərbəst toplaşma azadlığı ilə bağlı olan yazılar izlənilmişdir. Nəticələrə uyğun olaraq rəy hazırlanmışdır.

Hər bir monitorinq aləti üzrə ayrıca rəy hazırlanaraq monitorinq hesabatına daxil edilmişdir. Bu rəylərə əsasən isə yekun monitorinq hesabatı və tövsiyyələr hazırlanmışdır. Monitorinq zamanı məlumatların və statistik göstəricilərin əldə edilməsi məqsədi ilə həm siyasi partiya və ictimai təşkilatlara, həm də müvafiq icra hakimiyyəti orqanlarına informasiya sorğuları göndərilmişdir. Siyasi partiya və ictimai təşkilatlar sorğulara mümkün qədər operativ cavablar vermiş və soruşulan informasiyaları cavablandırmışlar. Lakin Bakı şəhər İcra Hakimiyyəti və Əli-Bayramlı şəhər İcra Hakimiyyəti "İnformasiya əldə etmək haqqında" Qanunun tələblərini kobud surətdə pozaraq sorğuları cavablandırmamışlar. Yalnız Gəncə şəhər İcra hakimiyyəti verilən informasiya sorğusuna cavab göndərmişdir.

## Monitorinqin əhatəliyi

Layihə çərçivəsində həyata keçirilən monitorinq əsasən ictimai-siyasi proseslərin mərkəzi olan Bakı şəhərində həyata keçirilmişdir. Eyni zamanda müəyyən monitorinq alətləri həmçinin Gəncə və Əli-Bayramlı şəhərlərində də tətbiq olunmuşdur.

## Təşəkkür

Monitorinqin həyata keçirilməsinə maliyyə dəstəyi göstərmiş Açıq Cəmiyyət İnstitutunun İnsan Hüquqları və İdarəetmə Proqramına (Budapeşt), Açıq Cəmiyyət İnstitutu-Yardım Fonduna (Azərbaycan), monitorinqin keçirilməsi üçün dəyərli məsləhətlər vermiş Polşanın İnsan Hüquqları üzrə Helsinki Fondunun Ekspertlərinə və Layihəni həyata keçirən personala dərin təşəkkürümüzü bildiririk.

## Məsuliyyət

Layihənin işçi heyəti və layihəyə cəlb edilmiş ekspertlər monitorinqin həyata keçirilməsi və hesabatın hazırlanması zamanı səylərini əsirgəməmişdir və bu fəaliyyət kollektiv əməyin məhsuludur. Bununla belə monitorinq prosesində və hesabatın hazırlanmasında buraxılan səhvlərə görə məsuliyyət layihə rəhbərinin üzərinə düşür.

■

**Sahib Məmmədov**

# QANUNVERİCİLİYİN ANALİZİ

**Azərbaycan Respublikasında sərbəst toplaşma azadlığının Konstitusion əsasları**

Azərbaycan Respublikasının Konstitusiyası 12 noyabr 1995-ci ildə ümumxalq referendum yolu ilə qəbul edilmişdir. 24 avqust 2002-ci ildə Konstitusiyaya əlavə və dəyişikliklər edilmiş və həmin dəyişikliklər referendum yolu ilə qəbul olunaraq 19 sentyabr 2002-ci ildə qüvvəyə minmişdir.

Azərbaycan Respublikası Kostitusiyasının ikinci bölməsinin üçüncü fəsli, yaxud 48 maddəsi (24-71) "Əsas insan və vətəndaş azadlıqları" na həsr olunmuşdur.

Əsas Qanunun qəbul olunduğu vaxt ölkədə mövcud olan mürəkkəb ictimai-siyasi vəziyyət, keçid dövrünün problemləri, insan hüquq və azadlıqlarının beynəlxalq standartlara uyğun şəkildə və tam həcmdə Konstitusiyaya daxil edilməsinə mane olmadı.

Əksinə, Konstitusiyanın 12-ci maddəsində insan hüquq və azadlıqlarının təmin edilməsi dövlətin ali məqsədi kimi əks olundu. Həmin maddəyə görə *"…Konstitusiyada sadalanan insan və vətəndaş hüquq və azadlıqları Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun tətbiq olunur".*

İnsan hüquq və azadlıqlarına dair müddəaların elan olunması və ölkə Konstitusiyasına daxil edilməsi olduqca mühüm bir hadisə idi. Lakin bu həmin hüquq və azadlıqların real həyatda bərqərar olduğu demək deyildir.

Konstitusiya vasitəsi ilə hüquq və azadlıqların bəyan olunmasından sonra ölkədə insan hüquq və azadlıqlarının təmin olunması ciddi problem olaraq qalmaqdadır. Təəssüf ki, insan hüquq və azadlıqlarına ən ali qanun vasitəsi ilə təminat verilməsi reallıqda bu hüquq və azadlıqların tam bərqərar olunmasına gətirib çıxarmadı.

Konstitusiyada yer almış funda-

mental azadlıqlar içərisində toplaşma azadlığı hüququnun da əks olunması zəruri idi və sərbəst toplaşmaq azadlığı hüququnun olmadığı demokratik cəmiyyəti təsəvvür etmək mümkün deyildir.

Konstitusiyanın 49-cu maddəsi hər kəsin başqaları ilə birlikdə sərbəst toplaşma azadlığı hüququnu özündə təsbit etmişdir.

Konstitusiyada əks olunmuş bu azadlıq birbaşa qüvvəyə malik olsa da bu azadlığın həyata keçirilməsi və məhdudlaşdırılması ayrıca qanunla tənzim olunur.

## Azərbaycan Respublikasında sərbəst toplaşma azadlığının Beynəlxalq Normalar vasitəsi ilə müdafiəsi

Ölkənin 1992-ci ilin avqust ayında tərəfdar çıxdığı **"Mülki və Siyasi Hüquqlara dair Beynəlxalq Pakt"ın 21-ci maddəsinə görə**

Dinc yığıncaqlar hüququ tanınır. Bu hüquqdan istifadə edilməsinə qanuna müvafiq olaraq qoyulan və demokratik cəmiyyətdə

☑ dövlət təhlükəsizliyinin, yaxud ictimai təhlükəsizliyin;
☑ ictimai asayişin təmin olunması;
☑ əhalinin sağlamlıq və mənəviyyatının mühafizəsi;
☑ yaxud başqa şəxslərin hüquq və azadlıqlarının müdafiəsi üçün

zəruri olanlardan başqa heç bir məhdudiyyət qoyulmur

## İnsan Hüquqları və Əsas Azadlıqların Müdafiəsinə dair Avropa Konvensiyasının 11-ci maddəsinə görə

Hər kəsin dinc toplaşmaq azadlığı hüququ… vardır. Bu hüququn həyata keçirilməsinə

☑ Milli və ictimai təhlükəsizliyin təmin olunması;
☑ Asayişin təmin olunması və cinayətin qarşısının alınması;
☑ Sağlamlığın və mənəviyyatın mühafizəsi;
☑ Digər şəxslərin hüquq və azadlıqlarının müdafiəsi üçün qanunla nəzərdə tutulmuş və demokratik cəmiyyətdə zəruri olanlardan başqa heç bir məhdudiyyət qoyula bilməz.

Bu maddə silahlı qüvvələr, polis və ya inzibati dövlət orqanları üzvlərinin bu hüquqların həyata keçirilməsinə qanuni məhdudiyyətlər qoyulmasına mane olmur.

## SƏRBƏST TOPLAŞMA AZADLIĞI HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI QANUNU

### Ümumi müddəalar və əsas anlayışlar

Azərbaycan Respublikası Konstitusiyasının 49-cu maddəsində əks olunmuş sərbəst toplaşma azadlığının həyata keçirilməsini və onun Konstitusiyada və ölkənin tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə əks olunmuş hallarda məhdudlaşdırılması

məqsədi ilə 13 noyabr 1998-ci il tarixində "Sərbəst toplaşma haqqında" Azərbaycan Respublikası Qanunu qəbul olunmuşdur. 4 mart 2005-ci il tarixində Qanuna əlavə və dəyişikliklər edilmişdir. Bu Qanundan əlavə ölkədə bir sıra normativ hüquqi aktlar da vardır ki, həmin aktların da müəyyən müddəaları sərbəst toplaşma azadlığının təmin olunması, bu azadlığın həyata keçirilməsinə əngəl yaradan və ya sui-istifadə edən şəxslərin məsuliyyəti ilə bağlı məsələləri tənzim edir.

Sərbəst toplaşma azadlığının həyata keçirilməsinin tənzimlənməsi ilə bağlı qüvvədə olan sənədlər sırasında Azərbaycan Respublikası Prezidentinin "Milli Məclisə seçkilərin keçirilməsinə hazırlıqla bağlı təxirə salınmaz tədbirlər haqqında" sərəncamının 5-ci bəndi, Bakı şəhər İcra Hakimiyyəti Başçısının 27 oktyabr 2006-cı il 318 saylı Bakı şəhərində toplantıların, mitinqlərin və küçə yürüşlərinin keçirilməsi üçün yerlərin ayrılmasına dair sərəncamı, eləcə də Respublikanın digər rayon və şəhərlərinin icra hakimiyyəti orqanlarının sərbəst toplaşma azadlığının həyata keçirilməsinə dair sərəncamları da vardır.

"Sərbəst Toplaşma azadlığı haqqında" Qanunun 2-ci maddəsində verilmiş əsas anlayışlarda kütləvi tədbirlərin aşağıdakı təsnifatı verilir.

**"Yığıncaq"** - şəxslərin hər hansı məsələni birlikdə müzakirə etmək və həmin məsələyə dair qərar qəbul etmək məqsədi ilə toplaşmasıdır.

**"Mitinq"**- Toplaşmış şəxslərin ümumi fikirlərini ifadə etmək və ya ümumi çağrışlar etmək, tələblər irəli sürmək üçün keçirilən kütləvi aksiyadır.

**"Nümayiş"**- bir qrup şəxsin ictimai və dövlət həyatı ilə bağlı məsələlərə dair fikirlərinin ifadəsidir.

**"Küçə yürüşü"** - müəyyən marşurutla hərəkət edən bir qrup şəxsin ictimai və dövlət həyatı ilə bağlı məsələlərə dair fikirlərinin ifadəsidir.

**"Piket"** - ictimai və dövlət həyatı ilə bağlı məsələlərə dair fikirlərini ifadə edən şəxslərin nümayişdə iştirak edənlərdən daha kiçik bir qrupun müəyyən yerdə toplaşmasıdır.

Qanunda kütləvi aksiyaların təsnifatının məhdudluğu praktikada problemlər yaradır. Belə ki, qanunda sadalanan növlərdən başqa hər hansı bir digər formada aksiyaların keçirilməsinə icazə verilmir. Halbuki digər ölkələrin praktikasında kütləvi aksiyaların daha çox növləri vardır. Qanunda verilmiş "yığıncaq" və "mitinq" anlayışları arasında fərqin nədən ibarət olması bəlli deyildir.

Qanun bir sıra toplantı formalarını tənzimləmir. Belə toplantılar içərisində şəxslərin xüsusi mülkiyyətində, icarəsində və ya başqa növ qanuni istifadəsində olan yerlərdə keçirilən toplantılar Sərbəst toplaşma haqqında Qanunla tənzimlənmir.

Məsələn, özəl stadionda keçirilən mitinqi Qanun tənzimləmədiyi halda, dövlətə və yaxud bələdiyyə orqanına məxsus olan stadionda keçirilən eyni xarakterli mitinq qanunun təsiri

altına düşür. Halbuki, bir çox ölkələrin praktikasında adı gedən yerlərdə keçirilən toplantılar da kütləvi tədbir hesab olunur və qanunun təsiri altına düşür.

Toy və dəfn mərasimləri, bayram və matəm tədbirləri, dini mərasimlər, qapalı yerlərdə keçirilən ictimai tədbirlər də Sərbəst toplaşma haqqında Qanunun təsiri altına düşmür.

Qanunun 5-ci maddəsinin IV hissəsində əks olunan təsadüfü toplantı anlayışına geniş açıqlama verilmir. Belə olan halda hər hansı idman tədbirindən, geniş konsert proqramından sonra azarkeşlərin və ya tamaşaçıların toplaşaraq müzakirələr açması halları da Qanunun təsiri altına düşür. Halbuki, belə tədbirlər əlamətlərinə görə Avropa Konvensiyasının 11-ci maddəsində əks olunmuş toplaşma azadlığının əlamətlərindən fərqlənir. Konvensiyanın 11-ci maddəsinin müdafiəsi altına düşən kütləvi aksiyalar ilk növbədə insanların özünü ifadə, əqidə azadlığını, fikir azadlığının təmin olunmasına yönələn aksiyalar, o cümlədən mitinq, küçə yürüşü, piket, nümayiş və s. formada olan kütləvi aksiyalardır.

Ümumiyyətlə qanunvericilikdə təsadüfi toplantılar anlayışı yalnız qanunun 5-ci maddəsinin IV hissəsində xatırlanır və ona geniş açıqlama verilmir. Lakin qanunun məzmunundan belə qənaətə gəlmək mümkündür ki, təsadüfi toplantı beynəlxalq praktikada mövcud olan spontan (spontaneus) toplantının analoqudur. Lakin ölkədə mövcud olan praktika bundan ibarətdir ki, "Sərbəst toplaşma azadlığı haqqında" Qanunda nəzərdə tutulan məqsədlər üçün qəfildən və əvvəlcədən xəbərdarlıq edilmədən toplaşma hakimiyyət tərəfindən sanksiyalaşdırılmamış toplantı kimi qiymətləndirilir. 2003-cü ilin oktyabr ayının 15-də Prezident seçkiləri başa çatdıqdan dərhal sonra ilkin nəticələrə etiraz məqsədi ilə Müsavat Partiyasının qarşısına toplaşanlara qarşı polis zorakılığı tətbiq edilərkən məhz bu toplantı sanksiyalaşdırılmamış toplantı kimi qiymətləndirilmişdir. Halbuki bu toplantı xarakterinə görə spontan toplantı idi. Seçicilər seçkilərin nəticələrinə etiraz etmək üçün daxili tələbatlarına əsaslanaraq əsas müxalifət namizədinin seçki qərargahının qarşısına toplaşmağa başlamışdır.

ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosunun (ODIHR) "Toplaşma azadlığına dair qanunvericiliyin hazırlanması üzrə" Rəhbər Prinsiplərinin (dekabr 2004) 4.3 bəndində əks olunan tövsiyyələrdə qeyd olunur ki, *"spontan aksiyalar qarşısına qanuni məqsədlər qoymaqla dinc yolla davam edə bilər"*. Belə olan halda onun dağıdılması toplaşma azadlığının pozulmasıdır.

## Toplantının təşkil edilməsi və toplantı təşkilatçıları

Toplantının təşkil edilməsi üçün müvafiq icra hakimiyyəti orqanına yazılı xəbərdarlıq göndərilməlidir. Sərbəst toplaşma azadlığı haqqında qanunun 5-ci maddəsinə əsasən bu xəbərdarlıq nəzərdə tutulmuş toplan-

tının keçirilməsindən ən azı 5 gün əvvəl təqdim edilməlidir. Yazılı xəbərdarlığa toplantının adı, məqsədi, keçirilmə yeri və vaxtı, iştirakçıların təxmini sayı, küçə yürüşü keçirilirsə, onun təklif edilən marşurutu (yürüşün başlanma yeri, məsafəsi və bitəcəyi yer), toplantı təşkilatçılarının tam adı və ünvanı, yazılı xəbərdarlığın təqdim edildiyi tarix, əlaqə telefonları və ya onlar olmadıqda əlaqə ünvanı barədə məlumatlar daxil edilməlidir. Təşkilatçıların hamısı yazılı xəbərdarlığı imzalamalıdır.

Qanun 5-ci maddəsində təsadüfi toplantılar üçün xəbərdarlığın edilməsi nəzərdə tutulmur. Bununla belə təsadüfü toplantılar qanunda nəzərdə tutulmuş hallarda məhdudlaşdırıla və dayandırıla bilər.

Göründüyü kimi, Qanun xəbərdarlıq məktubunun tərkibi ilə bağlı həddən artıq çox tələblər qoymuşdur. Əslində xəbərdarlıq hər hansı siyasi, ictimai təşkilatın, yaxud insanlar qrupunun kütləvi tədbir keçirmək niyyəti barədə olmalıdır. Burada iştirakçıların təxmini say tərkibi barədə məlumatın tələb olunması asayişi təmin edən qüvvələrin sayının adekvat müəyyən olunması üçün əhəmiyyət kəsb etsə də toplantının məqsədi barədə təfsilatlı məlumatın tələb edilməsi yersizdir. Praktikada icra hakimiyyəti orqanlarının hətta kütləvi aksiyada şifahi səslənəcək və ya yazılı nümayiş etdiriləcək şüarlar barədə əvvəlcədən məlumat vermək tələbi qoyma halları vardır.

Qanunun 6-cı maddəsinə görə toplantını təşkil edən, adı müvafiq icra hakimiyyəti orqanına təqdim edilmiş yazılı xəbərdarlıqda göstərilən şəxsdir. Qanuna görə yaşı 18-dən az olanlar və fəaliyyət qabiliyyəti məhkəmənin qanuni qüvvəyə minmiş qərarı əsasında məhdudlaşdırılmış şəxslər dinc toplantının təşkilatçısı ola bilməzlər.

Eyni zamanda əcnəbilər və vətəndaşlığı olmayan şəxslər siyasi məqsədi olan dinc toplantının təşkilatçısı ola bilməzlər. Bununla belə Azərbaycan Respublikası Konstitusiyasının 49-cu maddəsində əks olunan sərbəst toplaşma azadlığı, o cümlədən belə toplantılarda iştirak və onu təşkil etmək yalnız ölkə vətəndaşlarına deyil, həmçinin əcnəbilərə və vətəndaşlığı olmayanlara da aiddir. Konstitusiya müddəasında əks olunmuş "hər kəs" ifadəsi həm vətəndaşlara, həm də əcnəbi vətəndaşlığı olmayan şəxslərə şamil olunur. Qanunda əcnəbilərə və vətəndaşlığı olmayanlara yalnız siyasi məqsəd daşıyan dinc toplantıların təşkilatçısı olmaq qadağan edilir, bu da ölkə Konstitusiyasına və ölkənin tərəfdar çıxdığı müvafiq beynəlxalq normalara uyğundur.

## Dinc toplantıların məhdudlaşdırılması və ya qadağan edilməsi əsasları və qaydası

Azərbaycan Respublikası Konstitusiyasının 49-cu maddəsində əks olunmuş "sərbəst toplaşma azadlığı" Konstitusiyada və ölkənin tərəfdar çıxdığı Beynəlxalq normalarda əks olunmuş qaydalara uyğun olaraq

müəyyən olunmuş hallarda məhdudlaşdırıla və ya qadağan oluna bilər. "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının həyata keçirilməsinin tənzimlənməsi haqqında" Azərbaycan Respublikası Konstitusiya Qanununun 3-cü maddəsinə görə sərbəst toplaşma azadlığı hüququ iğtişaşların qarşısının alınması və ictimai təhlükəsizliyin qorunması naminə məhdudlaşdırıla bilər və ya ona qadağa qoyula bilər.

Həm ölkə Konstitusiyasına, həm də ölkənin tərəfdar çıxdığı beynəlxalq normalara əsasən sərbəst toplaşma azadlığı fundamental azadlıqlar sırasındadır və bu hüququn məhdudlaşdırılması və ya qadağan olunması istisna hal və son zəruri tədbir kimi tətbiq olunmalıdır.

"Sərbəst toplaşma azadlığı haqqında" Qanun Konstitusiyada və beynəlxalq normaların müəyyən etdiyi məhdudlaşdırma və qadağa hallarından daha geniş spektrdə məhdudiyyət və qadağaları nəzərdə tutur. Bu qadağaların və məhdudiyyətlərin əksəriyyəti "qanunda nəzərdə tutulmuş və demokratik cəmiyyətdə zəruri olan" həddi aşır.

Odur ki, fikrimizcə bu Qanunda sərbəst toplaşma azadlığının məhdudlaşdırılması və ya qadağan edilməsi istisna hal kimi deyil qayda kimi nəzərdə tutulmuşdur. Qanunun mahiyyəti bu azadlığın təmin olunmasına deyil, onun qarşısının alınmasına xidmət edir.

Qanunun 7-ci maddəsinin I bəndinə görə məhdudiyyətlərin tətbiqi aşağıdakı hallarda nəzərdə tutulur:

☑ ictimai və dövlət təhlükəsizliyi mənafelərinin qorunması üçün;

☑ ictimai aşayişin pozulmasının qarşısını almaq üçün;

☑ iğtişaş və ya cinayətin baş verməməsi üçün;

☑ əhalinin sağlamlığının mühafizəsi üçün;

☑ əxlaq normalarının və mənəviyyatın mühafizəsi üçün;

☑ başqa şəxslərin hüquq və azadlıqlarının müdafiəsi üçün.

Yuxarıda nəzərdə tutulan hallarda sərbəst toplaşma azadlığı müxtəlif formalarda, o cümlədən toplantı vaxtının və yerinin dəyişdirilməsi formasında məhdudlaşdırıla bilər.

Maddənin III hissəsində göstərilir ki, yuxarıdakı hallarda sərbəst toplaşma azadlığına məhdudiyyətlər qoyularkən mütənasiblik (proporsionallıq) nəzərə alınmalıdır. Lakin praktikada məhdudiyyətlər tətbiq edilərkən proporsionallıq nəzərə alınmır nəticədə tətbiq olunan məhdudiyyət adekvat olmur. Qanunun tələblərinə zidd olaraq məhdudiyyətin və qadağanın tətbiqinin nə dərəcədə zəruri olması əsaslandırılmır.

Qanunun 8-ci maddəsində toplantıların qadağan edilməsi və dayandırılması halları müəyyən olunur. Qadağan olunan toplantılar:

☑ ayrı-seçkiliyə, ədavətə və ya zorakılığa çağrışlarla müşayət olunan, milli, irqi və ya dini ədavəti təbliğ edən toplantılar;

☑ müharibəni təbliğ edən toplantılar;

Qanuna görə aşağıda göstərilən hallarda siyasi məqsədlə dinc toplan-

tılar keçirmək qadağan edilir:

☑ Azərbaycan Respublikası Prezidentinin seçkiləri (ölkə ərazisində), Azərbaycan Respublikası Milli Məclis deputatlarının seçkiləri (ölkə ərazisində), Naxçıvan Muxtar Respublikası Ali Məclis deputatlarının seçkiləri (Naxçıvan MR ərazisində), bələdiyyə seçkiləri (müvafiq şəhər və rayon ərazisində) gününə 24 saat qalmışdan seçki günü səsvermə məntəqələri bağlananadək;

☑ Referendum keçirildiyi günə 24 saat qalmışdan səsvermə məntəqələri bağlananadək;

☑ Müvafiq icra hakimiyyəti orqanının qərarı ilə müəyyən edilmiş mühüm dövlət əhəmiyyətli beynəlxalq tədbirlərə hazırlıq dövründə və onların keçirildiyi günlərdə həmin tədbirin keçirildiyi şəhər və rayonun ərazisində.

Sonuncu qadağa halı istisna olmaqla yuxarıda göstərilən hallarda toplantıların qadağan edilməsi ölkə Konstitusiyasında və ölkənin tərəfdar çıxdığı Beynəlxalq normalarda əks olunan prinsiplərə zidd deyildir. Lakin "mühüm dövlət əhəmiyyətli beynəlxalq tədbirlərə hazırlıq və onun keçirildiyi günlərdə" toplantıların qadağan olunması sərbəst toplaşma azadlığının ciddi surətdə pozulmasıdır. Eyni zamanda Qanunda "mühüm dövlət əhəmiyyətli beynəlxalq tədbir" deyəndə hansı tədbirlərin nəzərdə tutulduğu tam aydın deyildir. Dünyanın bir sıra ölkələrində iqtisadi forumlar və ya böyük dövlətlərin rəhbərlərinin iştirak etdikləri zirvə toplantıları zamanı antiqlobolistlərin kütləvi etiraz aksiyaları təşkil etməsi adi bir haldır. Baxmayaraq ki, əksəriyyət halda hətta bu toplantılar tam dinc xarakter daşımır, amma belə toplantılar demokratik cəmiyyətdə zəruri olan tədbir kimi qəbul edilir və qadağan edilmir.

Qanunda heç bir açıqlama verilmədiyi üçün müvafiq icra hakimiyyətləri "mühüm dövlət əhəmiyyətli beynəlxalq tədbir" anlayışı altına bir neçə ölkə nümayəndəsinin iştirak etdiyi forum və ya beynəlxalq kino festivalı və ya sərgini də daxil edə bilərlər və praktikada belə hallar mövcuddur.

Yuxarıda sadalanan hallarda qadağaların tətbiq edilməsi haqqında sərəncamı müvafiq icra hakimiyyəti orqanları qəbul edir.

Qanunun 7-ci maddəsinin I bəndində müəyyən edilən məhdudiyyətlər nəzərə alınmaqla toplantı müvafiq icra hakimiyyəti orqanının sərəncamı ilə dayandırıla bilər. Qanunun 8-ci maddəsində toplantıların qadağan edilməsi və dayandırılması son zərurət tədbiri kimi nəzərdə tutulsa belə praktikada qayda kimi tətbiq olunur. Müvafiq orqanlar Qanunda əks olunmuş qadağa və məhdudiyyətləri toplantıların keçirilməməsi üçün əsas arqument kimi istifadə edirlər və yuxarıda qeyd olunduğu kimi bu zərurəti heç bir ciddi arqumentlə əsaslandırmırlar.

Qanunun 8-ci maddəsinə görə toplantılar həmçinin fövqəladə vəziy-yətin qüvvədə olduğu müddətdə, onun tətbiq edildiyi ərazilərdə də

məhdudlaşdırıla, qadağan edilə bilər. Bu müddəa həmçinin "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının həyata keçirilməsinin tənzimlənməsi haqqında" Azərbaycan Respublikası Konstitusiya Qanununda da yer almışdır.

### Toplantıların keçirilmə yerləri və vaxtı, onlara qoyulan məhdudiyyətlər

Sərbəst toplaşma azadlığı haqqında Qanunun 9-cu maddəsi toplantıların keçirilməsi yerləri və vaxtı ilə bağlı məhdudiyyətlər müəyyən edir. Toplantının keçirilmə yerinə və vaxtına qoyulan məhdudiyyətlər Qanunun 7-ci maddəsində əks olunmuş sərbəst toplaşma azadlığına qoyulan şərtlər daxilində, həmçinin aşağıda göstərilən hallarda tətbiq edilə bilər.

- əgər toplantı təşkilatçılarının yazılı xəbərdarlığında göstərilmiş yerdə və vaxtda başqa bir tədbirin keçirilməsi təyin edilibsə.

Belə olduqda müvafiq icra hakimiyyəti orqanı təşkilatçılara başqa vaxtın və yerin müəyyən edilməsi üçün imkan verməlidir. Dəyişdirilmiş yer və vaxt haqqında təşkilatçılar müvafiq icra hakimiyyəti orqanına tədbirin keçirilməsi üçün müəyyən olunan yeni yer və vaxt haqqında toplantının keçirilməsinə ən azı üç gün qalmış məlumat verməlidirlər.

Qanunda ümumiyyətlə toplantıların keçirilməsi qadağan olunan yerlər də müəyyən olunmuşdur.

"Sərbəst toplaşma azadlığı haqqında" Qanunun 9-cu maddəsinin III hissəsinə görə aşağıda göstərilən yerlərdə yığıncaqların, mitinqlərin, nümayişlərin keçirilməsi qadağan olunur.

- Azərbaycan Respublikasının qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarının yerləşdiyi binaların ətrafında 300 metr radius çərçivəsində;
- dəmir yolu, neft və qaz boru kəmərlərinin, yüksək gərginlikli elektrik xətlərinin keçdiyi ərazilərdə;
- xüsusi dövlət tədbirlərinin keçirilməsi üçün müvafiq icra hakimiyyəti orqanı tərəfindən ayrılmış yerlərdə;
- hərbi məqsədlər üçün istifadə olunan ərazilərdə və bu ərazilərin sərhədlərinə 300 metrdən yaxın olan yerlərdə;
- azadlıqdan məhrumetmə yerlərinin, psixatriya müalicə müəssisələrinin ərazilərində və bu ərazilərin sahələrinə 300 metrdən yaxın olan yerlərdə;

Qanunda sərbəst toplaşma azadlığının müəyyən yerlərdə həyata keçirilməsinə məhdudiyyətlərin qoyulmasını normal qəbul etmək olardı, lakin qanunda xüsusi dövlət tədbirlərinin keçirilməsi üçün ayrılmış yerlərdə kütləvi tədbirlərin keçirilməsinin bütün vaxtlarda qadağan edilməsi toplaşma azadlığının lüzumsuz məhdudlaşdırılmasından başqa bir şey deyildir. Məsələn, hər hansı bir meydan xüsusi dövlət tədbirinin keçirilməsi üçün nəzərdə tutulmuşdursa, həmin ərazidə tədbirin keçirilmə ərəfəsində və onun keçirildiyi vaxtda digər toplantıların keçirilməsinə

məhdudiyyət qoyula bilər. Lakin digər vaxtlarda belə məhdudiyyətlərin tətbiqi lüzumsuzdur.

Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə Bakı şəhərinin ən böyük meydanı olan "Azadlıq" meydanı xüsusi dövlət tədbirlərinin keçirilməsi üçün nəzərdə tutulmuşdur və burada hər hansı toplantının keçirilməsi qadağan olunur. Ənənəvi olaraq bütün kütləvi tədbirlərin keçirildiyi bu meydanın sərbəst toplaşma azadlığının həyata keçirilməsi üçün qadağan edilməsi başa düşülən deyildir. Bu meydan həm sahəsinə, həm yaşayış evlərindən müəyyən məsafədə olmasına görə və nəqliyyatın hərəkətinə maneə yaratmamaq baxımından olduqca əlverişli bir yerdir. Bu meydanda dövlət tədbirləri olduqca nadir hallarda (ən yaxşı halda il ərzində bir-iki dəfə) keçirilir. Prezidentin bu aktı əslində Konstitusiyanın 49-cu maddəsində əks olunmuş sərbəst toplaşma azadlığının məhdudlaşdırılmasına gətirib çıxarır.

Yığıncaq, mitinq və nümayişlərin qanunverici, icra və məhkəmə hakimiyyəti orqanlarının yerləşdiyi binaların 300 metrlik radiusu çərçivəsində keçirilməsinin qadağan olunması o deməkdir ki, paytaxt Bakının mərkəzi hissəsində belə tədbirlər ümumiyyətlə keçirilə bilməz. Çünki bu orqanların Bakı şəhərində yerləşmə nöqtələri buna imkan vermir. Şəhərin istənilən mərkəzi hissəsi adı çəkilən orqanların birinin 300 metrlik radiusu çərçivəsinə daxildir. Belə hesab etmək olar ki, Qanunda əks olunmuş bu müddəa da sərbəst toplaşma azadlığını əsassız olaraq məhdudlaşdırır.

Qanunda həmçinin siyasi məzmunlu toplantıların ziyarətgahlarda, ibadətgahlarda və qəbirstanlıqlarda keçirilməsi qadağan olunur.

Piketlərin keçirilməsi üçün də məhdudiyyətlər mövcuddur. Ümumiyyətlə piketlərin keçirilməsi üçün xəbərdarlığın digər daha çoxsaylı kütləvi tədbirlərlə eyni şərtlər çərçivəsində qoyulması məqsədəuyğun deyildir. Bir çox ölkələrin praktikasında piketlərin keçirilməsi üçün müvafiq icra hakimiyyəti orqanlarına xəbərdarlıq edilməsi nəzərdə tutulmur və ya daha sadə xəbərdarlıq forması nəzərdə tutulur. Qanuna görə piket iştirakçılarının sayı 50 nəfərdən çox olmamalıdır, piket tədbirin keçirildiyi obyektin girişinə 10 metrdən yaxın məsafədə yerləşməməli, giriş-çıxış üçün maneələr yaratmamalıdır. Piket iştirakçıları 10 vattdan yüksək olan səs gücləndiricilərdən istifadə edə bilməzlər.

Qanunvericilik səviyyəsində sərbəst toplaşma azadlığının təmin olunması məqsədi ilə toplantıların keçirilmə yerinə lüzumsuz məhdudiyyətlərin qoyulmasına şərait yaradan müddəalardan biri də Qanunun 9-cu maddəsinin IV hissəsində yer almışdır. Həmin müddəaya görə yığıncaqların, mitinqlərin və nümayişlərin keçirilməsi üçün hər bir şəhər və rayonda müvafiq icra hakimiyyəti orqanı xüsusi yerlər ayırmalıdır. Toplantı təşkilatçıları yalnız ayrılmış yerlərin birini seçə və orada toplantı keçirə bilərlər.

Qanunda əks olunmuş bu müddəa praktikada ciddi Konstitusion pozuntulara gətirib çıxarır.

Şəhər və rayon icra hakimiyyətləri öz aktları ilə belə toplantıların keçirilməsi üçün yerləri elə şəkildə müəyyən edirlər ki, bir çox hallarda həmin toplantı mahiyyətini itirir və əksəriyyət iştirakçılar üçün əlçatmaz olur.

Məsələn, ölkənin paytaxtı Bakı şəhərində kütləvi tədbirlərin keçirilməsi üçün məhdud sayda yerlər müəyyən olunur. Bu yerlər bir qayda olaraq şəhərin mərkəzi hissəsindən onlarla kilometr məsafədə, əhalinin gediş-gəlişinin olmadığı və toplantı keçirilməsi üçün zəruri olan sanitar gigiyenik tələblərə cavab verməyən yerlər olur.

Ölkə Parlamentinə 2005-ci ilin sonunda keçirilmiş seçkilərdən sonra ümumiyyətlə hər hansı toplantıların keçirilməsi de-fakto qadağan edilmişdir. Yalnız ölkədə mövcud olan ictimai və siyasi qüvvələrin, həmçinin beynəlxalq ictimaiyyətin tələblərindən sonra Bakı şəhər İcra Hakimiyyəti Başçısı 27 oktyabr 2006-cı il tarixli 318 saylı sərəncamı ilə "Sərbəst toplaşma haqqında" Qanunun 9-cu maddəsinin IV bəndinə istinad edərək yığıncaq, mitinq, nümayiş və küçə yürüşlərinin keçirilməsi üçün yerlər ayırmışdır. Bu yerlər aşağıdakılardır:

- ☑ Səbail rayonu - "Neftçi" İdman sağlamlıq mərkəzinin Bibiheybətdəki stadionu;
- ☑ Nizami rayonu - Rüstəm Rüstəmov küçəsindən Heydər Əliyev adına Bakı Neft Emalı zavoduna doğru gedən yoldakı meydan;
- ☑ Xətai rayonu - Ukrayna meydanı;
- ☑ Suraxanı rayonu - "Neftçi" İdman-sağlamlıq mərkəzinin Tofiq İsmayılov adına stadionu;

Ayrılmış yerlərdə küçə yürüşlərinin keçirilməsi üçün marşurutlar da müəyyən olunmuşdur. Bunlar:

- ☑ Nizami rayonu - metronun "Neftçilər" stansiyasının yanından başlayaraq (Dakar meydanı), Rüstəm Rüstəmov küçəsindən keçməklə, Heydər Əliyev adına Bakı Neft Emalı zavodunun yaxınlığındakı meydana qədər (məsafə-təxminən 1600 metr);
- ☑ Xətai rayonu - metronun "Həzi Aslanov" stansiyasının yanından başlayaraq Məhəmməd Hadi küçəsindən keçməklə, Ukrayna meydanınadək (məsafə 1200 metr);
- ☑ Suraxanı rayonu - Səttar Bəhlulzadə adına meydandan keçməklə "Neftçi" İdman-sağlamlıq Mərkəzinin Tofiq İsmayılov adına stadionunadək (məsafə-1000 metr).

Sərəncamda göstərilir ki, ayrılan yerlərdə toplantının keçirilməsi vaxtı və ya küçə yürüşünün vaxtı və marşurutu Bakı şəhər İcra Hakimiyyəti ilə razılaşdırılmalıdır.

Respublikanın ikinci böyük şəhəri olan Gəncə şəhərində toplantıların keçirilməsi üçün "Sərbəst toplaşma azadlığı" haqqında qanuna istinad edilərək 11 may 2005-ci il tarixində İcra hakimiyyəti Başçısı 171 saylı sərəncam imzalamışdır. Sərəncama gö-

rə mitinq və nümayişlərin keçirilməsi üçün "Spartak" stadionu (Gəncə şəhəri Əziz Əliyev küçəsi, 59) nəzərdə tutulmuşdur.

Beləliklə, bütün kütləvi toplantılar, iştirakçıların sayından, toplantının formasından asılı olmayaraq icra hakimiyyətlərinin (ölkənin digər şəhər və rayonlarında da analoji qaydada yerlər müəyyən edilmişdir) ayırdığı yerlərin birində, özü də icra hakimiyyəti ilə razılaşdırmaqla (xəbərdar etməklə yox!) keçirilə bilər. Hətta bu yerlərdə toplantının keçirilməsinə də qanunun 7-ci maddəsinə istinad etməklə istənilən vaxt qadağa qoymaq mümkündür.

Bakı şəhərində ayrılan yerlər şəhərin mərkəzi hissəsindən 15-25 km məsafədədir. Bu yerlər əhalinin gur olmadığı yerlərdir və abad deyildir.

Beləliklə, "Sərbəst toplaşma azadlığı haqqında" Qanunun 9-cu maddəsinin IV hissəsində əks olunmuş müddəanın tətbiqi Konstitusiyanın 49-cu maddəsində əks olunmuş sərbəst toplaşma azadlığını məhdudlaşdırır. İcra hakimiyyəti orqanlarının qərarları praktik olaraq toplantıları yalnız müəyyən olunmuş bir neçə yerdən başqa digər bütün yerlərdə keçirilməsinə qadağa qoyur. İcra hakimiyyətləri belə sərəncamlar verərkən şəhərin mərkəzindən uzaq və çox hallarda sanitar-gigiyenik qaydalara uyğun olmayan yerlərin ayrılmasını və digər yerlərdə toplantıların keçirilməsinin qadağan edilməsini heç nə ilə əsaslandırmırlar. Qanunda olan bu müddəanın praktikada yaratdığı qüsur fundamental hüququn-toplaşma azadlığı hüququnun pozulmasına gətirib çıxarır. Digər bütün yerlərdə təşkil edilən yığıncaqlar polis qüvvələri tərəfindən qəddarlıqla dağıdılır.

Yuxarıda qeyd olunduğu kimi əslində Bakı şəhərində müəyyən olunmuş yerlərdə kütləvi aksiyaların keçirilməsi onun mahiyyətini heçə endirir. Çünki kütləvi tədbirin əsas məqsədi əhalinin və dövlət orqanlarının diqqətini hər hansı problemə yönəltmək, həmin problemin geniş əhali ilə müzakirəsini keçirmək və tələblər irəli sürməkdir. Az gediş-gəliş olan və yaşayış məntəqələrindən uzaq yerlərdə, qapalı stadionlarda belə tədbirləri keçirməklə əlbətdə nə geniş əhali kütləsinin, nə də müvafiq hakimiyyət strukturlarının diqqətini qaldırılan hər hansı problemə yönəltmək mümkün deyildir.

"Sərbəst toplaşma azadlığı haqqında" Qanunun 9-cu maddəsinin VIII hissəsinə əsasən toplantılar yay vaxtının tətbiq edildiyi dövrdə səhər saat 8.00-dan, axşam saat 19.00-a qədər, ilin digər dövrlərində isə səhər saat 9.00-dan axşam saat 17.00-dək keçirilə bilər. Beləliklə, toplantılar Qanunvericilik vasitəsi ilə vaxt çərçivələri ilə tənzimlənir. Beləliklə, Qanuna görə davamlı toplantıların keçirilməsi mümkün deyildir. Halbuki ötən əsrin 90-cı illərinədək ölkədə davamlı xarakter daşıyan kütləvi aksiyalar keçirilməsi ənənə halını almışdır.

Belə hesab edirik ki, toplantı iştirakçıları dinc toplantını toplaşdıqları

yerlərdə uzun müddət davam etdirmələri üçün qanunvericilik təminatı olmalıdır. Əgər toplantı dinc xarakter daşıyırsa, iştirakçılar bir sıra ölkələrdə olduğu kimi meydanlarda gecələmək, çadırlar qurmaq və davamlı aksiyalar keçirmək hüququna malik olmalıdır. Dinc toplantı həmçinin birbaşa təzyiq forması olduğu üçün onun fasilələrlə keçirilməsi bir çox hallarda toplantı iştirakçılarının təzyiq imkanlarını məhdudlaşdırır və toplantı birbaşa təzyiq aləti rolunu oynaya bilmir.

**Şikayət prosedurası**

"Sərbəst toplaşma azadlığı haqqında" Qanunun 11-ci maddəsinə görə qanunun 7-9-cu maddələrində nəzərdə tutulmuş bütün qərarlardan müvafiq məhkəməyə şikayət verilə bilər. Şikayətə məhkəmə tərəfindən 3 gün müddətində baxılmalıdır. Məhkəmənin bu cür şikayətlərə dair qərarlarından yuxarı məhkəmələrə şikayət verilə bilər. Qanunda toplaşma azadlığının məhdudlaşdırılması, dayandırılması və ya qadağan edilməsi ilə bağlı məhkəməyə şikayət üçün çıxış olsa da, qanunvericilikdə olan boşluqlar belə şikayətin verilməsini effektsiz edir. Belə ki, şikayətin məhkəmələr tərəfindən baxılması üçün qanunda 3 gün müddət qoyulmuşdur. Ölkədə olan praktika isə bundan ibarətdir ki, icra hakimiyyətləri kütləvi tədbirin keçirilməsinin qadağan olunduğunu tədbirin planlaşdırıldığı vaxta bir gün qalmış elan edirlər. Kütləvi tədbirin təşkilatçısı ən yaxşı halda şikayəti məhkəməyə kütləvi tədbirin keçirilməli olduğu gün verə bilirlər. Bu isə o deməkdir ki, hətta məhkəmə nəzərdə tutulan müddətin üçüncü günü kütləvi tədbirin keçirilməsinin qadağan edilməsinə dair icra hakimiyyətinin qərarını ləğv etsə belə, artıq planlaşdırılmış kütləvi aksiya keçirilə bilmir.

ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosunun (ODIHR) "Toplaşma azadlığına dair qanunvericiliyin hazırlanması üzrə" Rəhbər Prinsiplərinin (dekabr 2004) 4.4 *(Kütləvi tədbirin qadağan olunması)* bəndində tövsiyyə olunur ki, "vacibdir ki, işə toplantının planlaşdırıldığı vaxtdan əvvəl baxılsın və məhkəmə qərarı qəbul olunsun. Bu məhkəmə tərəfindən qadağaya dair qərarın ləğvi halında təşkilatçılara hər halda toplantını keçirməyə imkan verər". Göründüyü kimi "Sərbəst toplaşma azadlığı haqqında" Qanunun 11-ci maddəsi ATƏT-in rəhbər prinsiplərinə uyğun deyildir. Bu maddə eyni zamanda Avropa Konvensiyasının 11-ci maddəsi ilə yanaşı 13-cü maddənin *(The Right to an effective remedy)* (bax: Baczkowski and others v. Poland. Application no. 1543/06) tələblərini də pozur.

Qanunda elə bir müddəa olmalıdır ki, İcra hakimiyyəti orqanları kütləvi toplantını qadağan edərkən bu barədə təşkilatçılara qabaqcadan məlumat versin ki, onlar Qanunun 11-ci maddəsində göstərilən 3 gün müddətində şikayətlərinin baxılmasına nail olsunlar və məhkəmə qərarı-

nın kütləvi tədbirin keçirilməsi xeyrinə qəbul olunduğu halda onlar təyin olunmuş vaxtda aksiyanı keçirə bilsin.

**Toplantıların keçirilmə qaydaları və bu qaydaları pozmağa görə məsuliyyət**

"Sərbəst toplaşma azadlığı haqqında" Qanunun IV fəsili Toplantının keçirilmə qaydasını tənzimləyir.

Qanunun 12-ci maddəsi toplantı təşkilatçılarının hüquqlarını və vəzifələrini müəyyən edir. Maddədə təşkilatçıların hüquqlarına dair standart müddəalar əks olunur. Maddəyə görə toplantı təşkilatçıları dinc və qanuni qaydada, yazılı xəbərdarlıqda göstərilmiş və toplantıya qoyulmuş şərtlərə uyğun keçirilməsini təmin etmək üçün bütün mövcud imkanlardan istifadə etməlidir. Təşkilatçıları digər iştirakçılardan fərqləndirən və açıq-aşkar görünən nişanları olmalıdır. Təşkilatçılara odlu və soyuq silah, habelə həyat və sağlamlıq üçün təhlükə yarada biləcək predmetlər götürmək qadağan edilir. Təşkilatçılar toplantı qadağan edildikdə bu barədə iştirakçıları xəbərdar etmək üçün bütün mövcud imkanlardan istifadə etməlidir. Təşkilatçılar həmçinin toplantı Qanunun 8-ci maddəsinin V hissəsində nəzərdə tutulmuş hallarda sərəncamla dayandırıldıqda iştirakçıları bütün vasitələrdən istifadə etməklə bu barədə xəbərdar etməlidirlər.

"Sərbəst toplaşma azadlığı haqqında" Qanunun 12-ci maddəsində əks olunmuş vəzifələrə əməl etməyən təşkilatçılar üçün inzibati və cinayət məsuliyyəti nəzərdə tutulur.

İnzibati Xətalar Məcəlləsinin 298-ci maddəsinə görə yığıncaqların, mitinqlərin, nümayişlərin, küçə yürüşlərinin və piketlərin təşkili və keçirilməsi qaydasını pozmağa görə xəbərdarlıq və ya pul cəriməsi nəzərdə tutulur. İnzibati Xətalar Məcəlləsinin 301-ci maddəsinə əsasən kütləvi tədbirlərin keçirilməsinin qadağan olunduğu halda, qadağanı pozma halına görə daha ciddi inzibati cəzalar nəzərdə tutulur. Burada həm pul cərimədsinin miqdarı daha çoxdur və 15 sutkayadək inzibati həbsəalma nəzərdə tutulur.

Praktikada adi vaxtlarda belə hakimiyyət orqanlarının sanksiyalaşdırmadığı toplantıların təşkilinə və iştiraka görə daha sərt inzibati cəzaların, o cümlədən inzibati həbsetmənin tətbiqi geniş yayılmışdır. Polis işçisinin və ya hərbi qulluqçunun qanuni tələblərinə qəsdən tabe olmama, polisə müqavimət və s. adlarla inzibati cərimələrin və inzibati həbslərin tətbiqi praktikası da genişdir.

Toplantı keçirmə qaydalarını pozmağa görə cinayət məsuliyyəti də nəzərdə tutulur. Azərbaycan Respublikası Cinayət Məçəlləsinin 169-cu maddəsi toplantı qaydalarını pozmağa görə cinayət cəzası nəzərdə tutur. 169.1. maddəsində qeyd olunur ki, "Qanunvericiliklə qadağan olunmuş hallarda toplantılar təşkil etmə, keçirmə və belə toplantılarda iştirak etmə vətəndaşların hüquq və qanuni mənafelərini əhəmiyyətli pozulması-

na səbəb olduqda - şərti maliyyə vahidinin 300 mislinədək (təqribən 380 ABŞ dolları-MQ) miqdarında cərimə və ya bir ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya iki ilədək müddətə islah işləri və ya iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır" 169.2. maddəsinə görə "Toplantının keçirilməsi zamanı toplantıda iştirak edənlər tərəfindən odlu və ya soyuq silah, yaxud partlayıcı maddə və qurğular, eləcə də ətrafdakıların həyat və sağlamlığı üçün təhlükə törədən sair maddə və əşyalar gəzdirmə - şərti maliyyə məbləğinin 100 mislindən 500 mislinədək *(təqribən 126-633 ABŞ dolları-MQ)* miqdarda cərimə və ya bir ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya bir ilədək islah işləri və ya üç ilədək azadlıqdan məhrum etmə ilə cəzalandırılır".

Ölkə praktikasında hakimiyyət orqanları tərəfindən razılıq verilməmiş və ya qadağan olunmuş mitinqlərdə iştiraka və onun təşkilinə görə ən çox tətbiq olunan cəza növləri 15 sutkayadək inzibati həbsəalma, cərimələr və toplantı qaydalarını pozmağa görə, hakimiyyət nümayəndəsinə qarşı müqavimət göstərmə və ya zor tətbiq etmə maddələri ilə cinayət işlərinin başlanmasıdır. İnzibati və cinayət məsuliyyətinə cəlb edilənlər adətən, hakimiyyətin nöqteyi nəzərinə görə qanunsuz sayılan kütləvi aksiyaların dağıdılması zamanı saxlanılan toplantı təşkilatçıları, toplantı iştirakçıları və təsadüfi iştirakçıları olurlar.

Lakin toplantı təşkilatçılarına və iştirakçılarına qarşı daha sərt cəzaların tətbiqi praktikası da vardır. 2003-ci ilin oktyabr ayında keçirilmiş prezident seçkilərinin nəticələrinin saxtalaşdırılmasına etiraz edən toplantı təşkilatçılarına və iştirakçılarının bir çoxuna qarşı Cinayət Məcəlləsinin 220-ci maddəsi - kütləvi iğtişaş maddəsi ilə cinayət işi başlanmış, istintaq və məhkəmə prosesləri keçirilmişdir. Bu maddənin sanksiya hissəsində ən ağır cəza- 4 ildən 12 il müddətinə qədər azadlıqdan məhrum etmə cəzası nəzərdə tutulur. Ölkə praktikasında müstəsna dinc xarakter daşıyan toplantıların təşkilatçılarına və iştirakçılarına qarşı ən ağır maddələrlə cinayət işlərinin başlanılması və məhkəməyədək həbs qətimkan tədbirinin tətbiqi halları vardır. Dinc keçirilən, lakin polis müdaxiləsindən sonra dinc xarakteri dəyişdirilən (məhz polis zorakılığından sonra) toplantı iştirakçılarına qarşı inzibati həbs, cinayət məsuliyyətinə cəlb etmə adi haldır.

## İştirakçıların hüquq və vəzifələri

"Sərbəst toplaşma azadlığı haqqında" Qanunun 13-cü maddəsi dinc toplantı iştirakçılarının hüquq və vəzifələrinə dair olsa da, maddə hüquqlardan deyil vəzifələrdən başlayır. Maddədə göstərilir ki, toplantı iştirakçıları Qanunun 7 və 8-ci maddələrinə uyğun qoyulmuş məhdudiyyətlərə əməl etməlidir. Toplantılarda iştirak könüllüdür və heç kəs toplantıda iştiraka məcbur edilə bilməz. Toplantıda iştiraka məcbur edən

şəxslər qanunvericilikdə nəzərdə tutulmuş məsuliyyət daşıyır. Toplantı iştirakçılarının söz və fikir azadlığı vardır və onlar bu fikir və sözləri yazılı və şifahi şəkildə ifadə edə bilərlər. Lakin toplantı iştirakçılarının fikir və söz azadlığı ölkə Konstitusiyasında, ölkənin tərəfdar olduğu beynəlxalq hüquq normalarına uyğun məhdudlaşdırıla bilər.

Toplantı iştirakçılarının üzərinə qoyulan vəzifəyə görə, onlar ictimai qaydanın qorunmasına köməklik göstərməli, təşkilatçıların və müvafiq icra hakimiyyəti orqanı nümayəndələrinin qanuni tələblərinə əməl etmək üçün bütün mövcud imkanlardan istifadə etməlidirlər.

Maddədə göstərilir ki, Qanuni toplantı iştirakçısı həmin toplantıda iştirak etməsinə görə sonradan məsuliyyətə cəlb edilə bilməz. Yalnız hüquq pozuntusuna yol vermiş qanuni toplantı iştirakçısı hüquqi məsuliyyətə cəlb oluna bilər.

Bu müddəa hakimiyyət strukturlarına imkan verir ki, müvafiq icra hakimiyyəti tərəfindən sanksiyalaşdırılmamış istənilən toplantının iştirakçısını - hətta bu toplantı iştirakçısı hər hansı bir hüquq pozuntusuna yol verməsə belə - məsuliyyətə cəlb etsin. Hakimiyyətin qanuni hesab etmədiyi toplantıda sadəcə iştirak artıq məsuliyyət yaradır. Ölkə praktikasında hakimiyyət tərəfindən razılıq verilməmiş toplantıda iştiraka görə (yalnız iştiraka görə!) inzibati cərimə və inzibati həbsə almalar total şəkildə tətbiq olunur.

Toplantı iştirakçılarının odlu və ya soyuq silah, habelə insanların həyat və sağlamlığı üçün təhlükə yarada bilən predmetlərin (Qanunda bu predmetlər sadalanır-MQ) gəzdirməsi qadağandır.

Qanunvericilikdə nəzərdə tutulmuş hallarda toplantı müvafiq icra hakimiyyəti orqanı tərəfindən dayandırıldıqda, toplantı iştirakçıları dağılışmalıdırlar.

Qanunun 13-cü maddəsi toplantı iştirakçısının kim olduğunu tam müəyyən etmir. Belə ki, toplantıya məqsədyönlü şəkildə qatılan insanlarla, həmin toplantının təsadüfi iştirakçısı olmuş insanların arasında fərq qoyulmur. Praktikada toplantıların dağıdılması zamanı zərərçəkmiş və ya inzibati məsuliyyətə cəlb edilmiş insanlar içərisində həmin toplantıların təsadüfi iştirakçıları və ya toplantını müşahidə edən insanların olması halları geniş yayılmışdır. Hakimiyyətin qanunsuz hesab etdiyi toplantıların iştirakçıları ilə yanaşı həmin ərazidən təsadüfi keçən şəxslərin və toplantıya təsadüfən qatılanların da inzibati məsuliyyətə cəlb olunması və polis zorakılığına məruz qalması halları müşahidəçilər və hüquqmüdafiəçiləri tərəfindən dəfələrlə qeydə alınmışdır.

## Polis orqanlarının səlahiyyətləri və güc tətbiq olunması

"Sərbəst toplaşma azadlığı haqqında" Qanunun ən əhatəli maddəsi 14-cü maddədir. Bu maddə toplantı keçirilməsi ilə əlaqədar polis orqanlarının səlahiyyətlərini müəyyən

edir. Nəzərə almaq lazımdır ki, "Polis haqqında" və "Daxili Qoşunların Statusu haqqında" Qanunların da müəyyən müddəaları həmçinin toplaşma ilə bağlı məsələlərə aidiyyatı vardır.

"Sərbəst toplaşma azadlığı haqqında" Qanunun 14-cü maddəsinə görə polis orqanları kütləvi tədbirin keçiriləcəyi yeri tədbirin keçirilməsindən bir gün əvvəl yoxlamaq səlahiyyətinə malikdir. Polis orqanlarının həmçinin

☑ Qanunda nəzərdə tutulan qaydada qabaqcadan yazılı xəbərdarlıq verilməyən toplantını zəruri hallarda dayandırmaq;

☑ Yazılı xəbərdarlıqda göstərilən şərtlərə uyğun keçirilməyən toplantını zəruri hallarda dayandırmaq;

☑ Toplantıya odlu və soyuq silah və insan həyat və sağlamlığına təhlükə yarada biləcək predmetlər gətirən şəxsləri saxlamaq və tədbirin keçirildiyi yerdən uzaqlaşdırmaq və ya belə predmetləri gəzdirməsi barədə əsaslı şübhə doğuran adamlara şəxsi baxış keçirmək hüququ vardır.

Qanunda göstərilən "yazılı xəbərdarlıqda göstərilən şərtlərə uyğun keçirilməyən toplantı" ifadəsi abstraktdır və praktikada polis özbaşınalığına şərait yaradır. Kütləvi aksiyalarda xəbərdarlıqda nəzərdə tutulan mövzudan kənara çıxmalar olduqda və ya ölkənin siyasi hakimiyyətinin ünvanına kəskin tənqidlər olan hallarda polisin kütləvi tədbirləri dayandıracaqları barədə xəbərdarlıqlar etməsi halları dəfələrlə qeydə alınmışdır. Fikrimizcə bu müddəa sərbəst toplaşma, fikir və soz azadlığını məhdudlaşdırır və beynəlxalq standartlara uyğun deyildir.

Kütləvi tədbir iştirakçılarının əllərində götürdükləri transporantların taxta dəstəklərinin müsadirə olunması, heç bir əsaslı şübhə olmadan iştirakçılara şəxsi baxış keçirilməsi hallarının geniş tətbiqi bir çox hallarda toplantıya gələnlərin sayının azaldılması üçün polis qüvvələri tərəfindən istifadə olunan çox saylı metodlardandır.

"Sərbəst toplaşma azadlığı Haqqında" Qanunun 8-ci maddəsinin I-III hissələrində nəzərdə tutulmuş qadağaların və 7-ci maddədə və həmçinin 8-ci maddəsinin IV və V hissələrində nəzərdə tutulmuş sərəncamların icrası ilə əlaqədar polis orqanlarına xeyli səlahiyyətlər verilir. Bu səlahiyyətlər içərisində toplantının dayandırılması və dağıdılması üçün təşkilatçılara məlumat vermək və təşkilatçılara toplantının dayandırılması və dağıdılması üçün bütün vasitələrdən istifadə barədə əmr vermək, əmr icra olunmadıqda isə təşkilatçılara və iştirakçılara güc tətbiq ediləcəyi barədə xəbərdarlıq vermək kimi səlahiyyətləri vardır.

Polis həmçinin toplantının dayandırılması və iştirakçıların dağıdılması üçün müvafiq güc tətbiq etmək və toplantının dayandırılması və dağılışmaq barədə əmri yerinə yetirməyənləri saxlamaq səlahiyyətlərinə də malikdir.

Müvafiq icra hakimiyyətinin sərəncamı ilə toplantının keçirilməsinin qadağan olunması və ya toplantının keçirilməsinə dair verilmiş xəbərdarlığa cavab olaraq icra hakimiyyəti orqanının toplantını sanksiyalaşdırmaması, yaxud keçirilən toplantıda əvvəlcədən razılaşdırılmamış şüarların səslənməsi kifayət edir ki, polis güc tətbiq etməklə toplantını dağıtsın, toplantı təşkilatçılarını və iştirakçılarını saxlasın. Toplantıların dayandırılması və dağıdılması Qanunda son zərurət halı kimi göstərilir. Lakin qanun son zərurət halının nədən ibarət olduğunu, son zərurət halına qədər daha hansı halların mövcud olduğunu açıqlamır. Bu qanunun tətbiqində problemlər yaradır.

"Polis haqqında" qanunun 27-ci maddəsinə görə "insana qarşı fiziki qüvvə, xüsusi vasitələri və odlu silahı yalnız son zərurət və ya zəruri müdafiə vəziyyətində, bütün digər təsir imkanlarından istifadə lazımı nəticə vermədikdə, hüquq pozmanın ağırlıq dərəcəsindən və ya onu törədənin şəxsiyyətindən asılı olaraq tətbiq edilməlidir", Daxili qoşunların statusu haqqında" Azərbaycan Respublikasının Qanununun 19, 20 və 21-ci maddələrində də fiziki qüvvənin, xüsusi vasitələrin, silahlı və döyüş texnikasının tətbiqi şərtləri və hüdüdları, fiziki qüvvənin işlədilməsi və xüsusi vasitələrin tətbiqi qaydalarını müəyyən edir.

Toplantı iştirakçılarına qarşı fiziki gücün, xüsusi vasitələrin və odlu silahın tətbiqi adekvat olmalıdır. Əks halda qanuna görə "hərbi qulluqçuların öz səlahiyyətlərini aşaraq fiziki qüvvə, xüsusi vasitələr, silah və ya döyüş texnikası tətbiq etməsi qanunvericilikdə nəzərdə tutulan məsuliyyətə gətirib çıxara bilər"

## Qanunun tənzimləmədiyi məsələlər

"Sərbəst Toplaşma azadlığı haqqında" Qanunda bir sıra tənzimlənməyən məsələlər vardır ki, onlar da sərbəst toplaşma azadlığının təmin olunmasına əngəllər yaradır. Qanunun 5-ci maddəsinin IV hissəsində "təsadüfi toplantı" anlayışı verilsə də belə toplantıların mahiyyəti, keçirilmə qaydaları haqqında heç bir müddəa yoxdur. Elə həmin hissədə göstərilir ki, belə toplantılara da Qanunun 7-ci və 8-ci maddələrində nəzərdə tutulan məhdudiyyətlər tətbiq oluna bilər. Kontur mitinqlərin keçirilməsi, Spontan mitinqlər və nümayişlər, kütləvi aksiyaların digər növlərinə dair müddəaların olmaması da toplaşma azadlığı hüququnun təmin olunmasına əngəllər yaradır.

■

# SİYASİ PARTİYA VƏ İCTİMAİ TƏŞKİLATLARIN FƏALLARI ARASINDA KEÇİRİLMİŞ SOSİOLOJİ SORĞUNUN NƏTİCƏLƏRİ

Layihə çərçivəsində Azərbaycan vətəndaşları arasında sosiloji sorğu keçirilmişdir. Sosioloji sorğunun keçirilməsində məqsəd, Respublikada sərbəst toplaşmaq azadlığının reallaşdırılması ilə əlaqədar problemlərin aşkar edilməsindən ibarət olmuşdur. Sorğu "qar topası" metodu ilə, yəni respondentlərin siyasi partiya və ictimai birliklərin bazasında yaradılmış qeyri-formal şəbəkə vasitəsi ilə seçilməsi yolu ilə həyata keçirilmişdir. Lakin, kütləvi ictimai-siyasi tədbirlərdə iştirak etmiş, heç bir partiya, yaxud ictimai hərakatın üzvləri olmayan vətəndaşlar da bu sorğuya cəlb edilmişdir.

Beləliklə, respondentlərin seçilməsində əsas meyar kimi, öz siyasi mövqe və baxaşlarını bildirmək üçün müxtəlif səviyyəli ictimai toplantılarda iştirak etməsi faktı əsas götürülmüşdür. Sorğu əsasən Bakı şəhərində, həmçinin Respublikanın digər şəhərlərində o cümlədən Gəncə, Sumqayıt və Əli-Bayramlı şəhərlərində keçirilmişdir. Sorğu zamanı cəmi 110 nəfərin rəyi öyrənilmişdir ki, onlarında əsas hissəsini orta və yaşlı nəslin, 35-54 yaş, nümayəndələri təşkil etmişdir. Rəyi soruşulanların 82 % kişilər 18 % isə qadınlar olmuşdur.

***Dioqram 1. Respondentlərin yaş qrupları***




***Diaqram 2. Cinsinə görə Respondnetlərin təsnifatı***




Sorğunun keçirilməsində əsas məsələlərdən biri kimi, respondentlərin kütləvi tədbirlərin hazırlanması və keçirilməsinin təşkilinə cəlb edil-

məsi dərəcəsinin aşkar edilməsi götürülmüşdür. Beləliklə, "Toplantılarda daha çox hansı qismdə iştirak edirsinz? " sualına sorğu iştirakçılarının əksəriyyəti (65%) öz statusunu iştirakçı və yaxud mitinqə dəvət olunmuş kimi qeyd etmişdir, sorğu iştirakçılarının 35% isə kütləvi tədbirlərin təşkilatçıları, tədbirin planlaşdırılması təşkili və keçirilməsində iştirak etdiklərini qeyd edrilər.

***Diaqram 3. Respondentlərin toplantılarda iştirak etməsinin xarakteri***

Sorğu iştirkçılarının əksəriyyəti (80 nəfər) müxtəlif siyasi partiyaların üzvləri, 7 nəfər ictimai hərəkat və birliklərin fəallarıdır. Sorğuda iştirak edən 23 nəfər heç bir partiyanın üzvü olmadıqlarını qeyd etmişdir. 5-ci diaqramda sorğu iştirakçılarının siyasi partiya mənsubiyyətinə və ictimai hərakat üzvlüyünə görə daha geniş təsnifatı verilmişdir. Belə ki, Rəyi soruşulanların 41 % -AXCP, 8% -YAP, 5% ASDP, 38 %- Müsavat partiyasının üzvləri 8 % isə müxtəlif ictimai birlik və təşkilatların üzvləridir.




***Diaqram 4. Respondentlərin siyası mənsubiyyəti***




***Diaqram 5. Siyasi partiya və ictimai birliklərdə üzvülük***




İştirakçılar və təşkilatçılardan ibarət respondentlərin arasında siyasi fəallıqda xeyli yüksəkdir, rəyi soruşulanların əksəriyyəti il ərzində azı 5 dəfə mitinq və nümayişlərdə iştirak edirlər. (bax. 6-cı diaqramma.) Siyasi partiyaların üzvü olan respondentlər keçirilən bütün toplantılarda iştirak etməyə çalışdıqlarını söyləyirlər. Eyni zamanda Müsavat və AXCP kimi siyasi partiyaların bəzi üzvləri,

xüsusilə də təşkilatçılar, ancaq öz partiyalarının keçirdiyi tədbirlərdə iştirak edirlər.

***Diaqram 6. Respondentlərin siyasi fəallığı***

Respondentlərin daha aktiv iştirak etdikləri tədbirlərin təsnifatı da maraqlıdır (bu sualın bir neçə cavab variantı təklif olunurdu). Məsələn, iştirakçıların əksəriyyəti toplantıların bütün növlərini qeyd etmişdilər. Bununla bərabər 7-ci diaqramdan belə görünür ki, respondentlərin əksəriyyəti (41%) mitinqlərdə iştirak edirlər. Piket və yürüşlərdə isə respondentlərin müvafiq olaraq (29%) və (5%) iştirak edir. Bəzi respondentlər isə bu




siyahıya dəyirmi masa və konfransları da əlavə etimşdilər. Bu cavab variantının siyahıya əlavə edilməsi onu göstərir ki, respondentlərdən bəziləri bu cür toplantıların da təşkil edilməsi və keçirilməsində maneələrə rast gəlmişlər. Baxmayaraq ki, dəyirmi masa, konfransların xüsusi mülkiyyətdə, icarədə və digər növ istifadə olan yerlərdə keçirilməsi "Sərbəst toplaşmaq azadlığı haqqında qanunla" tənzimlənməsə də respondentlər bu faktın qeyd olunmasını vacib hesab etmişdir.

***Diaqram 7. Toplantıların növləri***




Respondentlərin əksəriyyəti (65 %) paytaxtda - Bakı şəhərində keçirilən tədbirlərdə iştirak edirlər, lakin anketlərdə digər cavablara da rast gəlinir, belə ki, toplantıların coğrafiyası respublikanın Gəncə, Sumqayıt, Əli-Bayramlı, Şəmkir kimi şəhərlərini də əhatə edir.

***Diaqram 8. Toplantıların keçirilmə yerləri***



Toplantıların keçirilməsinə hazırlıq zamanı çətinliklər ilə rastlaşmısınızmı sualını respondentlər aşağıdakı kimi cavablandırmışlar. Respondentlərin 76 % bu sualı müsbət cavablandırmışdır, lakin təxminən təşkilatçılardan hər dörd nəfərindən biri heç bir çətinlik ilə rastlaşmadıqlarını göstərirlər. Toplantı iştirakçılarının 65 % hesab edir ki, tədbirlərin hazırlanması və keçirilməsi sahəsində çətinliklər mövcuddur. Lakin rəyi soruşulanların üçdə biri hesab edir ki, xüsusi maneələr yox dərəcəsindədir.

***Diaqram 9. Toplantıların hazırlanması və keçirilməsi ilə bağlı çətinliklər***

Təşkilatçıların və iştirakçıların rastlaşdığı maneələrin əsasən nədən ibarət olduğu haqqında növbəti suala verdiyi cavabları təhlil edərək aşağıdakı əsas problemləri qeyd etmək olar.

Bilavasitə toplantıların keçirilməsi və iştirak zamanı çətinliklər ilə qarşılaşırsınızmı sualını rəyi soruşulanların əksəriyyəti (80 %) müsbət cavablandırmışdır. Tədbirlərin təşkilatçıları və iştirakçıları arasında təxminən bərabər sayda respondent, müvafiq olaraq 82% və 80% belə bir faktı qeyd edirlər ki, toplantıların keçirilməsi zamanı çətinliklər mövcuddur. Bu sualı mənfi cavablandıran təşkilatçılar və iştirakçıların sayı aşağıdakı kimi olmuşdur. Belə ki, təşkilatçıların 13 % iştirakçıların isə 6 %belə hesab edir ki, toplantıların keçirilməsi üçün heç bir çətinliklər yoxdur. Müvafiq olaraq respondentlərin 5% və 14 % bu suala cavab verməkdə çətinlik çəkdiklərini bildirirlər.




***Cədvəl 1***

| | |
|---|---|
| Polis orqanlarının təzyiqi | 17 |
| Toplantı keçirilməsi üçün razılıqların alınması ilə bağlı çətinliklər | 16 |
| Toplantı keçirilməisi üçün yerlər in seçilməsi ilə bağlı çətinliklər | 11 |
| Toplantıların keçirlməsi üçün xəbərdarlıqların vaxtından gec verilməsi. | 4 |
| Tədbir ərəfəsində həyata keçirilən həbslər | 4 |
| Tədbirin keçirilməsi haqqında Əhalinin məlumatlandırılması üçün vərəqələrin yayılması ilə bağlı çətinliklər. | 3 |
| Mülki formalı şəxslər tərəfindən təzyiqlər | 2 |
| Partiyada mövcud olan maliyyə, texniki çətinliklər | 1 |
| Tədbir iştirakçılarının, toplantıların keçirildiyi yer də hərəkətinin çətinləşdirilməsi və t ədbirin keç irildiyi istiqamatlərdə yolların bağlanması | 1 |
| Sahə müvəkillərinin «proflaktiki» söhbətləri | 1 |
| İş yerlərində təzyiqlər | 1 |
| Toplantı iştirakçılarının yaxınlarına təzyiqlər | 1 |

***Diaqram 10. Toplantıların keçirilməsi ilə bağlı çətinliklər***




Növbəti suala cavab verərkən Respondentlərin rastlaşdığı çətinliklər və problemlər arasından aşağıdakılar qeyd edilmişdir.

***Cədvəl 2***

| | |
|---|---|
| Polis tərəfindən zorakılıq | 22 |
| Toplantı iştirakçılarının polis bölmələrində saxlanması | 18 |
| Döyülmə faktları | 17 |
| Aksiyaların sona qədər keçirilməməsi üçün polis tərəfindən təzyiqlər | 9 |
| Polis tərəfindən iştirakçıların toplantı yerinə keçməsinə əngəllər yaradılır. | 8 |
| Polis tərəfindən psixoloji təzyiqlər | 7 |
| Maraqlı şəxslərin təyin olunmuş yerlərdə yığılması ilə bağlı çətinliklər | 5 |
| Diversiyalar | 5 |
| Toplantı keçirilən yerdə elektrik enerjisi nin veril məsinin dayandırılması | 2 |
| Mitinqlər zamanı musiqi parçaları səsləndirilməsinin qadağan edilməsi | 1 |
| Polislər ilə dolu avtobusların mitinq keçirilən meydan ətrafında yerləşdirilməsi | 1 |

Respodentlərin malik olduqları siyasi meylləri qiymətləndirsək görərik ki, siyasi partiya və ictimai təşkilatların üzvləri (YAP istisna olmaqla) tədbirlərin hazırlanması və keçirilməsi zamanı meydana çıxan problemlər haqqında daha qəti fikir söyləyirlər. Məsələn, siyasi mənsubiyyətləri olan respondentlərin 90 faizə qədəri hər iki suala müsbət cavab vermişlər, lakin partiya üzvü olmayan respondentlərin təxminən 50% qədəri cavab verməkdə çətinlik çəkmiş və ya mənfi cavab vermişdir. Növbəti 6 suala tədbirlərin hazırlanması və keçirilməsi ilə bağlı çətinliklərin olması haqqında yuxarıdakı suala müsbət cavab verən respondentlər cavablandırmışdır. Toplantılarda iştirak edən şəxslərə qarşı, ictimai asayişi təmin edən quvvələr tərəfindən zorakılıq edilməsi haqqında suala respondentlərin əksəriyyəti xüsusilə də, təşkilatçılar, müsbət cavab vermişlər. Beləliklə, təşkilatçıların 76 %-i qeyd etmişlər ki, kutləvi tədbirlər zamanı zorakılığa məruz qalmışlar, təşkilatçıların 11 % -i bu suala mənfi cavab vermiş, 13% isə cavab verməkdə çətinlik çəkdiklərini bildirmişlər. Tədbir iştirakçıları arasından yalnız 54% onlara qarşı zorakılıq edilməsini göstərmişlər, iştirakçıların 26 % bu suala mənfi cavab vermişdir 20 % iştirakçı isə bu suala cavab verməkdə cətinlik çəkmişdir.

*Diaqram 11. Kütləvi tədbirlər zamanı təhlükəsizlik qüvvələri tərəfindən zorakılığın tətbiq edilməsi.*




Eyni zamanda təşkilatçılar arasında, toplantıdan sonra inzibati yaxud cinayət məsuliyyətinə cəlb edilənlər çoxluq təşkil edirlər. Belə ki, təşkilatçıların 58 %-i bildirir ki, onlar toplantıların hazırlanması və keçirilməsinə görə müxtəlif növ cəzalara məruz qalmışlar, təşkilatçıların 37 % təqibə məruz qalmadıqlarını 5 % isə cavab verməkdə çətinlik çəkdiklərini bildirirlər. Toplantı iştirakçıları arasında, onlara qarşı inzibati və cinayət cəzaları tətbiq olunduğunu bildirən respondentlər azlıq (44%) təşkil edir və onların sayı təxminən qoyulmuş suala mənfi cavab verənlərin (43%) sayı qədərdir. İştirakçıların 13 % isə bu suala cavab verməkdə çətinlik çəkdiklərini bildirirlər.

*Diaqram 12. İnzibati və yaxud cinayət cəzalarının tətbiq edilməsi*

İştirakçılara qarşı tətbiq olunan cəzalardan 35% - inzibati həbslər, 32 % cərimələr, 18% - polis bölməsində saxlanma, 6% cinayət cəzası, 5% xəbərdarlıq, 2 % işdən azad olunma, 2 % isə telefonla hədələmə təşkil edir.




13-ci diaqramdan belə görünür ki, tədbirlərin təşkilatçıları onlara qarşı daha çox, "ənənəvi" cəzalar, cərimələr, polis bölməsində saxlanma, inzibati həbslər tətbiq edildiyini bildirirlər. Top-lantı iştirakçıları isə bu siyahını işdən azad olunma və telefon ilə hədələmə bəndlərini əlavə etməklə tamamlayırlar.

***Diaqram 13. Toplantıların hazırlanması və keçirilməsinə görə tətbiq olunan cəza növləri***




İştirakçıların hamısı onlara qarşı tətbiq olunmuş cəzanı qeyri-qanuni hesab edirlər. Lakin sorğunun gedişindən belə məlum olur ki, onların əksəriyyəti öz pozulmuş hüquqlarının bərpası üçün fəaliyyət göstərmək istəmirlər. Bu məqsədlə hər-hansı bir instansiyalara cəmi 17 müraciət daxil olmuşdur (onlara qarşı tətbiq olunmuş cəzanın qeyri-qanuni hesab edən təşkilatçıların 77%-i). Toplantı iştirakçıları arasında hüquqlarının bərpa olunması üçün müraciət edənlərin sayı daha azdır (41 %). Bu fərq onunla izah oluna bilər ki, toplantı təşkilatçıları, iştrakçılara nisbətən daha təşkilatlanmış formadadır və bu onlara kollektiv şəkildə fəaliyyət göstərməyə imkan verir. Bundan əlavə onu da qeyd etmək lazımdır ki, təşkilatçılar adətən cəmiyyətdə tanınmış, fəal şəxslərdən ibarət olur. Cavab tədbirlər görmək üçün onlar şəxsi nüfuzları və əlaqələrindən istifadə edirlər.

15-ci diaqramdan belə görünür ki, təkilatçılar və iştirakçıların müraciət etdikləri instansiyalar bir-birindən o qədər də fərqlənmir. Birinci yerdə beynəlxalq təşkilatlar dayanır və müraciətlərin 42 % məhz beynəlxalq təşkilatlara ünvanlanır, ikinci yerdə xarici ölkə səfirlikləri dayanır və müraciətlər əsasən ABŞ və Norveç səfirliklərinə göndərilir. Rəyi soruşulanların yalnız 21%-i (8 nəfər) Azərbaycanın məhkəmə orqanlarına müraciət etmişdir. Öz variantını qeyd etmiş respondentlər arasında Avropa İnsan Hüquqları Məhkəməsinə, hüquq müdafiə təşkilatlarına KİV-ə müraciət edənlərə də rast gəlinir. Maraqlı burasıdır ki, sorğuda iştirak edən respondentlərdən heç biri, dövlət orqanlarına şikayət ərizəsi ilə müraciət etməmişdir ki, bu da dövlət orqanlarına inamın olmaması və bu orqanların bu cür müraciətlərə baxarkən qərəzli münasibət göstərməsi ilə izah oluna bilər.

***Diaqram 14. Qeyri-qanuni hərəkətlərə görə şikayətlərin verilməsi***



### *Diaqram 15. Müraciətlərin ünvanlandığı instansiyalar*




Sorğuda iştirak edən respondentlərin əksəriyyəti Azərbaycan Respublikasının "Sərbəst toplaşmaq azadlığı haqqında qanunu haqqında bilgilərə malik olduqlarını göstərmişlər. Belə ki, toplantı təşkilatçılarının əksəriyyəti (71%) qanunla bütövlükdə, yaxud onun əsas hissələri (26%) ilə tanış olduqlarını bildimişlər. Təşkilatçılar arasından yalnız 1 nəfər praktikada bu qanuna əməl olunmadığına görə onun öyrənilməsini vacib hesab etmir. İştirakçılar arasında qanunla tanışlıq nisbətən aşağı səviyyədədir. İştirakçıların 51% qanunla ətraflı tanış olduqlarını 35% onun əsas hissələri ilə tanış olduqlarını bildirmişlər. İştirakçıların 8 % qanunu ümumiyyətlə oxumadıqlarını 6 % isə qanunla tanışlığa ehtiyac olmadığını düşünürlər.

### *Diaqram 16. "Sərbəst toplaşmaq azadlığı haqqında" AR qanunu ilə tanışlıq*




Respondentlərin rəyinə görə Azərbaycanda "sərbəst toplaşmaq azadlığının reallaşdırılmasına mane olan səbəbləri aşağıdakı əsas qruplara bölmək olar.

*Cədvəl 3.*

| | |
|---|---|
| Dövlət məmurları tərəfindən Konstitusiyanın 49-cu maddəsinin pozulması. | 34 |
| Bilmirəm | 8 |
| Qanunvericilikdə olan boşluqlar və ziddiyyətlər | 21 |
| Heç bir problem və maneə yoxdur | 3 |
| Hakimiyyət orqanlarında siyasi iradənin olmaması | 10 |
| Toplantıların keçirlməsi üçün razılıq alınması praktikasının ləğv edilməsi | 7 |
| Rejimin dəyişdirlməsinin zəruriyyəti | 5 |
| Dövlət orqanları tərəfindən maliyyə problemlərinin yaradılması | 3 |
| Əhalinin Siyasi proseslərə biganəliyi və qorxu hissləri | 2 |
| Demokratik seçkilərin keçirilməsinin vacibliyi | 2 |
| Siyasi təbliğat aparılması üçün şəraitin olmaması | 2 |
| Beynəlxalq təşkilatlar tərəfindən avtoritar hakimyyət dəstək verilməsi | 1 |
| Demokratik ölkələrin öz neft maraqlarına görə Azərbaycanda demokratiyaya dəstək verməməsi | 1 |
| Kütləvi represiyaların mövcudluğu | 1 |
| Məhkəmə orqanlarını icra haki miyyəti orqanlarından asılılığı | 1 |
| Problemlərin kökü qanuna əməl etməyən siyasi partiyaların özündədir | 1 |

Beləliklə, siyasi partiya və ictimai birliklərdə cəmləşmiş fəal şəxslərin əsas hissəsi Azərbaycanda sərbəst toplaşmaq azadlığının məhdudlaşdırılmasından çox təəssüf hissi keçirdiklərini bildirirlər.

Sorğunun nəticələri də onu göstərir ki, cəmiyyət iki əks düşüncəyə malik düşərgəyə bölünmüşdür. Bunlardan birincisi iqtidarda olan YAP və onun tərəfdarları, digəri isə Müxalifət partiyaları, ictimai təşkilatlar və onların tərəfdarlarıdır. Sorğunun gedişində İqtidar düşərgəsinin tərəfdarları sərbəst toplaşmaq azadlığının reallaşdırılmsı üçün heç bir problemlərin olmamasını sübut etməyə çalışırlar. Onlar mövcud problemlərin AR qanunvericiliyinə əməl etməyən müxalifətin günahı üzündən yaranmasını iddia edirlər.

Müxalifət əhval ruhiyyəli şəxslər isə onların sərbəst toplaşmaq hüquqlarını reallaşdırmaq üçün imkanlar olmadığını bildirirlər. Onlar hesab edirlər ki, çətinliklər artıq hazırlıq mərhələsində, icazənin alınmasından başlayır və tədbirin hazırlanması və keçirilməsi dövründə də davam edir. Toplantılar zamanı asayişi qorumalı olan qüvvələr iştirakçıların toplantı yerinə gəlməsinə mane olur, müxtəlif təzyiq mexanizmləri vasitəsi ilə vətəndaşların bu cür tədbirlərdə iştirakını əngəlləyir, mitinqlərin dayandırılması üçün adekvat qüvvə tətbiq etmir, və tədbirin keçirilməsindən sonra iştirakçılara qarşı müxtəlif təzyiq vasitələrindən istifadə edirlər.

Respondentlər tərəfindən birbirinə təmamilə zidd fikirlərin söylənilməsi əks düşərgələr arasında dialoqun və mövcud problemlərin həlli üçün siyasi iradənin olmamasını göstərir.

■

# TOPLANTI KEÇİRMƏKLƏ BAĞLI VERİLƏN XƏBƏRDARLIQLARA MÜVAFİQ İCRA HAKİMİYYƏTİ ORQANLARININ CAVABLARININ ANALİZİ

Ölkənin aparıcı siyasi Partiyalarının və bəzi ictimai təşkilatların və fiziki şəxslərin Sərbəst toplaşma azadlığı haqqında Qanunun 5-ci maddəsinə uyğun olaraq müvafiq icra hakimiyyəti orqanlarına toplantı keçirməklə bağlı göndərdikləri yazılı xəbərdarlıqlar və həmin xəbərdarlıqla bağlı icra hakimiyyəti orqanlarının qəbul etdikləri qərarlar və cavab məktubları analiz edilmişdir. Əsasən "Azadlıq" Siyasi Partiyalar Bloku, bu bloka daxil olan ayrı-ayrı siyasi partiyalar, Milli İstiqlal Partiyası, Jurnalist təşkilatları tərəfindən göndərilən 70 xəbərdarlıq məktubu təhlil edilmişdir.

Göndərilən xəbərdarlıq məktubları bir qayda olaraq qanunvericiliyin tələblərinə əməl edilməklə hazırlanmış və nəzərdə tutulan müddətlər çərçivəsində təqdim edilmişdir.

Lakin həmin xəbərdarlıq məktublarına müvafiq icra hakimiyyəti orqanları tərəfindən cavablar əksəriyyət hallarda təyin olunmuş toplantıya bir gün qalmış verilmişdir. Cavabların toplantıya bir gün qalmış verilməsində əsas məqsəd məhkəməyə şikayət verilməsinin qarşısını almaq olmuşdur. Belə ki, Sərbəst toplaşma azadlığı haqqında Qanunun 11-ci maddəsinə əsasən toplaşma azadlığının məhdudlaşdırılması və ya qadağan edilməsi ilə bağlı şikayətlərə məhkəmələr 3 gün ərzində baxmalıdırlar. Beləliklə, toplantının keçirilməsi qadağan edildikdə hətta məhkəmə həmin qərarı ləğv etsə belə (İndiyədək ölkə məhkəmələrində belə bir hadisə baş verməyib) toplantını təyin edilmiş vaxtda keçirmək mümkün olmur.

### Hakimiyyət orqanlarının xəbərdarlıq ərizələrinə cavabları

İcra hakimiyyəti orqanlarına təqdim olunmuş 70-dən artıq xəbərdarlıq məktublarına verilən cavablar və qərarlar təhlil edilərək əsasən 3 qrup üzrə sistemləşdirilmişdir.

1. İcra hakimiyyəti orqanları toplantılar keçirilməsini qəti surətdə qadağan edir və bu zaman heç bir qanunvericilik normalara istinad etmir

2. İcra hakimiyyəti orqanları toplantılar keçirilməsi haqqında bildirişlərə qeyri-müəyyən formada, "məqsədəuyğun sayılmır" bəhanəsi ilə imtina cavabı verir.

3. İcra hakimiyyəti orqanları, toplantılar keçirilməsi haqqında müraciətlərə cavab olaraq proporsionallıq prinsipini kobud surətdə pozur, mitinq, toplantı keçirilməsi üçün yararsız olan yerlər ayırır.

### 1. İcra hakimiyyəti orqanları toplantılar keçirilməsini qəti surətdə qadağan edir

Mitinq, yürüş, piket keçirilməsi haqqında çoxlu sayda xəbərdarlıq məktublarına icra hakimiyyəti orqanları tərəfindən birmənalı olaraq mitinq və toplantıların keçirilməsini qadağan edən cavablar verilmişdir. Heç bir əsas olmadan bu cür cavabların verilməsi AR Konstitusiyasının müddəaları ilə birbaşa ziddiyyət təşkil edir.

Məsələn, 2004-cü il noyabr ayının 4-də AXCP Bakı Şəhər İcra Hakimiyyətinə, Nazirlər Kabineti qarşısında piket keçirmək istəyi haqqında müraciət etmişdir. Bakı şəhər İcra Hakimiyyəti Nazirlər Kabineti binasının mühafizə olunan xüsusi mühüm dövlət əhəmiyyətli obyektlər kateqoriyasına aid olmasını əsas gətirərək piketin keçirilməsini qadağan etmişdir.

AR Konstitusiyasında deyilir: *Hər kəsin başqaları ilə birlikdə müvafiq dövlət orqanlarını qabaqcadan xəbərdar etməklə dinc silahsız yığışmaq, toplantılar, mitinqlər, nümayişlər küçə yürüşləri keçirmək, piketlər düzəltmək hüququ vardır.*

AR Konstiusiyası fikir və söz azadlığının müdafiəsini təmin etməklə, vətəndaşlara toplantıların formatını, məzmununu və keçirilməsi yerinin sərbəst olaraq seçilməsinə təminat verir. İcra hakimiyyəti orqanının "piketin qadağan edilməsi haqqında" qərar qəbul edərkən istinad etdiyi "Sərbəst toplaşmaq azadlığı haqqında" qanunu müddəaları Konstitusiya Məhkəməsinin baxış predmetinə çevrilə bilər. Bakı şəhər İcra Hakimiyyəti tərəfindən *"boru kəmərinin açılışına yüksək vəzifəli şəxslərin gələcəyini"* əsas gətirərək yürüş-mitinqin keçirilməsi haqqında müraciətə qəti rədd cavabı da mübahisə predmetinə çevrilə bilər.

Toplantılar keçirilməsi üçün müraciət edənlər hesab edirlər ki, dövlət orqanlırının bu cür hərəkətləri, onların əsas insan hüquq və azadlıqları ilə təminat verilən hüquqi statuslarının pozulmasına gətirib çıxarır. Maneəsiz olaraq və xüsusi icazə olmadan digərləri ilə birgə toplaşmaq, daim, öz hüquqlarına güvənən vətəndaşların azadlıq, müstəqillik və kamillik simvolu kimi baxılmışdır. Lakin bu hüquq siyasi toplantılara aid edildikdə sərbəst toplaşmaq azadlığı təminatı eyni zamanda əsas hüquqlardan olan öz müqəddəratını təyin etmə hüququna da aid edilir ki, bu da artıq təkcə dövlətin müdaxiləsindən müdafiəni deyil, həmçinin şəxsiyyətin azad formalaşması hüququna da şamil edilir. Anqlo-Amerikan hüquq

sistemində - mənbəyini təbii hüquqlardan alan sərbəst toplaşmaq azadlığı haqqında konsepsiya, hələ lap başlanğıcdan xalqın suverenliyinin ifadə olunması və müvafiq olaraq vətəndaşın siyasi proseslərdə fəal iştirak etmək hüququ kimi başa düşülürdü. Sərbəst toplaşmaq azadlığının təmin olunmasının vacibliyi eyni zamanda Avropa Konvensiyasında da təsbit olunur. Bu eyni zamanda fikir və söz azadlığına da münasibətə də aid edilə bilər. Bu hüququn həqiqətən də sərhədləri vardır: konstitusiya müddəaları bu hüququn təminatlarını ümumi fəaliyyət qanunları çərçivəsində təsbit edir, lakin buna baxmayaraq bu hüququn reallaşdırılması hüdudları adi qanunlar ilə müəyyən edilə bilməz.

İcra hakimiyyəti orqanları məhdudlaşdırıcı qərarlar qəbul edilən bütün hallarda konstitusion hüquqların əsas müddəalarını nəzərə almalıdırlar. Hakimiyyyət orqanları nəzərə almalıdırlar ki, yalnız sərbəst toplaşmaq azadlığı ilə bərabər dəyərlərə malik digər qanuni mənafelərin müdafiəsi məqsədi ilə sərbəst toplaşmaq azadlığının reallaşdırılmasını məhdudlaşdıra bilər və bu zaman bütün məhdudiyyətlər proporsionallıq prinsipinə uyğun olmalıdır. İcra hakimiyyəti binası qarşısında piket keçirmək üçün xəbərdarlıq müraciətinə İcra hakimiyyəti orqanı 20 dekabr 2004-cü il tarixli qadağanedici cavab vermiş və beləliklə proporsionallıq prinsipi pozulmuşdur. Bakı şəhər İcra Hakimiyyəti, qadağa haqqında qərarını meriyanın inzibati binasının mühüm dövlət əhəmiyyətli bina olması ilə əsaslandırır. Meriyanın bu arqumenti əsassız olmaqla yanaşı, sərbəst toplaşmaq azadlığının həyata keçirməsinin əhəmiyyəti və imkanları ilə qeyri proprosionallıq təşkil edir.

Hakimiyyət orqanları və məhkəmələr, qanunverici orqan tərəfindən hazırlanmış qanun müddəalarını əsas hüquq və azadlıqların məhdudlaşdırlması istiqamətində interpretasiya və tətbiq edirlərsə bu cür interpretasiya eyni zamanda söz azadlığına qarşı münasibətdədə tətbiq ediləcəkdir. Sərbəst toplaşmaq azadlığının məhdudlaşdırılmasına yalnız toplantı iştirakçıları tərəfindən söz azadlığının reallaşdırılmasının üçüncü şəxslərin hüquqları ilə ziddiyyət təşkil edəcəyi hallarda yol verilir. Şəhər İcra Hakimiyyətinin, AXCP-nın piket keçirmək haqqında müraciətinə, 20 dekabr 2004 il tarixli cavab məktubunda, heç bir sübut və ya faktlarla əsaslandırılmadan piketçilərin hərəkətlərinin üçüncü şəxslərin hüquqlarını pozacağını bildirmiş və piketin keçirilməsi *"məqsədəuyğun hesab edilməyərək"* qadağan edilmişdir.

Hətta dövlət orqanları tərəfindən, bu cür qərarlar qəbul edərkən, əsas insan hüquqlarını məhdudlaşdıran qanunların interpretasiya edilməsi, bu hüquqların demokratik və azad cəmiyyətdə fundamental əhəmiyyət kəsb etməsi nöqteyi-nəzərindən həyata keçirməli və elə addımlar atılmalıdır ki, bunlar, həqiqətən də əsas hüquq və azadlıqların reallaşdırılması kimi xüsusi əhəmiyyət daşıyan qanuni maraqların müdafiəsi üçün vacib olsun. İcra hakimiyyəti orqanları tərəfindən sərbəst toplaşmaq

azadlığının məhdudlaşdırılması zamanı Sərbəst toplaşmaq azadlığı haqqında qanuna istinad etməsi, bu qanunun müddəalarının, Konstitusiyanın tələblərinə uyğun gəlməsi haqqında ilkin baxış keçirilməsi üçün həlledici əhəmiyyət kəsb edir. Bu zaman sərbəst toplaşmaq azadlığı haqqında qanun, şərh və tətbiq edilərkən, sözügedən hüquq və azadlıqların fundamental əhəmiyyətə malik olması mütləq nəzərə alınmalıdır.

**Əvvəlcədən xəbərdarlıq edilməsi** haqqında tələb Konstitusiyada və "Sərbəst toplaşmaq azadlığı" haqqında qanunda təsbit edilmişdir. Xəbərdalıq haqqında tələb yalnız açıq havada toplantılar keçirilməsinə aid edilir, çünki, bu kimi tədbirlər xarici təsirlər ilə əlaqədar olaraq xüsusi ehtiyat tədbirlərinin görülməsini tələb edir. Xəbərdarlıqda göstərilməli olan məlumatlar hakimyyət orqanlarına zəruri infomasiyaları verməlidir. Bu hakimyyət orqanlarına nəqliyyatın tənzimlənməsi və yığıncaqların maneəsiz həyata keçirilməsi və tədbirlərin görülməsi üçün vacibdir. Digər tərəfdən hakimyyət orqanları başa düşməlidir ki, üçüncü şəxslərin hüquqlarını, eyni zamanda ictimai maraqların qorunmasını gözləməklə elə tədbirlər görülməlidir ki, müxtəlif mənafeləri harmonik olaraq uyğunlaşdırmaq mümkün olsun. Belə bir fikir geniş yayılmışdır ki, əvvəlcədən xəbərdarlıq edilməsi tələbləri planlaşdırılmamış və təsadüfi nümayişlərə aid edilmir. Konstitusiyanın 49-cu maddəsi və müvafiq qanunvericilik bu cür toplantıların keçirilməsi üçün təminat verir.

Şəhər İcra Hakimiyyətinin verdiyi əksər cavablardan belə görünür ki, nümayiş və digər növ toplantılar keçirilməsinə razılıq verilməməsi ictimai asayiş və təhlükəsizliyin qorunması zərurətindən irəli gəlir. Məsələn, Bakı şəhər İcra Hakimiyyətinin, yürüş-mitinqin təşkilatçıları olan Gülağa Aslanlı və Arzu Səmədova göndərdiyi cavabda icra hakimiyyəti heç bir əsas gətirmədən yürüş-mitinqin nəqliyyatın hərəkətinin məhdudlaşdırılmasına və ictimai təhlükəsizliyin pozulmasına gətirib çıxaracağını ehtimal edir. Baxmayaraq ki, bu cür tədbirlər zamanı təhlükəsizlik və asayişin qorunması, nəqliyyat və infrastrukturun normal fəaliyyətinin təşkil edilməsi, məhz şəhər icra hakimyyətinin səlahiyyətlərinə və vəzifələrinə aiddir.

Müraciət edənlər, dövlət orqanlarının müdaxiləsi üçün ilkin şərtlərin qeyri müəyyən olması ilə əlaqədar, məhz - "ictimai asayiş yaxud qanunçuluğun pozulmasına təhlükə" ifadəsinə görə bu məsələni sual altına alırlar. Onlar qeyd edirlər ki, müdaxilə haqqında qərar qəbul edilməsi daha aşağı səviyyəli orqanların və polisin ixtiyarına verildikdə bu şərtlər daha da çətin olur.

Lakin yuxarıda xatırlanan konsepsiyalar dəqiq izah edilmişdir və hüquq-mühafiəzə orqanları haqqında qanunvericiliyin mahiyyətindən irəli gəlir. Bu qanuna uyğun olaraq "ictimai təhlükəsizlik" konsepsiyası həyat, sağlamlıq azadlıq, ləyaqət, mülkiyyət və insan rifahı, həmçinin qanunçuluğun və dövlət obyektlərinin qorunması kimi müəyyən hüquqi

mənafelərin müdafiəsini özündə ehtiva edir. Bununla əlaqədar ictimai asayişə təhlükə yaranması o vaxt ehtimal olunur ki, qanunla qorunan bu maraqlar mənafelər üçün həqiqətən də təhlükə yaradır. "İctimai asayiş" anlayışını hazırkı dövrdə təşəkkül tapmış sosial və etik normalara uyğun olaraq, riayət edilməsi gözlənilən bir sıra yazılmamış qaydaların məcmusu kimi başa düşmək lazımdır. Bu insanların müəyyən ərazi və qrup daxilində mövcud olmasının vacib şərtidir. Konsepsiyaların bu cür izahı hələ qanunun bu Konstitusiyaya tam müvafiq olaraq tətbiq edilməsi üçün təminat vermir. Konstitusion hüquq nöqteyi-nəzərindən qiymətləndirmək üçün qanunla müəyyən edilmiş iki məhdudiyyət çox mühümdür. Nümayişin qadağan edilməsi və yaxud dayandırlmasına yalnız qanuni mənafelərin müdafiəsi məqsədilə yol verilir. Təkcə ictimai asayişə təhlükənin mövcud olması mitinq və nümayişlərin qadağan edilməsi üçün kifayət deyildir. Nümayiş və mitinqlərin qadağan edilməsi və dayandırılması hər şeydən əvvəl o zaman yol veriləndir ki, artıq, *ultima ratio* qismində, nisbətən mülayim tədbirlərin hayata keçirilməsi mümkünsüzdür. Yəni hər bir şey proporsionallıq prinsipinə uyğun əsaslandırılmalıdır. Bu o deməkdir ki, təkcə hakimiyyət orqanlarının müdaxilə üçün hansı metodları seçməsinə deyil həm də hakimyyətin qərarının necə olması üçün məhdudiyyətlər mövcuddur. Fundamental İnsan hüququ kimi, sərbəst toplaşmaq azadlığı ancaq o zaman ikinci plana keçirilə bilər ki, bütün hüquqlara riayət edilməsinin mühümlülüyünü nəzərə almaqla maraqlar dəqiq müəyyən edilsin və göstərilsin ki, sərbəst toplaşmaq azadlığının məhdudlaşdırılması eyni dəyərə malik digər hüquqlara riayət edilməsi üçün çox vacibdir. Bu azadlığın, sadəcə olaraq qanuni maraqların bir faktının olması ilə, məhdudlaşdırılması yol verilməzdir. Ümumiyyətlə üçüncü tərəf də sərbəst toplaşmaq azadlığının reallaşdırılmasından yarana biləcək narahatlıqlara dözməli olacaqdır, çünki sərbəst toplaşmaq azadlığına məhdudiyyətlər qoyulmadan bu cür narahatlıqlardan qaçılması mümkün olmayacaqdır, məhdudiyyətlərin tətbiq edilməsi isə toplantıların məqsədi ilə bir araya sığmır. Eyni zamanda təkcə nəqliyyatın hərəkətinə mane olacağını əsas gətirməklə toplantıların keçirilməsini qadağan etmək olmaz, küçələrin həm nümayişçilər tərəfindən, həm də nəqliyyatın hərəkəti üçün istifadə edilməsi şəraitini bir qayda olaraq əvvəlcədən yaratmaq olar. Şəhər əhalisinə narahatlıqlar yaradacağını və nəqliyyatın hərəkətinin pozulacağını əsas gətirərək Bakı şəhər icra hakmiyyətinin "Müsavat" partiyasının müraciətinə, 24 noyabr 2006-cı il tarixli cavabında, bildirilir ki, planlaşdırılan yuruş mitinq ictimai təhlükəsizliyin pozulmasına gətirib çıxara bilər.

Eyni zamanda hakimyyət orqanlarının, toplantıların gedişinə müdaxilə etməsi müəyyən şərtlər daxilində məhdudlaşdırılır. Toplantıların qadağan edilməsi və dağıdılmasına o zaman yol verilir ki, ictimai asayiş

və qanunçuluq üçün "bilavasitə təhlükə" mövcud olsun.

Müdaxilə yalnız bu şərtə əməl edliməsi ilə mümkündür və "bilavasitə təhlükə"nin mövcudluğu daha sərt şərtləri nəzərdə tutur. Əlbəttə ehtimal dərəcəsinin səviyyəsi haqqında sual daim müzakirə ediləcəkdir, eyni zamanda təhlükənin yaranması üçün zəmin yarada biləcək şərtlər də ətraflı surətdə baxılmalıdır. Qanunla nəzərdə tutulur ki, bu cür təhlükənin mövcudluğu haqqında fikirlər faktlara mövcud vəziyyətə və digər detallara əsəsalanmalıdır: sədəcə olaraq şübhələr və ehtimallar kifayət deyildir. Sərbəst toplaşmaq azadlığının fundamental əhəmiyyətə malik olduğunu nəzərə alaraq hakimiyyət orqanları, toplantıların qadağan edilməsi zamanı gözlənilən təhlükənin müəyyən edilməsinin həddindən artıq aşağı standartlarını müəyyən edə bilməzlər. Vəziyyətin düzgün qiymətləndirilməməsi nəticəsində mitinqin dağıdılması təhlükəsinin mövcud olduğu şəraitdə bu xüsusilə mühümdür. Hər bir konkret halda hansı standartlara riayət edilməsi haqqında qərar xüsusi məhkəmə iclaslarında qəbul edilməlidir. Konstitusiya müddəaları nöqteyi nəzərindən, konkret halları nəzərə almadan bu standartları tətbiq etmək yol verilməzdir. Lakin çoxlu sayda iştirakçısı olan nümayişlərə münasibətdə, hazırlıq prosesində təşkilatçıların əməkdaşlığa nə qədər hazır olmasından, həmçinin üçüncü şəxslər, yaxud azlıq tərəfindən iğtişaşlar yaradılması təhlükəsindən asılı olaraq şərait fərqli ola bilər.

"Sərbəst toplaşmaq azadlığı" haqqında qanunun 5-ci maddəsi, əgər onun şərh və tətbiq edilməsi ancaq ictimai maraqların müdafiəsi naminə xidmət edirsə və toplantıların qadağan edilməsi, dayandırılması ancaq mühüm ictimai maraqların müdafiə edilməsi və proporsionallıq prinsipinə uyğun aparılırsa, digər qanuni maraqlar həqiqətən də təhlükə altındadırsa və bu açıq- aşkar faktlar ilə sübut edilərsə, bütövlükdə AR Konstitusiyasına uyğun gəlir. Konstitusiya "dinc və silahsız yığışmağa" təminat verir. Konstitusiya ilə bərabər qanunda da təsbit olunan yığıncağın dinc olması haqqında tələb kifayət qədər aydındır və toplantıların hüquqi təbiətindən irəli gəlir və diskussiyaların aparılması və siyasi iradənin formalaşmasına təsir göstərən vasitə kimi başa düşülür. Zorakılıq hərəkətləri zamanı münasib nəticələr və dinc xarakterizə edilə bilməyən davranışlar arasında dəqiq sərhəd çəkmək mümkün deyildir. İstənilən halda iştirakçı digər şəxslər və obyektlərə qarşı zorakılıq hərəkəti edərsə onun özünü aparmasını dinc xarakterizə etmək mümkün deyildir. Zorakılığın qarşısını almaq üçün dövlətə qüvvə tətbiq etmək səlahiyyətini verən (o cümlədən həssas azlıqların maraqları naminə) qanun, çox ciddi tədbirlər nəzərdə tutmalıdır. Ancaq bu şərtlər daxilində sərbəst toplaşmaq azadlığı siyasi proseslərdə fəal iştirak vasitəsi olaraq qalacaq və demokratiya maraqlarına xidmət edəcək, xüsusilə nəzərə alsaq ki, zorakılığa qarşı cavab tədbirləri qismində, reaksiya verilməsi azadlıqların, məh-

dudlaşdırılmasına gətirib çıxarır. Nümayişçilərin özlərini dinc aparması gözləniləndir, çünki bundan ancaq onlar özləri udurlar, qarşıdurma yaranacağı hallarda dövlət son nəticədə onları öz iradəsinə tabe etdirəcək və onlar istədikləri məqsədlərə nail ola bilməyəcəklər. Əgər təşiklatçılar və onların tərəfdarlarının zorakı hərəkətlər etmək istəkləri olması, yaxud digər şəxslər tərəfindən edilən bu cür hərəkətləri dəstəkləməsi haqqında ciddi və dəqiq məlumatlar varsa, onların bu istəklərini sübut edən əsaslar mövcuddursa bu zaman çoxlu sayda iştirakçısı olan nümayişlərin qadağan edilməsi konstitusiya müddəaları ilə ziddiyyət təşkil etmir. Bu cür nümayişlərə münasibətdə AR Konstitusiyasının 49-cu maddəsi heç bir təminat vermir, çünki bu toplantı dinc toplantı sayılmır və onun qadağan edilməsi və yaxud dayandırılması əsas qanunun pozuntusu sayılmayacaqdır. Təşkilatçı və onların tərəfdarları dinc nümayiş keçirirlərsə, ancaq üçüncü şəxslər (əks-nümayişçilər və ya nümayişi pozmaq istəyən qruplar) tərəfindən aqqresiv hərəkətlərə yol verilirsə bu zaman hüquqi nöqteyinəzərdən hər şey kifayət qədər aydındır. Bu cür hallarda hakimyyət orqanları, müvafiq elmi mənbələrdə nəzərdə tutulduğu kimi, pozuculara qarşı tədbirlər görməli və yığıncağa qarşı istənilən hərəkətlərin, ümumilikdə fövqəladə halların yaranmasının qarşısını almaq uçün, tədbirlərə əl atılmalıdır. Əgər kütləvi iğtişaş təhlükəsi yoxdursa, nümayişin mütləq ictimai asayişin pozulması, xalq üsyanına çevriləcəyini yaxud təşkilatçıların hadisələrin bu cür inkişafına səy göstərəcəyini yaxud bu cür hərəkətləri alqışlayacağını güman etmək lazım deyildir. Belə hallarda nümayişin dinc iştirakçıları üçün, hətta nümayişin ayrı-ayrı iştirakçıları yaxud azlıq özünü aqressiv aparsa belə, sərbəst toplaşmaq azadlığı haqqında konstitusiya təminatı qüvvədə olacaq. Əsas hüquq və azadlıqları məhdudlaşdıran müddəaların tətbiqi zamanı Konstitusiya maddəsində təsbit edilmiş təminatları nəzərə almaq lazımdır. Bu təminatlara münasibətdə, hakimiyyət orqanları tərəfindən, sərbəst toplaşmaq azadlığı haqqında qanuna əsasən ictimai asayişin qorunmasına yönəlmiş tədbirlərin görülməsini istisna etməyən, qanuni məhdudiyyətlərin tətbiq edilməsi mümkündür. Bu tədbirlər bütün nümayişə, hətta onun qadağan edilməsinə qədər tətbiq edilə bilər. Lakin nümayişin başlanmasından sonra dayandırılması vacibliyi nöqteyi nəzərdən yanaşma daha düzgün olardı - bu tədbir dinc nümayişçilərin öz əsas hüquqlarını reallaşdırmaq imkanlarından məhrum etməz və təşkilatçılara aqressiv əhval-rühiyyəli iştirakçıları təcrid etmək imkanı vermiş olar. Aqressiv əhval-ruhiyyəli iştirakçılardan gələcək təhlükəyə görə yığıncağın əvvəlcədən qadağan edilməsi ancaq bir sıra sərt tələblərə riayət edilməsi və sərbəst toplaşmaq azadlığı haqqında qanunun müddəalarının Konstitusiyaya uyğun olaraq tətbiq edilməsi şərti ilə yol verilir. Bu sərbəst toplaşmaq azadlığı haqqında qanunun müddəalarına və bu müddəalardan irəli gələn prossesual

hüququn tələblərinə riayət olunması üçün çox vacibdir. Qadağan haqqında qərar qəbul edilməsi üçün risk ehtimalının çox böyük olması vacibdir, eyni zamanda dinc nümayişçilərin öz əsas hüquqlarını reallaşdırmaq üçün bütün imkanlar səfərbər edilməlidir. Nümayişin keçirilməsinin tamamilə qadağan edilməsi o deməkdir ki, təhlükəli vəziyyətlərin qarşısının alınması üçün dinc nümayişçilər ilə birgə əməkdaşlıq heç bir nəticə verməmişdir, yaxud bu əməkdaşlıq nümayişçilərin günahı üzündən baş tutmamışdır. Əgər konkret halları nəzərə almaqla dinc iştirakçıların üstünlük təşkil etdiyi kütləvi nümayişlərin qadağan edilməsi mümkünlüyü nəzərdən keçirilirsə, o zaman bir qayda olaraq iştirakçılar qabaqcadan bu qadağa haqqında xəbərdar edilməlidirlər.

## 2. İcra hakimiyyəti orqanları "məqsədəuyğun sayılmır" cavabı kimi qeyri-müəyyən cavablar verir

İkinci qrup cavabları təhlil edərək hakimiyyət orqanlarının öz cavablarını "məqsədəuyğun sayılmır" ifadəsi ilə əsaslandırmasından belə bir nəticə çıxarmaq olar ki, hakimiyyət orqanları insanların fikrini, onların azad düşünmək, söz azadlığı və sərbəst toplaşmaq azadlığı kimi konstitusion hüquqlarının reallaşdırılmasını məqsədəuyğun saymır. Hakimyyət orqanları tərəfindən bu cür interpretasiya sərbəst toplaşmaq azadlığının təsbit edildiyi Konstitusiya və beynəlxalq normalar ilə ziddiyyət təşkil edir. Sərbəst toplaşmaq azadlığının məhdudlaşdırlması üçün müraciətlərə cavablarını bu cür ifədə edilməsi qeyri-qanunidir. Müsavat partiyasının piket keçirmək haqqında müraciətinə Bakı şəhər İcra Hakimiyyətinin 28 noyabr 2005-ci li tarixli cavabı da bu cür əsalandırılmışdır ki, seçki prosesində yol verilən pozuntular və parlament seçkiləri yekunların təsdiqi üçün Konstitusiya məhkəməsinə təqdim edildiyi üçün *"Bakı şəhər İcra Hakimiyyəti 29 noyabr 2005 il tarixində piketin keçirilməsini məqsədəuyğun hesab etmir".*

Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqasının Bakı şəhəri İstiqlaliyyət küçəsində yerləşən "Sabir" bağında söz azadlığının müdafiəsi məqsədi ilə piket keçirmək üçün Bakı şəhər İcra Hakimiyyətinə təqdim etdiyi 23 may 2007-ci il tarixli xəbərdarlıq məktubuna İcra Hakimiyyəti 30 may 2007-ci il tarixli məktubla cavab verərək bildirmişdir ki, *"…hesab edirik ki, bu məsələ ilə əlaqədar aksiya keçirmək deyil, sivil qaydada mövqeyinizi bildirmək daha faydalı olardı".* Dinc toplantını qeyri-sivil aksiya hesab edən icra hakimiyyəti piketin keçirilməsini məqsədəuyğun saymamışdır.

"Hər bir şəxs" öz sərbəst toplaşmaq azadlığının reallaşdırılmasının məqsədəuyğunluğunu, fikir və söz azadlığı baxımından özü müəyyən edir. Hər bir kəs və ya təşkilat sərbəst toplaşma azadlığı hüququnu söz və fikir azadlığı hüququndan istifadə edərək öz baxışlarına əsasən müəyyən edir. Heç bir kəsin və ya orqanın keçiriləcək tədbirin mahiyyəti barədə fikir yürütmək hüququ yoxdur.

Söz azadlığı demokratik cəmiyyətin əsas və ayrılmaz elementlərindən biri olmaqla və insan şəxsiyyətinin birbaşa ifadə edilməsinin mühüm vasitəsi, eyni zamanda demokratik dövlətlərin əsas təməllərindən biri hesab edilir. Çünki söz azadlığı demokratik dövlətin yaşaması üçün mühüm olan fərqli ideyalar və düşüncələrin, diskussiyaların mövcudluğunu təmin edir. Əgər sərbəst toplaşmaq azadlığını kollektiv fikrin ifadə edilməsi kimi başa düşsək prinsipcə, qeyd olunan mülahizələri ona da aid etmək olar. Bu zaman söz azadlığı üçün xarakterik olan diskussiya amilinin, toplantılarda birinci dərəcəli rol oynamaması faktını ziddiyyət kimi qəbul etmək lazım deyildir. KİV-nin vasitəsi olmadan, nümayişlərdə və s. kütləvi tədbirlərdə iştirak etməklə birbaşa olaraq öz fikrini açıq ifadə etməklə O, eyni zamanda şəxsi mövqeyini də bildirir.

Numayiş eyni zamanda bir qrup insanın əqidələrinin fiziki cəhətdən KİV-dən istifadə etmədən təzahür etdirmək elementidir. Bu cür aksiyaların gedişində iştirakçılar bir tərəfdən ətrafdakılar ilə öz əqidələrini bölüşürlər, digər tərəfdən, onlar öz iştirakları ilə sözün əsl mənasında öz mövqelərini müdafiə edir və öz fikirlərini bildirirlər. Söz azadlığı və sərbəst toplaşmaq azadlığını reallaşdırmaq üçün mitinq keçirilməsi üçün müraciət etmiş Müsavat Partiyasına, Bakı Şəhər İcra Hakimiyyətinin 21 sentyabr 2006-cı tarixli cavabında bildirmişdir ki, mitinq keçirilməsi məqsədəuyğun hesab edilmir çünki, *"Prezident İlham Əliyev xalqın sosial vəziyyətinin yaxşılaşdırılması üçün var gücü ilə çalışır, neft gəlirləri ildən ilə artır, hökumət korrupsiya ilə mübarizə aparır, prokurorluq yanında antikorrupsiya strukturları yaradılır …"* Söz və fikir azadlığından populist çıxışlar etmək və emosional təzyiq vasitəsi kimi istifadə edilməsi təhlükəsi sərbəst toplaşmaq azadlığı sferasında xarakterik cəhətlərin müəyyən edilməsi üçün əsas amil hesab edilmir.

**3. İcra hakimiyyəti orqanları proporsionallıq prinsipini kobud surətdə pozur müraciət edənlərə əvvəlcədən yararsız yerlər təklif edir.**

Bir çox müraciət edənlər hakimiyyət orqanlarının ayırdığı yerlərdə və vaxtda razılaşdırılmış mitinqləri də təşkil edə bilmirlər. Səbəb ondan ibarətdir ki icra hakimiyyəti orqanları elə yerlər təklif edir ki, bu yerdə mitinqin keçirilməsinin heç bir effekti olmayacaqdır. Məsələn, yürüş mitinq haqqında müraciətə BŞİH - nin 06.11.2005 il tarixli məktubunda deyilir ki, *"20 Yanvar metrosu - Dövlət film fondu" marşurutu ilə 8 noyabr, 10 noyabr tarixlərində yürüş-mitinq keçirilməsi mümkün deyil, 9 noyabr tarixində isə ancaq BŞİH-nin təyin etdiyi vaxtda yürüş- mitinq keçirmək olar".*

Mitinq keçirilməsi, onun hər bir iştirakçısının bu və ya digər problem haqqında öz fikrini cəmiyyətə

çatdıra bilmək üçün bir vasitədir, icra hakmiyyəti orqanlarının təklif etdiyi yerlərdə və formada mitinqin keçirilməsinin heç bir mənası olmur. Toplantıların şəhərin daha çox əhalisinin toplaşdığı yerlərdən kənarlaşdırlması söz və fikir azadlığının mahiyyətini heçə endirir.

Məsələn, 15 fevral 2007-ci il tarixli mitinq keçirilməsi haqqında müraciətə cavab olaraq BŞİH müraciətdə göstərilən yerlərdən heç birində mitinqin keçirilməsinin mümkün olamadığını bildirmişdir. BŞİH eyni zamanda xeyli sayda dövlət müəssisələrini sadalamışdır, ki onların qarşısında mitinq piket keçirilməsinə icazə verilmir və Azərbaycan qəzetinin 29 oktyabr 2006-cı il tarixli nömrəsində mitinq və toplantıların keçirilməsinə icazə verilən yerlərin siyahısı dərc edilmişdir. Bu yerlərin demək olar ki, hamısı şəhərin qeyri-fəal hissəsini əhatə edir və burada ictimai rəyə təsir etmək mümkünsüzdür. Məlumdur ki, iri birliklər, zəngin sponsorlar və KİV-lərinin cəmiyyətdə təsir imkanları xeyli böyükdür və bu qruplar ilə müqayisədə sıravi vətəndaşlar gücsüz görünür. KİV-ə birbaşa çıxışları olmayan sıravi vətəndaşların öz fikirlərini ifadə etmək üçün partiya və digər birliklərdə iştirak etməsindən əlavə ancaq bir yolu vardır: sərbəst toplaşmaq azadlığından istifadə edərək nümayiş keçirmək yolu ilə ictimai rəyə koollektiv təsir göstərmək. Hakimiyyətin bunun üçün şərait yaradılması vəzifəsi Konstitusiyada təsbit edilmiş əsas siyasi qərardan irəli gəlir. Bu vəzifə həm mitinq və nümayişlərin keçirilməsinə yardım göstərmək və həm də sərbəst toplaşmaq azadlığının reallaşdırılması hüququna üçüncü tərəfdən ola biləcək müdaxilələrin qarşısını almaqdan ibarətdir. İstənilən məhdudlaşdırıcı qanun və qərarların qəbul edilməsi zamanı hakimiyyət orqanları Konstitusiya müddəalarında göstərilən hüquqları nəzərə almalıdırlar. Hakimiyyət orqanları sərbəst toplaşmaq azadlığını yalnız eyni dəyərə malik olan digər mənafelərin qorunması naminə məhdudlaşdıra bilər və bu zaman proporsionallıq prinsipləri mütləq nəzərə alınmalıdır. Sərbəst toplaşmaq azadlığının maneəsiz olaraq reallaşdırılması, təkcə siyasi gücsüzlüyün başa düşülməsinə və dövlətə qarşı mənfi münasibətlərin yaranması kimi təhlükəli meyllərə qarşı təsir göstərmir. Son nəticədə sərbəst toplaşmaq azadlığı bütün cəmiyyətin maraqlarına xidmət edir, çünki bütövlükdə siyasi düşüncələrin formalaşmasına təsir edən elementlərin müxtəlifliyi və rəngarəngliyi bütün istiqamətlərdə inkişafının dinamikliyinə səbəb olacaqdır.

2005-ci ildə Bakıda jurnalist Elmar Hüseynov qətlə yetirildi. Cəmiyyətin əksəriyyəti qətlin siyasi motivlər əsasında törədilməsinə əmin idilər. Görkəmli Azərbaycan jurnalistinin qətlə yetirilməsi ilə bağlı öz fikrini cəmiyyətə çatdırmaq məqsədi ilə ADP və AXCP 10 aprel tarixində saat 16.00-dan-18.00-dək yürüş - mitinq keçirilməsi üçün BŞİH-nə müraciət etmişdir. Müraciətə cavab olaraq BŞİH bildirir ki, *"bu məsələni dövlət və hakimiyyət orqan-*

*ları ilə dialoq yolu ilə həll etmək lazımdır və yürüş-mitinq keçirilməsinə lüzum yoxdur".* Qeyd etmək lazımdır ki, bu halda proporsionallıq prinsipi pozulmuşdur çünki söz azadlığına endirilmiş zərbə ictimai əhəmiyyətli bir hadisədir və bu hadisə haqqında fikirlərin ifadə edilməsi demokratik və hüquqi cəmiyyətdə çox vacibdir.

Referendumların keçirilməsi imkanlarının zəif olduğu təmsilçilik, parlament sistemli demokratiyanın mövcudluğu şəraitində sərbəst toplaşmaq azadlığı, sistemin funksiyalarının əsas və dəyişməz elementinə çevrilir. Burada (hətta əksəriyyət üçün böyük əhəmiyyət kəsb edən qərarlara o cümlədən hakimyyət dəyişikliyindən sonra da ləğv edilməsi çətin olan qərarlara münasibətdə) çoxluq prinsipi qüvvədə olur. Digər tərəfdən seçkilərarası dövrlərdə seçicilərin proseslərə təsir etmək imkanları xeyli dərəcədə məhdudlaşdırılır. Hakimyyət orqanları hüquqların pozulmasını etiraf etmədiyi, səhvləri görmədiyi və yaxud hüquqların pozulmasına digər maraqların müdafiəsi ilə əsaslandırmağa çalışdığı hallar zamanı ictimai əhəmiyyətli yerlərdə etiraz nümayişlərinin keçirilməsini daha da vacib edir. Qeyd etmək lazımdır ki, sərbəst toplaşmaq azadlığı təmsilçilik sistemli hakimiyyətlər üçün stabilləşdirici amil rolunu oynayır. Sərbəst toplaşmaq azadlığı narazı insanlara öz etirazlarını açıq surətdə bildirmək imkanı verir. Sərbəst toplaşmaq azadlığı cəmiyyətin idarə etmə sistemində nasazlıqları göstərən siyasi indikatorlar kimi fəaliyyət göstərir, iğtişaşların meydana gəlməsi üçün potensial imkanları, cəmiyyətin müxtəlif təbəqələrinin inteqrasiyasında olan qüsurları qabardır və bununla da rəsmi siyasi kursun dəyişdirilməsinə yardımçı olur. Sərbəst toplaşmaq azadlığına dair müddəalər bu huququn təminatına yönəlmişdir. Bu müddəalarda mitinq və nümayişlərin keçirilməsi formaları göstərilmiş və təşkilatçılar bu tədbirlərin qanunla qadağan olunmayan istənilən formasını seçə bilirlər. Qanun ancaq mitinq və nümayişlərin keçirilməsi üçün təşkilati məhdudiyyətlər müəyyən edir. Kütləvi tədbirlərin təşkilatçıları və iştirakçıları tərəfindən siyasi düşüncə və siyasi iradənin formalaşdırılması prinsipi ilə bir araya sığmayan tələblər irəli sürülməsi yol verilməzdir. Əgər hakimiyyət orqanları tərəfindən görülən tədbirlər əsas hüquq və azadlıqların məhdudlaşdırılması normalarından kənara çıxarsa, bu çox böyük ehtimalla, süni əngəllər yaratmaqla, ilkin prosedurları uzatmaqla, nümayişlərin keçirilməsinə əsassız olaraq maneələr yaradacaqdır. Hakimiyyət orqanları tərəfindən görülən, Sərbəst toplaşmaq azadlığı hüququndan istifadə olunmasının məqsədəuyğunluğunu və buna olan tələbatın, mitinqlərin yerinin müəyyən edilməsi kimi, həmçinin həddindən artıq nəzarət yaradılmasına səbəb olan və mitinqin keçirilməsini mənasız edən, istənilən tədbirlər ölkə konstitusiyası ilə ziddiyyət təşkil edəcəkdir.

## Təsadüfi mitinqlər

Təsadüfi mitinqlər haqqında bu məsələni diqqətdən kənarda saxlamaq olmaz. Təsadüfi mitinqlərin bu qiymətləndirilməsi, belə bir fakta əsaslanır ki, "sərbəst toplaşmaq azadlığı" haqqında qanunun müddəaları bu əsas hüquq və azadlıqların təmin olunması nöqteyi-nəzərindən zəruri hallarda ikinci plana keçir. Mitinq və nümayişlərin keçirilməsinə qanunda yazıldığına görə deyil vətəndaşların buna hüququ olduğuna görə icazə verilir. "Sərbəst toplaşmaq azadlığı" haqqında qanun sadəcə olaraq ehtiyac olduğu zaman müəyyən məhdudiyyətləri nəzərdə tutur. Buna görə də hesab edilir ki, müraciət edilməsi haqqında qaydaların pozulması, avtomatik olaraq mitinq və nümayişlərin qadağan edilməsi və yaxud dayandırlması mənasını vermir. Əlbəttə əvvəlcədən xəbərdarlıq etmədən mitinqi təşkil edən hər bir təşkilatçı və ya rəhbər Sərbəst toplaşmaq azadlığı haqqında qanunu pozur. "Sərbəst toplaşmaq azadlığı haqqında qanunun" 7-ci maddəsində nəzərdə tutulmuşdur ki, səlahiyyətli orqanlar açıq havada keçirilən mitinq və yürüşləri dayandıra bilər:

Sərbəst toplaşmaq azadlığına hər hansı məhdudiyyət yalnız qanunla və demokratik cəmiyyətdə zəruri olan hallarda qoyula bilər.

İcra hakimiyyəti orqanları hesab edirlər ki, sanksiyalar kimi, əgər bu qadağa qanunda göstərilən, mitinqin dayandırılmasından daha yumşaq tədbir hesab edilərsə, mitinqlərin əvvəlcədən qadağan edilməsindən istifadə edilə bilər. Lakin qanun səlahiyyətli orqanlardan həmişə bu cür mitinqlərin qadağan edilməsi və ya dayandırılmasını tələb etmir. Sərbəst toplaşmaq azadlığının çox mühüm olmasını nəzərə alaraq qanun hakimiyyət orqanlarına, sadəcə olaraq, müdaxilə üçün ancaq ciddi əsaslar olduğu hallarda və öz vəzifələri çərçivəsində istifadə edə biləcəyi səlahiyyətləri verir.

Sərbəst toplaşmaq azadlığı haqqında qanunda, eyni zamanda, təsadüfü mitinqlərə, məqsədlərinə, bu qanunun xəbərdarlıq edilməsi haqqında müddəalarına riayət edilməsi ilə nail olunmasının mümkün olmadığı, numayişlərə məhdudiyyətlərin tətbiq edilə bilməsi halları nəzərə alınmışdır. Konstitusiyanın 49-cu maddəsinə uyğun gəlməməsinə baxmayraq bu cür mitinqlər qanuni sayılır, və dövlət istənilən zaman bu hüququn məhdudlaşdırılması üçün tədbirlər görə bilər.

Beləliklə, əvvəlcədən xəbərdarlıq edilməsi haqqında tələb həmişə tətbiq edilə bilməz və bu tələbə əməl edilməməsi avtomatik olaraq qadağan mənasını vermir və demək olmaz ki, - mühüm ictimai maraqlara riayət edilməsinin vacibliyi ilə əsaslandırılmış - bu tələb uyğunsuzluq təşkil edir. Çoxlu sayda iştirakçının iştirak etdiyi və təsadüfi mitinqlər ayrıca qiymətləndirilə bilər. Müstəsna qaydaların mövcudluğunu və xarakteristikasını, ictimai asayişə təhlükə nöqteyi-nəzərindən digər kontekstdə müzakirə etmək lazımdır. ■

# KÜTLƏVİ AKSİYALARIN HAKİMİYYƏT ORQANLARI TƏRƏFİNDƏN DAĞIDILMASI ZAMANI FİZİKİ ZORAKILIĞA MƏRUZ QALMIŞ MƏSULİYYƏTƏ CƏLB EDİLMİŞ ŞƏXSLƏRLƏ STRUKTURLAŞMAMIŞ İNTERVÜLƏR

Müxtəlif vaxtlarda hakimiyyət orqanları tərəfindən "sanksiyalaşdırılmamış", yaxud dayandırılmış toplantı iştirakçılarından 20 nəfəri ilə strukturlaşmamış intervülər həyata keçirilmişdir. Şəxslər mətbuatda verilən elanlar əsasında özləri təşkilata müraciət edərək intervülərdə iştirak etmək arzusunda olmuşlar.

Strukturlaşmamış intervülərə cəlb edilənlərlə bağlı aşağıdakı göstəricilər müəyyən olunmuşdur:

☑ Cinsi və yaş kateqoriyası (uşaq, gənc, orta yaşlı, ahıl)

☑ Fəaliyyəti (siyasi, ictimai, humanitar, din və s.)

☑ Partiya və ya ictimai təşkilatlarda üzv olub olmaması

İntervülər zamanı istifadə olunan suallar əsasən aşağıdakılar olmuşdur:

Siz hansı toplantıda zorakılığın qurbanı olmusunuz?

Konkret hansı şəraitdə, hansı zorakılığa məruz qalmısınız?

Zəhmət olmasa situasiyanı təsvir edin.

Toplantıda hansı statusla iştirak edirdiniz?

(təşkilatçı, iştirakçı, təsadüfi iştirakçı, toplantı zamanı həmin ərazidən təsadüfü keçən)

Toplantıda iştiraka görə məsuliyyətə cəlb edilmisinizmi?

(saxlanılma, inzibati cərimə tətbiq edilmə, inzibati həbsə alma, cinayət məsuliyyəti)

İntervüyə cəlb olunmuş şəxslərdən 7-si qadın 13 nəfəri isə kişi olmuşdur. Qadınlardan 1-ahıl 4-ü orta yaşlı, 2-si isə gənc olmuşdur. Kişilərdən 4-ü gənc və yeniyetmə, 3-ü ahıl, 6-sı isə orta yaş qrupuna daxil olan şəxslər olmuşdur. Toplantı zamanı fiziki zorakılığa məruz qalan kişilərdən 4-ü, qadınlardan isə 2-si barədə inzibati həbsəalma tətbiq edilmişdir (3 sutkadan 15 sutkayadək). İntervülərə cəlb edilənlərin 3 nəfəri bitərəf, 16 nəfəri siyasi partiya üzvü, 1 nəfər isə gənclər təşkilatının fəalı olmuşdur.

Strukturlaşmamış intervülər zamanı zorakılığa məruz qalanların 11 nəfəri aksiya keçirilərkən dayan-

dıqları yerdə, 3 nəfəri polis tərəfindən aksiya dağıdılmağa başlayarkən toplantını tərk edərkən, 2 nəfəri ağır travma alanlara yardım edən zaman, 4 nəfər isə əllərində plakat və ya bayraq saxladığına görə zorakılığa məruz qaldıqlarını qeyd etmişdir.

Toplantı zamanı zorakılığa məruz qalanlardan birinin müsahibəsindən: "Məni arxadan durduğum yerdə dubinka ilə vurdular və təpiklə yerə yıxdılar. Çiynimdən və böyrümdən xəsarət aldım. Daha ciddi əzilənlərə kömək etmək istəsəm də polislərin söyüşünə və fiziki təzyiqinə tuş gəldim. Ev şəraitində müalicə almışam". İntervülərə cəlb edilənlərin əksəriyyəti qeyd edir ki, onların iştirak etdikləri aksiyalar zamanı polisin məqsədi yalnız toplantını dağıtmaq olmamışdır. Onlar həmçinin toplantı iştirakçılarına qarşı xüsusi qəddarlıq nümayiş etdirmişlər.

Başqa bir toplantı iştirakçısı intervü zamanı aşağıdakıları bildirdi: "3 nəfər mülki geyimli şəxs məni yerə yıxıb təpikləməyə başladı. Ayağa duran zaman isə yumruqları ilə baş, üz, çiyin, sinə, qarın və bədənimin müxtəlif hissələrinə zərbələr endirdilər. Nəticədə həm də kürək və bel nahiyələrimdən xəsarət almışam".

"Azadlıq" qəzeti, "Turan" İnformasiya Agentliyini və Azərbaycan Xalq Cəbhəsi Partiyasını yerləşdikləri binadan zorla çıxarılmalarına etiraz əlaməti olaraq Piket təşkil etmək istəyənlər metronun "Bakı Soveti" stansiyasının çıxışında yaxalanaraq ağır fiziki zorakılığa məruz qalmışlar. Həmin tədbirdə iştirak etmiş partiya fəalı olan xanım öz intervüsündə qeyd edir ki, "Metrodan çıxmaq istəyərkən polislər mənə hücum çəkdi, dubinka ilə baş, kürək nayihəsinə ağır zərbələr endirdikdən sonra məni 30 metrə qədər sürüyüb avtobusa atdılar. Məni inzibati həbsəalma üçün nəzərdə tutulan yerə gətirdilər. Heç bir tibbi yardım göstərilmədi. Sonra məlum oldu ki, mənə məhkəmə tərəfindən 5 sutka inzibati həbsəalma cəzası təyin edilib"

İntervüyə cəlb olunanların 2 nəfərindən başqa hamısı toplantıya iştiakçı kimi, 2 nəfər isə təşkilatçı qismində qatıldıqlarını bildirmişdir.

İntervüdə iştirak edənlərin əksəriyyəti qeyd etmişdir ki, sanksiyalaşdırılmamış toplantıların dağıdılması zamanı polis və çevik qüvvələr və mülki geyimli şəxslər xüsusi amansızlıq nümayiş etdirirlər. Onlar baş da daxil olmaqla bədənin ən çox zərər çəkə biləcəyi yerlərinə dəyənək və təpiklə zərbələr endirir, söyüş və təhqiramiz ifadələr işlədirlər. İntervüdə iştirak edənlərdən biri qeyd etmişdir ki, ona metal çubuqla zərbələr endirilmişdir. O, uzun müddət müalicə olunsa da sağlamlığını bərpa edə bilməmişdir. Ümumiyyətlə intervü verən şəxslərdən bir neçəsi də toplantıların dağıdılması zamanı qeyri-standart alətlərdən istifadə olunduğunu bildirmişlər.

■

# TOPLANTILAR ZAMANI TOPLANTI İŞTİRAKÇILARININ, TƏŞKİLATÇILARIN VƏ ASAYİŞİ TƏMİN EDƏN QÜVVƏLƏRİN DAVRANIŞININ MÜŞAHİDƏSİ

Bakı şəhərində təşkil olunan iki toplantı müşahidə edilmişdir. Bunlardan biri yürüş-mitinq, digəri isə piket olmuşdur. "Müsavat" partiyası tərəfindən təşkil olunan toplantı 18 mart 2007-ci il tarixində şəhərin mərkəzi hissəsindən təqribən 14 kilometr uzaqda metronun "Həzi Aslanov" stansiyasının yanından başlayaraq Məhəmməd Hadi küçəsindən keçməklə, Ukrayna meydanınadək davam edən yürüş və meydanda keçirilən mitinqdən ibarət olmuşdur. Toplantı şəhər icra hakimiyyəti tərəfindən sanksiyalaşdırılmışdır.

Digər toplantı 15 may 2007-ci il tarixində "Azadlıq", "Yeni Müsavat", "Bizim yol", "Gündəlik Azərbaycan", "Realnıy Azerbaydjan" qəzetləri, "Qanun" jurnalı, "Turan" informasiya agentliyi tərəfindən təşkil olunmuşdur. Piket təşkilatçıları "Sərbəst toplaşma azadlığı haqqında" Qanunun tələblərinə tam əməl etməklə toplantının keçirilmə vaxtı, yeri, iştirakçıların sayı barədə Şəhər İcra hakimiyyətinə yazılı xəbərdarlıq təqdim etmişdir. Bununla belə Şəhər İcra Hakimiyyəti heç bir ciddi əsas göstərmədən piketin keçirilməsinə qadağa qoymuşdur və bu barədə təşkilatçılara toplantının keçirilməsinə 1 gün qalmış yazılı məktub təqdim etmişdir. Bununla belə təşkilatçılar toplantının keçirilməsində israrlı olduqlarını bildirərək təyin olunmuş vaxtda piketi keçirməyə cəhd etmişdir.

"Müsavat" Partiyası tərəfindən təşkil olunan və hakimiyyət orqanları tərəfindən saksiyalaşdırılan yürüş mitinq zamanı aparılan müşahidələr nəticəsində aşağıdakılar müəyyən olunmuşdur.

**Asayişi təmin edən qüvvələrin davranışı**

**1.** Yürüş mitinqin keçiriləcəyi əraziyə asayişin təmin edilməsi üçün həm polis formasında, həm də mülki geyimli qüvvələr cəlb edilmişdir. Eyni zamanda yol polis xidmətinə məxsus avtomobillər ərazidə manevrlər edirdi. Müşahidə aparan qrup üzvləri yürüş-mitinqin keçiriləcəyi əraziyə yaxın yerlərdə yol polisi tərəfindən mitinqə gələn minik maşınlarının saxlanılaraq geri qaytarılması hallarını qeydə almışdır. Eyni zamanda əraziyə yaxın yerlərdə polislərin iştirakçılara əraziyə daxil olmalarına mane olma halları da müşahidə edilmişdir. Təşkilatçılar bunu onunla izah edirdi ki, hakimiyyət orqanları

toplantıda iştirakçıların sayının minimuma endirilməsi üçün süni maneələrdən istifadə etmək üçün polisə xüsusi tapşırıq verib.

**2.** Əraziyə cəlb edilmiş polis qüvvələrinin sayı nəzərə çarpacaq dərəcədə çox idi. Halbuki toplantının dinc keçəcəyi əvvəlcədən heç bir şübhə doğurmurdu. Yürüşün keçirildiyi küçə boyunca polislər bir-birinə yaxın məsəafədə düzülmüşdü. Mitinq vaxtı isə mitinqin keçirildiyi ərazi polis qüvvələri tərəfindən sıx dairəyə alınmışdır. İştirakçılara polis kardonunun hüdudlarından kənara çıxmağa imkan verilmirdi. Yalnız toplantını tərk etmək istəyənlər üçün xüsusi koridorlar verilmişdi. Meydanda naməlum çəkiliş qrupları fəaliyyət göstərirdi və həmin çəkiliş qrupları mülki geyimli şəxslərdən təlimatlar alırdı.

**İştirakçıların və təşkilatçıların davranışı**

Yürüş mitinqin başlanması ərəfəsində iştirakçıların sayı 1000-1200 nəfər təşkil edirdi. İştirakçılar asayişi təmin edən qüvvələrin tapşırıqlarına, bəzən isə lüzumsuz tapşırıqlarına qarşı xüsusi aqressivlik nümayiş etdirmirdi. Bununla belə bəzi iştirakçılar polislərin yürüş-mitinqə lüzümsuz müdaxilələri ilə bağlı etirazlarını bildirirdilər. Yürüş təyin olunmuş vaxtda başlandı və iştirakçılar təyin olunan əraziyə qədər gələrək mitinqə başladılar. Təşkilatçılarla polis orqanları arasında heç bir ciddi mübahisə, yaxud digər insident halları baş vermədi. Mitinq təyin olunan vaxtda başa çatdı və iştirakçılar dinc şəkildə meydanı tərk etdilər.

Yuxarıda qeyd olunan digər toplantı-piket söz azadlığına qarşı hakimiyyət orqanlarının həyata keçirdiyi təzyiqlərə etiraz məqsədi ilə təşkil olunmuşdur. Hakimiyyət orqanları əvvəlcədən piketin keçirilməsinə imkan verməyəcəklərini bildirmişdir.

**İştirakçıların və təşkilatçıların davranışı**

İştirakçılar piketin təyin olunduğu vaxta 15-20 dəqiqə qalmış müəyyən olunmuş yerdə toplaşmağa başladılar. İştirakçılar toplantının keçirildiyi yerdə-Sabir adına bağda və onun ətrafında toplaşırdı. Piketin təyin olunduğu vaxtda-saat 14.00-da iştirakçıların sayı 35-40 nəfərə çatırdı. Piket iştirakçıları və təşkilatçılar kiçik qruplarda toplaşaraq müzakirələr aparırdı. Piketin keçirilməsinə imkan verilməyəcəyini bilsələr də iştirakçılarda və təşkilatçılarda aqressivlik əlamətləri yox idi.

**Polisin davranışı**

Toplantının keçiriləcəyi yerdə polis birləşmələri toplaşmışdı. Polisin sayı təqribən iştirakçıların sayına bərabər idi. Piketin keçirilməsi üçün təyin olunmuş vaxtda polislər hücuma keçərək şüar və şəkilləri müsadirə edərək cırdılar. Sonra isə heç bir müqavimət olmadığı halda iştirakçılar kobud şəkildə, bəzən isə təhqir edilərək piketin keçirilməsi üçün nəzərdə tutulan ərazidən uzaqlaşdırılmağa başladılar. İştirakçılar və təşkilatçılar tərəfindən heç bir müqavimət olmadığı üçün bu proses 5-10 dəqiqəyə başa çatdı və polis tərəfindən saxalanılan olmadı.

# MƏTBUATIN ANALİZİ

01 aprel 2007-ci il tarixindən 30 iyul 2007-ci il tarixinə qədər olan dövr ərzində ölkənin aparıcı üç mətbuat orqanı analiz edilmişdir. Bu dövr ərzində "Azadlıq", "525-ci qəzet" və rusdilli "Zerkalo" qəzetlərində sərbəst toplaşma azadlığı hüququnun həyata keçirilməsi ilə bağlı problemlər, müzakirələr, təkliflərlə bağlı verilmiş bütün yazılar analiz edilmişdir. Xüsusi hazırlanmış qeyd vərəqində dərc olunan bütün materialların rezümesi və ona dair ekspert qeydi və ya qısa şərhi verilmişdir.

Ölkədə sərbəst toplaşma azadlığının təmin olunması ciddi problem olmasına baxmayaraq ümumilikdə aparıcı mətubat bu mövzunu adətən sərbəst toplaşma azadlığı ilə bağlı hər hansı hadisə baş verərkən, yaxud hadisə ərəfəsində diqqətdə saxlamışdır. Gündəlik olmalarına baxmayaraq bəzən bu mətbuat orqanlarında həftə ərzində mövzu üzrə hər hansı yazı verilməyən hallar qeydə alınmışdır. Bu göstəricidən belə qənaət hasil edilə bilər ki, mətbuat orqanı mövzunu daimi diqqətdə saxlamır.

Üç ay ərzində bu qəzetlər ümumilikdə 195 dəfə çıxsalar da 99 nömrədə sərbəst toplaşma azadlığı ilə bağlı yazılar verilmişdir.

Mövzular əsasən 4 qrup məsələ ətrafında verilmişdir. Bunlar: Kütləvi aksiyalara hazırlıq, həyata keçirilmiş aksiyalar barədə verilmiş yazılar (53 yazı), Müvafiq icra hakimiyyəti orqanları tərəfindən kütləvi aksiyaların qadağan edilməsi və ya aksiyaların təxirə salınması ilə bağlı yazılar (17 yazı), Sanksiyalaşdırılmamış aksiyalar zamanı polis zorakılığına məruz qalmış, saxlanılmış və ya inzibati cəza almış kütləvi aksiya iştirakçıları və ya təşkilatçıları ilə bağlı yazılar (12 yazı) və Sərbəst toplaşma azadlığı ilə bağlı qanunvericiliyin müzakirəsi, beynəlxalq və yerli qurumlar tərəfindən qanunvericiliyin təkmilləşdirilməsi ilə bağlı verilən təkliflərlə bağlı yazılar və digər yazılar (17 yazı) olmuşdur.

Dövrü mətbuatdakı yazılar monitorinq nəticələri üçün əsas mənbə rolunu oynamasa da, bu materialların təhlili digər monitorinq alətlərinin tətbiqi nəticəsində əldə olunan qənaətlərin dürüstlüyünə əlavə arqument verir.

Belə ki, mətbuatda verilən yazılardan da bəlli olur ki, ölkədə sərbəst toplaşma azadlığının təmin olunması və tənzimlənməsi üçün tələb olunan normalar nə ölkə Konstitusi-

***01 aprel 2007-ci il tarixindən 30 iyun 2007-ci il tarixinə qədərə olan dövrdə sərbəst toplaşma azadlığının həyata keçirilməsi ilə bağlı dövrü mətbuatda verilmiş yazıların anailizinə dair statistik göstəricilər***

| Mətbuat orqanının adı | Mövzu üzrə dərc olunan yazıların ümumi sayı | Kütləvi aksiyalara hazırlıq, həyata keçirilmiş aksiyalar barədə verilmiş yazılar | Müvafiq icra hakimiyyəti orqanları tərəfindən kütləvi aksiyaların qadağan edilməsi və ya aksiyaların təxirə salınması ilə bağlı yazılar | Sanksiyalaşdırılmamış aksiyalar zamanı polis zorakılığına məruz qalmış, saxlanılmış və ya inzibati cəza almış kütləvi aksiya iştirakçıları və ya təşkilatçıları ilə bağlı yazılar | Sərbəst toplaşma azadlığı ilə bağlı qanunvericiliyin müzakirəsi, beynəlxalq və yerli qurumlar tərəfindən qanunvericiliyin təkmilləşdirilməsi ilə bağlı verilən təkliflərlə bağlı yazılar və digər yazılar |
|---|---|---|---|---|---|
| **Azadlıq** | 59 | 27 | 13 | 6 | 13 |
| **525-ci qəzet** | 31 | 20 | 4 | 3 | 4 |
| **Zerkalo** | 9 | 6 | 0 | 3 | 0 |
| **cəmi** | **99** | **53** | **17** | **12** | **17** |

yasına, nə də ölkənin tərəfdar çıxdığı beynəlxalq normalara uyğun deyildir və bu normalar sərbəst toplaşma azadlığını nəinki təmin etmir, əksinə onun məhdudlaşdırılmasına xidmət edir. Qanunvericiliyin təkimlləşdirilməsi üçün həm ATƏT, həm də Avropa Şurasının Venesiya Komissiyası səy göstərir. Azadlıq qəzetinin 12.04.2007-ci il tarixli sayında qeyd olunmuşdur ki, *"Avropa Şurası Venesiya Komissiyasının ekspertləri Azərbaycana gəlib. Venesiya Komissiyasının ekspertləri ilə hökumət təmsilçiləri arasında Azərbaycanın Seçki Məcəlləsinə ediləcək dəyişikliklər və Sərbəst toplaşma azadlığı haqqında qanunla bağlı danışıqlara başlayıb".*

"Zerkalo" və "Azadlıq" qəzetləri 17.04.2007-ci il saylarında 16 aprel 2007-ci il tarixində "Dalğa" gənclər hərəkatının piket keçirməsindən yazılar vermişdir.

Siyasi təqibdən qaçaraq Azərbaycana gəlmiş İran vətəndaşı Hadı Musəvinin İrana deportasiya olunmasına etiraz etmək istəyən gənclər Daxili İşlər Nazirliyinin qarşısında piket keçirməyə cəhd göstərmiş, lakin polis aksiyanı zorakılıqla yatıraraq hərəkatın 8 nəfər üzvünü polis bölməsinə aparmış, 3 saat saxladıqdan sonra azad etmişdir.

Göründüyi kimi, hakimiyyət orqanları hətta az saylı piketlərin keçirilməsinin qarşısını da alırlar. Digər monitorinq alətlərinin tətbiqi, o cümlədən kütləvi aksiyaların müşahidəsi zamanı analoji hərəkətlər monitorinq qrupu tərəfindən də qeydə alınmışdır.

"Gündəlik Azərbaycan" və "Realnıy Azerbaydjan" qəzetlərinin baş redaktoru Eynulla Fətullayevin həbsinə etiraz əlaməti olaraq jurnalist təşkilatlarının və qəzet redaktorlarının piket və mitinqlər keçirmək cəhdlərinin qarşısı dəfələrlə alınmışdır. Analiz olunan mətbuat orqanları bu aksiyalara hazırlıq, onların keçirilməsinə cəhdlər, polis qüvvələrinin davranışları barədə çox saylı yazılar vermişdir. Həmin yazıları təhlil edərkən ölkədə sərbəst toplaşma azadlığının təmin olunma vəziyyəti tam çılpaqlığı ilə görünür.

Beləliklə, dövrü mətbuatda verilmiş yazıların ümumi təhlili belə bir qənaətə gəlməyə əsas vermişdir ki, ölkədə bu azadlığı təmin edən qanunvericilik kifayət qədər problemlidir və onun tətbiqi çox saylı qüsurlar yaradır. Nəticədə isə ölkədə fundamental azadlıqlardan olan sərbəst toplaşma azadlığı ciddi surətdə pozulur.

■

# MONİTORİNQ ÜZRƏ YEKUN NƏTİCƏLƏR

***Monitorinq çərçivəsində tətbiq olunmuş hər bir monitorinq aləti üzrə ayrı-ayrılıqda hesabatlar tərtib olunmuşdur. Hər bir hesabatda ölkədə sərbəst toplaşma azadlığının təmin olunma vəziyyətinə dair qənaətlər əks olunmuşdur. Aşağıda monitorinq çərçivəsində tətbiq olunmuş alətlər üzrə əldə edilmiş nəticələrə dair ümumi rəyi təqdim edirik.***

## Ölkədə sərbəst toplaşma azadlığını təmin edən normalar

Azərbaycan Respublikası Konstitusiyasının 49-cu maddəsinə görə *"hər kəsin başqaları ilə birlikdə sərbəst toplaşmaq azadlığı vardır"*. Ölkənin tərəfdar çıxdığı Mülki və Siyasi Hüquqlara dair Beynəlxalq Paktın 21-ci, İnsan Hüquqları və Əsas Azadlıqların Müdafiəsinə dair Avropa Konvensiyasının 11-ci maddələri də sərbəst toplaşma azadlığına təminat verir.

Azərbaycan Respublikası Konstitusiyasının 71-ci maddəsinin VI bəndinə görə *"Azərbaycan Respublikası ərazisində insan və vətəndaş hüquqları və azadlıqları birbaşa qüvvədədir"*.

Konstitusiyanın 49-cu maddəsində əks olunmuş sərbəst toplaşma azadlığının *"...həyata keçirilməsi və məhdudlaşdırılması..."* 13 noyabr 1998-ci il tarixində qəbul olunmuş və 4 mart 2005-ci ildə əlavə və dəyişikliklər edilmiş *"Sərbəst toplaşma haqqında"* Azərbaycan Respublikası Qanunu ilə müəyyən olunmuşdur.

Azərbaycan Respublikası Konstitusiyasının 149-cu maddəsinin III bəndinə əsasən *"Qanunlar Konstitusiyaya zidd olmamalıdır"*. Eyni zamanda Konstitusiyanın 151-ci maddəsinə görə *"Azərbaycan Respublikasının qanunvericilik sisteminə daxil olan normativ hüquqi aktlar ilə (Azərbaycan Respublikası Konstitusiyası və referendumla qəbul olunan aktlar istisna olmaqla) Azərbaycan Respublikasının tərəfdar çıxdığı dövlətlərarası müqavilələr arasında ziddiyyət yaranarsa, həmin beynəlxalq müqavilələr tətbiq edilir"*.

Beləliklə, ölkədə sərbəst toplaşma azadlığının həyata keçirilməsi üçün zəruri olan hüquqi əsaslar Konstitusiya və beynəlxalq normalar səviyyəsində təmin olunmuşdur.

Qeyd olunduğu kimi həm Konstitusiya, həm də Beynəlxalq normalar səviyyəsində əks olunmuş bu azadlıq heç bir digər norma ilə məhdudlaşdırıla bilməz. Məhdudiyytlər yalnız qanunla və demokratik cəmiyyətdə zəruri olan hallarda qoyula bilər.

Lakin "Sərbəst toplaşma azadlığı haqqında" Qanunun və sərbəst

toplaşma azadlığını həyata keçirilməsinə və ya məhdudlaşdırılmasına aidiyyatı olan digər normativ aktların analizi göstərir ki, bu fundamental azadlığın təmin olunması üçün qanunvericilik səviyyəsində ciddi əngəllər yaradılmışdır. Bu normaların tətbiqi praktikası zamanı sərbəst toplaşma azadlığının təmin olunmasına ciddi problemlər yaranır.

Normaların analizi nəticəsində əldə olunan əsas qənaətlər aşağıdakılardır:

☑ "Sərbəst toplaşma azadlığı haqqında" Azərbaycan Respublikası Qanunu (13 noyabr 1998-ci il tarixində qəbul olunub və 4 mart 2005-ci il tarixində əlavə və dəyişikliklər edilib) və bu qanunun təmin olunması ilə bağlı müvafiq icra hakimiyyəti orqanlarının qəbul etdiyi sərəncamlar, Azərbaycan Respublikası Konstitusiyasının 49-cu, ölkənin tərəfdar çıxdığı Mülki və Siyasi Hüquqlara dair Beynəlxalq Paktın 21-ci, İnsan Hüquqları və Əsas Azadlıqların Müdafiəsinə dair Avropa Konvensiyasının 11-ci maddələrində nəzərdə tutulan toplaşma azadlığı hüququnu məhdudlaşdırır.

☑ Qanun toplantının məhdudlaşdırılması, dayandırılması və qadağan olunması üçün qərar verən orqanlar qarşısında məhdudlaşdırma, dayandırma və qadağa üçün əsaslandırılmış səbəblərin göstərilməsini ciddi şəkildə qoymur. Müvafiq icra hakimiyyəti orqanları toplantıya məhdudiyyət qoymaq, dayandırmaq və onun keçirilməsini qadağan etmək (razılıq verməmək, yaxud sanksiyalaşdırmamaq) üçün qərar qəbul edərkən onu əsaslandırmır və bu zaman qanun onların üzərinə heç bir sübut yükü və ciddi məsuliyyət qoymur. Qanunun mahiyyətinə görə, prezumpsiya toplantını keçirməyin deyil, onu qadağan etməyin tərəfindədir.

☑ Qanunda məhdudiyyətlər və qadağalar istisna hal kimi deyil əsas qayda kimi tətbiq olunur.

☑ Qanunda toplantı azadlığının məhdudlaşdırılması, o cümlədən toplantıların dayandırılması, dağıdılması, qadağan edilməsi ilə bağlı olan müddəaların bir çoxu Beynəlxalq Normalarda əks olunan "qanunda nəzərdə tutulmuş və demokratik cəmiyyətdə zəruri olan" həddi aşır. Məhdudiyyətlərin və qadağaların tətbiqinə dair müddəalar əksəriyyət hallarda "proporsionallıq" prinsipini pozur.

☑ Qanunun əksəriyyət müddəaları konkret deyildir və abstraktdır. Bu isə məmur özbaşınalığına və müddəalardan sui-istifadəyə şərait yaradır.

☑ Qanunun 5-ci maddəsinin IV hissəsində əks olunan təsadüfü toplantı anlayışına geniş açıqlama verilmir. Qanunda olan müddəalar imkan verir ki, istənilən təsadüfi toplantı, yaxud spontan şəkildə baş verən hər hansı toplantı qanunsuz toplantı kimi təsnif olunsun. İndiyədək praktikada baş verən bu tipli bütün yığıncaqlar hakimiyyət strukturları tərəfindən zorakı yolla dağıdılmış, iştirakçılar və təşkilatçılar məsuliyyətə cəlb olunmuşdur.

☑ Qanunun 5-ci maddəsində nəzərdə tutulan toplantının keçirilməsi üçün nəzərdə tutulan yazılı xəbərdarlığa dair tələblər həddən artıq çoxdur. Xəbərdarlıq məktubuna daxil edilməsi tələb olunan məlumatlarının bir çoxu toplantının hakimiyyət orqanları tərəfindən reqlamentləşdirilməsi üçün əsas yaradır.

☑ Qanunun 8-ci maddəsinin III hissəsinin 3-cü bəndi ölkə Konstitusiyasına və ölkənin tərəfdar çıxdığı beynəlxalq normaların müvafiq müddəalarına ziddir. Bu bənddə əks olunan müddəa hakimiyyət orqanlarına toplantıları əsassız qadağan etməyə imkan verir. Həmin bənddə göstərilən *"müvafiq icra hakimiyyəti orqanının qərarı ilə müəyyən edilmiş mühüm dövlət əhəmiyyətli beynəlxalq tədbirə hazırlıq dövründə və onun keçirildiyi günlərdə həmin tədbirin keçirildiyi şəhər və rayonların ərazisində"* toplantının qadağan edilməsi proporsionallıq prinsipini pozmaqla yanaşı sağlam məntiq ilə də ziddiyyət təşkil edir. Sahəsi bir neçə min kvadrat kilometrə çatan paytaxt Bakıda "mühüm dövlət əhəmiyyətli beynəlxalq tədbirin" keçirildiyi ərazidən 30-40 və daha çox kilometr məsafədə hər hansı toplantının (hətta piketin) keçirilməsinə qanunvericiliklə qadağa qoyulması absurddur.

☑ Qanunun 9-cu maddəsinin III hissəsində toplantıların keçiriləcəyi yerlərə qoyulan məhdudiyyətlər sərbəst toplaşma azadlığının əsassız məhdudlaşdırılmasıdır. III hissəsənin 1-ci bəndində əks olunan *"Azərbaycan Respublikasının qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarının yerləşdiyi binaların ətrafında 300 metr radius çərçivəsində"* toplantıların keçirilməsinin qadağan edilməsi müddəası bir çox hallarda ümumiyyətlə toplantının mahiyyətini heçə endirir. Bu müddəanın tətbiqi paytaxt Bakı şəhərinin mərkəzi hissəsində hər hansı toplantının keçirilməsinə imkan vermir.

☑ Qanunun 9-cu maddəsinin VIII bəndində toplantının keçirilmə vaxtlarına dair müddəa verilmişdir. Həmin müddəya görə *"Toplantı yay vaxtının tətbiqi dövründə saat 8-00-dan 19-00-dək, ilin digər dövründə isə saat 9-00-dan 17-00-dək keçirilə bilər. Keçirilən hər bir toplantının vaxtı müvafiq icra hakimiyyəti orqanı ilə razılaşdırılmalıdır".*

Müddəadan belə görünür ki, hətta Qanunda göstərilən müddətlərdə belə toplantı keçirilərkən mütləq bu müvafiq icra hakimiyyəti ilə razılaşdırılmalıdır. Göründüyi kimi Qanunun həm də bu müddəası göstərir ki, ölkədə sərbəst toplaşma azadlığı Konstitusiyada əks olunduğu kimi xəbərdarlıq etməklə yox, yalnız razılaşmaqla, yəni icazə almaqla keçirilə bilər. Eyni zamanda toplantıların keçirilməsinə vaxt məhdudiyyətinin qoyulması sərbəst toplaşma azadlığını pozur.

Bu qanun permanent xarakterli toplantıların keçirilməsinə qadağa qoyur. Yəni göstərilən vaxt çərçivəsi başa çatdıqdan sonra istənilən dinc toplantı qanunsuz hesab olunur. Ölkə praktikasında vaxtın bir neçə dəqiqə ötməsinə görə tam dinc mitinqin

xüsusi zorakılıq və qəddarlıqla dağıdılması halları vardır.

☑ Qanunun 10-cu maddəsində göstərilir ki, toplantının keçirilməsi haqqında xəbərdarlıqla bağlı müvafiq icra hakimiyyəti orqanının qərarı toplantıya ən azı iki gün qalmış yazılı şəkildə toplantı təşkilatçılarına çatdırılmalıdır. Qanunun 11-ci maddəsində isə göstərilir ki, *"Bu qanunun 7-9-cu maddələrində nəzərdə tutulmuş bütün qərarlardan müvafiq məhkəməyə şikayət verilə bilər. Şikayət məhkəmə tərəfindən 3 gün müddətində baxılmalıdır".* Bu müddəa praktikada ciddi qüsurlar yaradır. Belə ki, müvafiq icra hakimiyyəti orqanları toplantının keçirilməsi ilə bağlı verilən bütün xəbərdarlıqla bağlı qəbul etdiyi qərarları təşkilatçılara ən yaxşı halda toplantının keçirilməsinə iki gün qalmış təqdim edirlər. Belə olan halda təşkilatçıların məhkəməyə müraciəti effektini itirir. Məhkəməyə təqdim olunmuş şikayətə məhkəmə orqanı hətta qanunda müəyyən olunmuş müddət çərçivəsində baxdıqda belə artıq bu toplantının təyin olunduğu vaxtdan sonra baş verir. Beləliklə, "effektiv hüquqi müdafiə vasitələrindən istifadə hüququ" (The Right to an effective remedy) pozulur.

☑ Qanunun 12-ci maddəsinin VIII hissəsində göstərilir ki, *"Toplantının təhlükəsizliyini təmin etmək dövlətin vəzifəsidir. Lakin toplantının təşkilatçıları dövlət tərəfindən təmin olunan təhlükəsizlik tələbləri hüdudlarından çıxan toplantının təhlükəsizliyinin təmin edilməsi məqsədi ilə əvəzi ödənilmək şərti ilə əlavə polis qüvvələrinin cəlb olunması barədə müraciət edə bilərlər".*

Qanunun bu müddəası İnsan Hüquqlarına dair Avropa Konvensiyasının 11-ci maddəsinə ziddir. Bu müddəa eyni zamanda ölkə Konstitusiyasına da ziddir. Toplantının təhlükəsizliyini təmin etmək dövlətin pozitiv öhdəliyidir və bu baxımdan bütün hallarda dövlət öz vəzifəsini yerinə yetirməlidir. Müddəadakı "təhlükəsizlik tələbləri hüdudları" ifadəsi abstraktdır. Təhlükəsizliyin təmin olunan həddinin müəyyən olunmasının konkret indikatorları və ölçü vahidləri yoxdur və ola da bilməz. Gözlənilən təhlükənin həddi hakimiyyət tərəfindən əvvəlcədən qiymətləndirilməli və adekvat təhlükəsizlik tədbirləri görülməlidir.

☑ Qanunun 13-cü maddəsinin V hissəsində göstərilir ki, *"Qanuni toplantı iştirakçısı həmin toplantıda iştirak etməsinə görə sonradan hüquqi məsuliyyətə cəlb edilə bilməz. Yalnız hüquq pozuntusuna yol vermiş qanuni toplantının iştirakçıları hüquqi məsuliyyətə cəlb edilə bilər".*

Həm Qanunun müddəalarına görə, həm də təşəkkül tapmış qüsurlu praktikaya əsasən demək mümkündür ki, müvafiq icra hakimiyyətinin razılığı olmadan keçirilən bütün toplantıları hakimiyyət qanunsuz sayır və bu baxımdan hətta dinc xarakter daşıyan toplantının iştirakçılarının da hüquqi məsuliyyətə cəlb edilməsi halları olduqca çoxdur. İstənilən halda toplantıda iştirak edən şəxs hər hansı qanunsuz hərəkətlərə

yol verməyibsə onun məsuliyyətə cəlb edilməsi yol verilməzdir.

☑ Qanunun 14-cü maddəsinin I hissəsinin 3-cü bəndinində polisin səlahiyyətləri sırasına *"yazılı xəbərdarlıqda göstərilən şərtlərə uyğun keçirilməyən toplantını zəruri hallarda dayandırmaq"* səlahiyyəti də daxil edilmişdir. Bu müddəa praktikada ciddi problemlər yaradır. Polisin dəfələrlə bu müddəadan sui-istifadə etmə halları qeydə alınmışdır.

☑ Ölkə Prezidentinin fərmanı ilə paytaxt Bakının ən böyük meydanı olan "Azadlıq" meydanında toplantıların keçirilməsi qadağan olunmuşdur. Fərmana görə bu meydanda yalnız mühüm əhəmiyyətli dövlət tədbirləri keçirilə bilər. Ənənəvi olaraq toplantıların keçirildiyi bu meydan bütün göstəricilərinə görə kütləvi tədbirlərin keçirilməsi üçün əlverişli olduğu halda orada toplantı keçirilməsinə qadağanın qoyulması toplantı azadlığının məhdudlaşdırılmasıdır. Prezidentin fərmanı ölkə Konstitusiyasına və ölkənin tərəfdar çıxdığı müvafiq beynəlxalq normalara ziddir.

## Sosioloji sorğunun nəticələri

Monitorinq çərçivəsində tətbiq olunan alətlərdən bir də siyasi partiya və ictimai təşkilatların fəalları arasında keçirilmiş sosioloji sorğunun keçirilməsi olmuşdur. Həyata keçirilən sorğuların nəticələri ümumiləşdirilərək aşağıdakı qənaətlər əldə edilmişdir.

☑ Toplantılarda bir qayda olaraq əhalinin siyasi baxımdan fəal olan hissəsi iştirak edir. Bu insanlar əsasən müxalifət partiyalarında təmsil olunan fəallardır.

☑ Hətta sanksiyalaşdırılan toplantılarda iştirak edənlərin bir çoxu sonradan iş yerlərində, təhsil aldıqları tədris müəssisələrində təqiblərlə üzləşirlər. Kommersiya fəaliyyəti ilə məşğul olan sahibkarlar sonradan müxtəlif dövlət orqanlarının təzyiqlərinə məruz qalırlar. Odur ki, siyasi fəal olmayan insanların bir çoxu toplantılarda iştirakdan çəkinirlər.

☑ Sorğularda iştirak edənlərin əksəriyyəti, o cümlədən toplantı təşkilatçıları həm toplantılara hazırlıq, həm də onun keçirilməsi dövründə hakimiyyət tərəfindən çoxsaylı problemlərin yaradıldığını bildirirlər.

☑ Toplantılarda sistematik olaraq iştirak edən respondentlərin əksəriyyəti həm polis zorakılığı ilə üzləşdiklərini, həm inzibati və ya cinayət cəzalarına məruz qalmalarını bildirirlər.

☑ Sorğularda iştirak edənlərin əksəriyyəti qarşılaşdıqları zorakılıqlarla və onlara tətbiq olunan cəzalarla bağlı dövlət qurumlarına şikayətlərin mənasız olması qənaətindədirlər. Toplantı keçirməyə cəhd edənlərə qarşı zorakılığın və cəzaların tətbiqinin əsas məqsədi bütövlikdə ölkədə sərbəst toplaşma azadlığı hüququnun məhdudlaşdırılması, insanlarda toplantıya gəlməyin təhlükəli olması qənaətinin yaradılması və beləliklə hakimiyyətə qarşı hər hansı kütləvi etirazın qarşısının alınmasıdır.

## Sərbəst toplaşma azadlığının təmin edən normaların tətbiqi

Sərbəst toplaşma azadlığı haqqında qanunda və digər müvafiq normativ aktlarda olan ciddi qüsurlar və boşluqlar, bu normaların tətbiqi praktikasında daha ciddi problemlər ortaya çıxarır.

Monitorinq çərçivəsində tətbiq olunan alətlərdən biri də siyasi partiya, ictimai təşkilat və ya fərdlər qrupunun sərbəst toplaşma azadlığını həyata keçirmək məqsədi ilə müvafiq icra hakimiyyəti orqanlarına göndərdikləri yazılı xəbərdarlıq və bu xəbərdarlıqla əlaqədar müvafiq icra hakimiyyəti orqanlarının təşkilatçılara verdikləri cavabların analizi olmuşdur.

70-dən artıq xəbərdarlıq məktubu və ona verilən cavablar analiz olunmuşdur.

Məhz bu analiz ölkədə sərbəst toplaşma azadlığına dair qanunvericiliyin necə tətbiq olunduğunu aşkar şəkildə nümayiş etdirmişdir.

Ən çox ölkənin paytaxtı Bakı şəhərinin hakimiyyət orqanlarına göndərilən xəbərdarlıq məktubları və onlara verilən cavablar tədqiq olunmuşdur.

☑ Bütün cavablar birmənalı olaraq onu göstərir ki, hakimiyyət orqanları Sərbəst toplaşma azadlığı haqqında Qanunun 5-ci maddəsində əks olunan *"…müvafiq icra hakimiyyəti orqanı qabaqcadan xəbərdar etməlidirlər"* müddəasını "müvafiq icra hakimiyyəti orqanından qabaqcadan icazə almalıdırlar" kimi qəbul edirlər. Bütün cavab məktublarında ya toplantının keçirilməsinə razılıq verilir, yaxud onun keçirilməsinə icazə verilmədiyi bildirilir (əksəriyyət hallarda *"məqsədəuyğun hesab edilmir"* ifadəsindən istifadə olunur.

☑ Sərbəst toplaşma azadlığı haqqında Qanunda əks olunmuş məhdudiyyətlər və qadağalar verən hüquqlardan sus-istifadə edirlər və bu zaman proporsionallıq prinsipini kobud surətdə pozurlar. Verilən bir qisim cavablarda *"nəqliyyatın intensiv olduğu", "yaşayış binalarının yaxınlığında yerləşir və əhalinin istirahət hüququ pozulur", "əhalinin gediş-gəlişinin sıx olduğu yer olduğu üçün"* və s. kimi səbəblər əsas götürülür və Qanunun 7-ci maddəsinin I bölməsinin 6-cı bəndində göstərilən müddəaya (başqa şəxslərin hüquq və azadlıqlarının müdafiəsi üçün) istinad edərək toplantının keçirilməsinə qadağa qoyurlar.

☑ Bir çox cavab məktublarında Qanunun 7 -ci maddəsinin I hissəsinin 1-cı bəndində göstərilən müddəaya (ictimai və dövlət təhlükəsizliyi mənafelərinin qorunması üçün) istinad edilərək toplantının keçirilməsinə qadağa qoyulur. Belə cavab verilərkən toplantının keçiriləcəyi halda ictimai və dövlət təhlükəsizliyi mənafelərinə hansı təhlükənin olduğu heç bir halda əsaslandırılmır. Ümumiyyətlə, bütün tədqiq olunan məktublarda toplantıya qadağa qoymaq üçün qanuna istinadalar qüsurludur.

☑ Bəzi qadağalar Qanunun 8-ci maddəsinin III hissəsinin 3-cü bəndinə istinad edilməklə tətbiq edilir.

Bu müddəya görə hakimiyyət *"müvafiq icra hakimiyyəti orqanının qərarı ilə müəyyən edilmiş mühüm dövlət əhəmiyyətli beynəlxalq tədbirə hazırlıq dövründə və onun keçirildiyi günlərdə həmin tədbirin keçirildiyi şəhər və rayonun ərazisində"* toplantıların keçirilməsini qadağan edir. Müvafiq hakimiyyət orqanı *"mühüm dövlət əhəmiyyətli beynəlxalq tədbir"* anlayışını istədikləri kimi istifadə edirlər. Məsələn, bir neçə ölkənin rəsmi nümayəndələrinin iştirakı ilə keçiriləcək konfrans mühüm dövlət əhəmiyyətli beynəlxalq tədbir kimi təsnif olunur və bu konfrans ərəfəsində və onun keçirildiyi dövrdə toplantılar qadağan edilir.

☑ Bir qrup cavab məktublarında ümumiyyətlə qadağa qanuna istinad edilməklə deyil, absurd bəhanələrə istinad edilməklə qoyulur. Məsələn: Tanınmış jurnalistin qətlinə etiraz etmək istəyənlərə cavab: *"bu məsələni dövlət və hakimiyyət orqanları ilə dialoq yolu ilə həll etmək lazımdır və yürüş-mitinq keçirilməsinə lüzum yoxdur"*, koorrupsiyaya etiraz etmək üçün toplantı keçirmək istəyənlərə cavab: *"Prezident İlham Əliyev xalqın sosial vəziyyətinin yaxşılaşdırılması üçün var gücü ilə çalışır, neft gəlirlərin ildən ilə artır, hökumət korrupsiya ilə mübarizə aparır, prokurorluq yanında antikorrupsiya strukturları yaradılır …odur ki, toplantı keçirməyə heç bir lüzum yoxdur"*, söz azadlığının məhdudlaşdırılmasına etiraz etmək məqsədi ilə piket keçirmək istəyənlərə cavab: *"…hesab edirik ki, bu məsələ ilə əlaqədar aksiya keçirmək deyil, sivil qaydada mövqeyinizi bildirmək daha faydalı olardı"* və s. Bu tipli qadağalar tətbiq olunarkən ümumiyyətlə Qanuna istinad edilmir.

☑ Bakı şəhərində və digər şəhər və rayonlarda təşəkkül tapmış praktikaya görə toplantı keçirilməsi üçün verilən xəbərdarlıqla bağlı səlahiyyətli orqanlar hər hansı qərar qəbul etmirlər. Mövcud praktika bundan ibarətdir ki, yerli icra hakimiyyəti orqanlarında mövcud olan İctimai təşkilatlar və siyasi partiyalarla iş şöbəsinin müdirinin imzası ilə təyin olunmuş toplantıya bir gün qalmış təşkilatçılara məktub təqdim olunur. Toplantının qadağan olunması ilə bağlı şöbə müdirinin məktubunu şəhər və rayon polis idarələri əsas sənəd kimi qəbul edərək toplantının keçirilməsinə imkan vermirlər. İcra hakimiyyətlərinin şöbələrindən birinin toplantılarla bağlı qərar qəbul etməsi ciddi Konstitusion pozuntudur.

☑ Hakimiyyət orqanları tərəfindən sanksiyalaşdırılmamış toplantılar müstəsna dinc xarakter daşısa belə bir qayda olaraq belə toplantılar xüsusi qəddarlıqla dağıdılır, təşkilatçılara və iştirakçılara qarşı fiziki zor tətbiq edilməklə yanaşı, onlara qarşı inzibati, bəzən isə cinayət cəzası da tətbiq olunur. Belə toplantıları dağıdarkən hər hansı müqavimət isə kütləvi iğtişaş kimi qiymətləndirilir. Kütləvi iğtişaş ölkənin cinayət qanunvericiliyində *"ictimai təhlükəsizlik əleyhinə olan cinayətlər"* kateqoriyasına aid edilir və onun sanksiya-

sında 12 ilədək azadlıqdan məhrumetmə cəzası nəzərdə tutulur.

☑ Toplantılarda iştirak edənlərə və təşkilatçılara qarşı inzibati və cinayət məsuliyəti bir qayda olaraq adekvat olmayan şəkildə tətbiq olunur.

### Strukturlaşmamış intervülər

Layihə çərçivəsində tətbiq olunan monitorinq alətlərindən biri də **kütləvi aksiyaların hakimiyyət orqanları tərəfindən dağıdılması zamanı fiziki zorakılığa məruz qalmış və məsuliyyətə cəlb edilmiş şəxslərlə strukturlaşmamış intervülər** olmuşdur.

İntervülərə əsasən əldə edilən nəticələr aşağıdakılardır:

☑ Polis qüvvələri dinc, lakin müvafiq icra hakimiyyəti tərəfindən "sanksiyalaşdırılmamış" bütün toplantılar zamanı xüsusi qəddarlıq nümayiş etdirirlər. Yalnız bir neçə toplantı zamanı (əsasən jurnalistlərin təşkil etdiyi piketlərdə) polis nisbətən loyal olmuş, iştirakçılara qarşı zor tətbiq etmədən onları sıxışdırıb toplantı yerindən uzaqlaşdırmaqla kifayətlənmişlər;

☑ Toplantı iştirakçılarına qarşı xüsusi amansızlığın və cəzaların tətbiqinin məqsədi təkcə toplantını dağıtmaq deyil, həmçinin toplantı təşkilatçılarına, iştirakçılara fiziki və psixoloji iztirab vermək və onları gələcəkdə belə toplantılar keçirməkdən çəkindirməkdir. Bu cür qəddarlıq, həmçinin ətrafdakılarda qorxu hissi yaratmaq və beləliklə toplantı iştirakçılarının dairəsini məhdudlaşdırmaqdır.

☑ Toplantının dağıdılması zamanı qeyri-standart alətlərdən istifadə olunur və zərbələr insanın fiziki bütövlüyünə xələl gətirəcək orqanlara endirilir (kəllə, sifət, qarın və bel nahiyəsi, çənə sümüyü və s.).

☑ İri toplantılar qəddarlıqla dağıdılarkən yaxınlıqda olan tibb məntəqələrinə və təcili yardım stansiyalarına xəsarət alan iştirakçılara tibbi yardımların göstərilməməsi məqsədi ilə xüsusi tapşırıqlar verilir. İntervüyə cəlb olunanların bir qismi qeyd edir ki, onlar xəstəxana və poliklinikalara müraciət edərkən onlara tibbi yardım göstərilməmişdir.

☑ İnzibati qaydada həbsə alınmış şəxslərə tibbi yardım göstərilmir.

☑ İnzibati qaydada həbs olunanların bir çoxu məhkəmədə iştiraka gətirilmir. Onlar əvvəlcə inzibati qaydada həbs edilir, bir müddətdən sonra saxlanma yerinin adminstrasiyası onlara hansı müddətdə həbs olunmaları barədə məlumat verir.

### Toplantıların müşahidə olunması

Monitorinq qrupunun toplantı zamanı apardığı müşahidələr digər alətlərin tətbiqi nəticəsində əldə edilən nəticələrin bir çoxunu təsdiq etmişdir.

Müvafiq hakimiyyət orqanları tərəfindən sanksiyalaşdırılmış toplantılar zamanı da polis və asayışi təmin edən digər qüvvələr toplantıya

mane olmaq üçün planlı şəkildə tədbirlər həyata keçirirlər. Belə tədbirlər içərisində regionlardan toplantıya iştirakçıları gətirən avtobusların saxlanılaraq geri qaytarılması, toplantının keçiriləcəyi əraziyə avtomobillərin buraxılmaması, iştirakçıların əllərində olan bəzi şüarların və ya onların dəstəklərinin (adətən taxta materiallardan ibarət olan predmetlərin) müsadirə olunması, toplantıya qanunsuz müdaxilələr, toplantıya gələnlərin təhqir olunması və s. Hakimiyyətin razılığı ilə keçirilən belə toplantını müşahidə edərkən polisin əsl məqsədinin toplantının təhlükəsizliyinin təmin edilməsi yox, toplantı iştirakçılarının sayının az olması istiqamətində səy göstərməsi aşkar görünürdü.

Hakimiyyətin razılığı olmadan (sanksiyalaşdırmadığı) toplantıda isə, hətta iştirakçıların sayı 30-35 nəfər olduğu halda və onlar heç kəsə mane olmadıqları halda, qeyri-adekvat qüvvə tətbiq etməklə onun dərhal dağıdılması, dinc iştirakçılara qarşı təhqiramiz hərəkətlər və onların döyülməsi halları qeyd olunur.

Müşahidə edilən toplantılarda təşkilatçıların və iştirakçıların hərəkətlərində heç bir aqressivlik müşahidə olunmasa da, asayişi təmin edənlər aqressiv və hər an qüvvə tətbiq etməklə toplantını dağıtmağa hazır olmalarını nümayiş etdirirdilər.

Toplantıların müşahidəsi belə qənaətə gəlməyə imkan verir ki, hakimiyyət hər hansı kütləvi etirazlara qarşı dözümsüzdür.

## Mətbuat səhifələrində Sərbəst toplaşma azadlığına dair yazıların analizi

Bu alət əsas monitorinq vasitəsi kimi qəbul olunmasa da, digər alətlər üzrə əldə olunan nəticələrin ümumiləşdirilməsində və hadisələrin qiymətləndirilməsində yardımçı rol oynamışdır.

Üç ay ərzində ölkənin üç aparıcı gündəlik qəzetində sərbəst toplaşma azadlığının təmin olunması, onun qarşısının alınması, müvafiq qanunvericilik aktlarının təkmilləşdirilməsi ilə bağlı yazılar təhlil olunmuşdur. Mətbuatın analizi ilə bağlı əldə edilən nəticələr də digər monitorinq alətləri vasitəsi ilə əldə edilən nəticələrlə üst-üstə düşmüşdür.

Mətbuatın analizi nəticəsində aşağıdakı qənaətlər əldə edilmişdir:

☑ Mətbuatda əsasən sərbəst toplaşma azadlığı ilə bağlı hər hansı hadisə ərəfəsində və ya ondan sonra yazılar yer alır. Bu yazılar əsasən müvafiq icra hakimiyyəti orqanları tərəfindən kütləvi aksiyaların qadağan edilməsi və ya aksiyaların təxirə salınması ilə bağlı yazılar, sanksiyalaşdırılmamış aksiyalar zamanı polis zorakılığına məruz qalmış, saxlanılmış və ya inzibati cəza almış kütləvi aksiya iştirakçıları və ya təşkilatçıları ilə bağlı yazılar və Sərbəst toplaşma azadlığı ilə bağlı qanunvericiliyin müzakirəsi, beynəlxalq və yerli qurumlar tərəfindən qanunvericiliyin təkmilləşdirilməsi ilə bağlı verilən təkliflərlə bağlı yazılar və sərbəst toplaşma azadlığına həsr olunmuş yazılar olmuşdur.

☑ Yazıların əksəriyyəti toplantı iştirakçılarına və təşkilatçılarına qarşı həyata keçirilən polis zorakılığı və ya toplantı iştirakçılarına inzibati cəzaların tətbiqi ilə bağlı olur. Mətbuatın analizinin həyata keçirildiyi dövrdə yalnız şəhərdən kənarda bir neçə toplantının keçirilməsi şəhər icra hakimiyyəti ilə razılaşdırılmışdır. Digər bütün aksiyalar qadağan olunmuş, bu səbəbdən ya təşkilatçılar onun keçirilməsindən imtina etmiş, yaxud toplantını keçirməyə cəhd etsələr də polis müdaxiləsi nəticəsində bu cəhdlər baş tutmamışdır;

☑ Ölkədə və beynəlxalq təşkilatlarda sərbəst toplaşma azadlığının təmin olunması üçün qanunvericiliyin təkmilləşdirilməsi və praktikada olan qüsurların aradan qaldırılması istiqamətində səylər artmaqdadır. Bununla bağlı mətbuatda ATƏT, Avropa Şurası və s. beynəlxalq qurumların qanunvericiliyin təkmilləşdirilməsi ilə bağlı hökumətlə apardıqları danışıqlar, görüşlər barədə yazılar da yer almışdır.

■

# TÖVSİYYƏLƏR

**Qanunvericiliyin təkmilləşdirilməsi ilə bağlı tövsiyyələr**

☑ Azərbaycan Respublikası Konstitusiyasının 49-cu maddəsində əks olunan sərbəst toplaşma azadlığının həyata keçirilməsi və məhdudlaşdırılması qaydalarını müəyyən edən 13 noyabr 1998-ci il tarixində qəbul olunmuş "Sərbəst toplaşma azadlığı haqqında" Azərbaycan Respublikası Qanunu ciddi şəkildə dəyişdirilməlidir. Qanun mahiyyət etibarı ilə toplantıların həyata keçirilməsini tənzimləməlidir. Hazırkı mətndə Qanun toplantıların qadağan edilməsi və onun dağıdılması üçün müvafiq strukturlar üçün təlimat rolunu oynayır.

☑ Qanunda toplantının məhdudlaşdırılması, dayandırılması və qadağan olunması üçün qərar verən orqanlar qarşısında məhdudlaşdırma, dayandırma və qadağa üçün əsaslandırılmış səbəblərin göstərilməsi üçün ciddi tələblər qoyulmalıdır. Qərar verən orqan toplantıya məhdudiyyət qoymaq, dayandırmaq və onun keçirilməsini qadağan etmək üçün ciddi əsaslar göstərməlidir. Qanunda toplantı keçirməklə bağlı qərar səlahiyyətli orqan və vəzifləli şəxs tərəfindən verilməsi və imzalanması barədə tələb daxil edilməlidir.

☑ Qanuna təsadüfü toplantıların, spontan toplantıların, əks mitinqlərin (əks yürüşlərin və s.) keçirilmə qaydaları və onun məhdudlaşdırılması, qadağan edilməsi, dayandırılması və dağıdılması qaydaları və halları ilə bağlı konkret müddəalar daxil edilməlidir.

☑ Yazılı xəbərdarlığın verilməsi və xəbərdarlıq məktubuna dair tələblər sadələşdirilməlidir. Xəbərdarlıq məktubuna daxil edilməsi tələb olunan məlumatlarının bir çoxu lüzumsuz olduğu üçün Qanundan çıxarılmalıdır.

☑ Qanunvericilikdə kütləvi aksiyanın qadağan olunması üçün səlahiyyət icra hakimiyyəti orqanlarına deyil, məhkəmələrə verilməlidir. Kütləvi aksiyanın keçirilməsi ilə əlaqədar xəbərdarlıq almış müvafiq icra hakimiyyəti orqanı aksiyanın keçirilməsinin qadağan edilməsi üçün məhkəməyə müraciət etməli, qadağa yalnız məhkəmənin əsaslandırılmış qərarı ilə tətbiq edilməlidir. Yaxud:

☑ Xəbərdarlığın verilməsi və xəbərdarlıqla əlaqədar müvafiq icra hakimiyyəti orqanınının qəbul etdiyi qərarın toplantı təşkilatçılarına çatdırılması qaydalarında dəyişiklik edilməlidir. Təşkilatçılar xəbərdarlığı planlaşdırılan toplantının keçirilməsinə ən

geci 10 gün qalmış təqdim etməlidirlər. İcra hakimiyyəti toplantının keçirilməsminə ən geci 5 gün qalmış toplantının qadağan olunmasına dair yazılı xəbərdarlıq verməlidir. Bu hal toplantı təşkilatçılarına vaxtında məhkəməyə müraciət etmək imkanı verər və nəticədə hüquqi vasitələrdən effektiv istifadə hüququ təmin olunar.

☑ Qanunun 8-ci maddəsinin III hissəsinin 3-cü bəndində əks olunmuş müvafiq icra hakimiyyəti orqanının qərarı ilə müəyyən edilmiş mühüm dövlət əhəmiyyətli beynəlxalq tədbirə hazırlıq dövründə və onun keçirildiyi günlərdə həmin tədbirin keçirildiyi şəhər və rayonların ərazisində toplantının qadağan edilməsinə dair müddəa Konstitusiyaya və ölkənin tərəfdar çıxdığı müvafiq beynəlxalq normalara zidd olduğu üçün Qanundan çıxarılmalıdır.

☑ Azərbaycan Respublikasının qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarının yerləşdiyi binaların ətrafında 300 metr radius çərçivəsində toplantıların keçirilməsinin qadağan edilməsinə dair müddəa sərbəst toplaşma azadlığının əsassız məhdudlaşdırılmasına şərait yaratdığı üçün və şəhərin mərkəzi hissəsində toplantıların keçirilməsini mümkünsüz etdiyi üçün Qanundan çıxarılmalıdır.

☑ Qanunun 9-cu maddəsinin VIII bəndində əks olunan toplantının keçirilmə vaxtlarına dair məhdudiyyət Qanundan çıxarılmalıdır.

☑ Şikayət proseduraсı elə müəyyən olunmalıdır ki, məhkəmə tərəfindən qadağaya dair müvafiq icra hakimiyyəti orqanının qərarı ləğv edildikdə toplantı təyin olunmuş vaxtda keçirilə bilsin.

☑ Qanunun 12-ci maddəsinin VIII hissəsində göstərilən "toplantının təhlükəsizliyini təmin etmək dövlətin vəzifəsidir. Lakin toplantının təşkilatçıları dövlət tərəfindən təmin olunan təhlükəsizlik tələbləri hüdudlarından çıxan toplantının təhlükəsizliyinin təmin edilməsi məqsədi ilə əvəzi ödənilmək şərti ilə əlavə polis qüvvələrinin cəlb olunması barədə müraciət edə bilərlər" müddəası Qanundan çıxarılmalıdır.

☑ Qanunun 13-cü maddəsinin V hissəsində göstərilən Qanuni "toplantı iştirakçısı həmin toplantıda iştirak etməsinə görə sonradan hüquqi məsuliyyətə cəlb edilə bilməz. Yalnız hüquq pozuntusuna yol vermiş qanuni toplantının iştirakçıları hüquqi məsuliyyətə cəlb edilə bilər" müddəası Qanundan çıxarılmalıdır. İstənilən toplantıda (sanksiyalaşdırılan və sanksiyalaşdırılmayan) iştirak edən şəxs qanuna zidd hərəkətlərə yol verməyibsə hər hansı cəzaya məruz qalmamalıdır.

☑ Yazılı xəbərdarlıqda göstərilən şərtlərə uyğun keçirilməyən toplantını zəruri hallarda dayandırmaqla bağlı Qanunun 14-cü maddəsinin I hissəsinin 3-cü bəndinində polisə verilmiş səlahiyyət praktikada sərbəst toplaşma azadlığının pozulması hallarına gətirdiyi üçün ləğv edilməlidir.

☑ Qanunda Piketlər və kiçik saylı toplantıların keçirilməsi üçün

xəbərdarlıq prosedurası nəzərdə tutulmamalıdır.

☑ Toplantı yerlərinin müvafiq icra hakimiyyətləri tərəfindən müəyyənləşdirilməsinə dair müddəa ya ləğv edilməli, yaxud elə konkretləşdirilməlidir ki, burada toplaşma azadlığı hüququnun məhdudlaşdırılmasına yer qalmasın. Toplantıların həm şəhərin mərkəzi, həm də ətraf hissələrində keçirilməsinə imkan yaradılmalıdır.

☑ Qanun toplantı iştirakçısı anlayışını daha dəqiq müəyyən etməlidir.

☑ Cinayət və İnzibati Xətalar məcəllələrində sərbəst toplaşma azadlığının qarşısını qanunsuz almağa görə vəzifəli şəxsləri üçün inzibati və cinayət məsuliyyəti nəzərdə tutulmalıdır.

☑ Paytaxt Bakının ən böyük meydanı olan "Azadlıq" meydanında toplantıların keçirilməsinin qadağan olunmasına dair Prezidentin fərmanı ləğv edilməlidir.

## Qanunvericiliyin tətbiqi praktikasının təkmilləşdirilməsi ilə bağlı tövsiyyələr

☑ Toplantıların keçirilməsi üçün xəbərdarlıqların daxil olduğu əksəriyyət yerli icra hakimiyyəti orqanları, əsasən də Bakı şəhər İcra Hakimiyyəti "Sərbəst toplaşma azadlığı haqqında" Qanunun müddəalarını səhv interperetasiya edərək toplantıları guya qanuni əsaslarla qadağan edirlər. Bunun qarşısının alınması üçün xəbərdarlıqlarla bağlı qadağa məktublarından məhkəmələrə çoxsaylı şikayətlərin verilməsi, sonradan isə prosedurları dəf etməklə Konstitusiya Məhkəməsi və İnsan Hüquqları üzrə Avropa Məhkəməsi vasitəsi ilə icra hakimiyyəti orqanlarının qərarlarının əsassız və Konvensiyanın 11-ci maddəsinə zidd olmasını hüquqi vasitələrlə sübut edilməsi məqsədəuyğundur.

☑ Polis tərəfindən dinc, lakin hakimiyyətin sanksiyalaşdırmadığı toplantılar dağıdılarkən, göstərilən hər hansı müqavimət hakimiyyət tərəfindən kütləvi iğtişaş kimi qiymətləndirilir. Burada iki məqsəd güdülür. Bunlar: Toplantı iştirakçılarına qeyri-adekvat güc tətbiq etmək və toplantı təşkilatçıları və iştirakçılarına qarşı antitəbliğat kampaniyaları təşkil etmək. Bununla bağlı Cinayət Məcəlləsinin 220-ci maddəsinin (kütləvi iğtişaş) Konstitusiya Məhkəməsi tərəfindən rəsmi şəkildə şərh olunmasına ehtiyac vardır.

☑ Sərbəst toplaşma azadlığı haqqında Qanunun 9-cu maddəsinin VI hissəsində göstərilir ki, *"Yığıncaqların, mitinqlərin və nümayişlərin keçirilməsi üçün hər bir şəhər və rayonda müvafiq icra hakimiyyəti orqanı xüsusi yerlər ayırmalıdır"*. Qanunun bu müddəası olduqca qüsurlu şəkildə tətbiq olunur. Əksər rayon icra hakimiyyəti orqanları bu müddəaya istinad edərək şəhərlərdə toplantı keçirilməsi üçün tamamilə yararsız olan və şəhərdən, yaşayış məntəqələrindən uzaq olan yerlərin ayrılma-

sına dair qərarlar qəbul edirlər. Hakimiyyət orqanları bu qüsurlu praktikanın aradan qaldırılması üçün yerli icra hakimiyyəti orqanlarını təlimatlandırmalı, bu tipli qərarları analiz edərək ləğv etməlidirlər.

Vətəndaş cəmiyyəti strukturları isə belə qərarların məhkəmələr vasitəsi ilə ləğv edilməsi üçün məhkəmə çəkişmələri təşkil etməlidir.

### Maarifləndirici tədbirlərə dair tövsiyyələr

☑ Yerli hakimiyyət orqanlarının vəzifəli şəxslərinin əksəriyyəti toplantıların keçirilməsinə qadağa qoyarkən ölkə Konstitusiyasının və ölkənin tərəfdar çıxdığı müvafiq beynəlxalq normaların tələblərini pozurlar. Bu isə bir çox hallarda vəzifəli şəxslərin sərbəst toplaşma azadlığına dair beynəlxalq normalarda və Milli qanunvericilik aktlarında əks olunan tələbləri bilməməsindən irəli gəlir. Bu baxımdan Sərbəst toplaşma azadlığının təmin olunması üçün aidiyyatı dövlət qurumlarının, o cümlədən yerli hakimiyyət orqanlarının məsul əməkdaşlarının maarifləndirilməsi olduqca zəruridir. Bu istiqamətdə həm dövlət, həm də qeyri-hökumət təşkilatlarının fəaliyyəti vacibdir.

☑ Toplantı təşkilatçıları, o cümlədən siyasi partiya və ictimai təşkilatların nümayəndələri üçün toplantı azadlığı, onun həyata keçirilməsi, şikayət prosedurаları və s. məsələlərlə bağlı maarifləndirilməlidirlər. Maarifləndirici tədbirlər treninqlər və xüsusi ədəbiyyatın hazırlanması və yayılması yolu ilə həyata keçirilməlidir.

☑ İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin Konvensiyanın 11-ci maddəsinin toplaşma azadlığına aid olan hissəsi ilə bağlı çıxardığı prisident qərarların Azərbaycan dilinə keyfiyyətlə tərcümə olunması və geniş yayılması məqsədəuyğundur. Məhkəmə Hüquq Şurasının və Ali Məhkəmənin ümumi yurisdiksiyalı bütün məhkəmələrin hakimlərinin bu prisidentləri öyrənilməsi üçün tədbirlər həyata keçirməsi məqsədəuyğundur.

☑ Sərbəst toplaşma azadlığının təmin olunması ilə bağlı ATƏT çərçivəsində həyata keçirilən tədbirlər, ATƏT-in Demokratik Təsisatlər və İnsan Hüquqları Bürosunun hazırladığı "Dinc toplaşma azadlığına dair təlimatı" (Guidelines on Freedom of Peascful Assembly) və s. sənədlərinin öyrənilməsi və orada əks olunan prinsiplərin həm qanunvericiliyin hazırlanması, həm də onun tətbiqi zamanı istifadə olunması olduqca zəruridir.

### Qurbanların müdafiəsinin təşkilinə dair tövsiyyələr

Ölkədə sərbəst toplaşma azadlığı hüququndan istifadə edərkən hakimiyyət orqanlarının fiziki zorakılığına məruz qalan, inzibati və cinayət məsuliyyətinə cəlb edilən insanların müdafiəsinin təşkili aktual problem olaraq qalmaqdadır. İndiyə-

dək heç bir kəs fiziki zorakılığa məruz qalmasına görə, yaxud inzibati və cinayət məsuliyyətinə cəlb olunduğuna görə Milli məhkəmələr vasitəsi ilə günahkarların cəzalandırılması, dəymiş maddi və mənəvi zərərin alınmasına nail ola bilməmişdir.

Buna görə də:

☑ İnsan Hüquqlarının müdafiəsi ilə məşğul olan QHT-lər toplaşma azadlığı hüququndan istifadə edərkən hakimiyyət orqanlarının zorakılığına məruz qalmış, inzibati və cinayət məsuliyyətinə cəlb edilmiş qurbanların həm milli, həm də beynəlxalq miqyasda müdafiəsinin təşkil olunması üçün sistemli və ardıcıl kampaniyalar təşkil etməlidir.

☑ Vəkillər sərbəst toplaşma azadlığı hüququ pozulmuş şəxsləri müdafiə edərkən nəzərə almalıdırlar ki, qurbanların əksəriyyəti işgəncələrə məruz qalır, onların azadlıq hüququ məhdudlaşdırılır, yaxud azadlıq hüququndan məhrum olunurlar və həmin şəxslərin ifadə azadlığına qarşı zor tətbiq edilir.

■

# ƏLAVƏ

**Siyasi partiya və ictimai təşkilatların fəalları arasında keçirilmiş sosioloji sorğunun anketi**

**1). Yaşınız:**

a) 18-24
b) 25-34
c) 35-44
d) 45-54
e) 55-yaşdan yuxarı

**2). Cinsiniz**

a) Kişi
b) Qadın

**3). Zəhmət olmasa hansı siyasi partiyaya, yaxud ictimai hərakata mənsub olduğunuzu göstərin.**

a) Bitərəf
b) Siyasi partiyanın üzvü (zəhmət olmasa qeyd edin) _ _
c) İctimai hərakat / təşkilat (zəhmət olmasa qeyd edin) _ _ _
d) Digər (zəhmət olmasa qeyd edin)

______________________________

**4). Kütləvi tədbirlərdə bir qayda olaraq iştirak edirsinizmi ?**

a) İl ərzində bir - iki dəfə
b) İl ərzində üç-dörd dəfə
c) Beş dəfə və ya daha çox
d) Digər (zəhmət olmasa qeyd edin)

______________________________

**5). Daha çox hansı tip tədbirlərdə iştirak edirsiniz? (bütün variantları qeyd etmək olar)**

a) mitinq
b) piket
c) yürüş
d) Digər (zəhmət olmasa qeyd edin)

______________________________

**6). Axınıcı tədbirdə hansı keyfiyyətdə iştirak etmisiniz ?**

a) İştirakçı qismində
b) Təşkilatçı qismində
c) Digər (zəhmət olmasa qeyd edin)

______________________________

**7). Daha çox harada keçirilən tədbirlərdə iştirak etmisiniz ?**

a) Bakıda
b) Ölkənin regionlarında
c) Digər (zəhmət olmasa qeyd edin)

________________________________

**8) Kütləvi tədbirlərin hazırlanması zamanı hər hansı bir problemlər ilə rastlaşmısınızmı?**

a) Bəli
b) Xeyr

**9). Əgər rastlaşmısınızsa onlardan bir neçəsini qeyd edin.**

________________________________
________________________________
________________________________

**10) Kütləvi tədbirlərin keçirilməsi zamanı hər hansı bir problemlər ilə rastlaşmısınızmı?**

a) Bəli
b) Əgər rastlaşmamısınıza (17-ci suala keçin)

**11). Əgər rastlaşmısınızsa onlardan bir neçəsini qeyd edin.**

________________________________
________________________________
________________________________

**12). Kütləvi tədbirlərdə iştirak zamanı asayişi təmin edən qüvvələrin təyziqinə məruz qalmısınızmı?**

a) Bəli
b) Xeyr
c) Cavab verməkdə çətinlik çəkirəm

**13). Kütləvi tədbirlərdə iştirak etdiyinizə görə inzibati və ya cinayət məsuliyyətinə cəlb edilmisinizmi?**

a) Bəli
b) Xeyr
c) Cavab verməkdə çətinlik çəkirəm

**14). Zəhmət olmasa Sizə qarşı tətbiq olunmuş cəza növlərini göstərin. (bir neçə variantı qeyd etmək olar).**

a) Cərimə
b) İnzibati həbs
c) Cinayət məsuliyyəti
d) Digər (zəhmət olmasa qeyd edin)

________________________________

**15). Bu cür hərəkətlərin qarşısının alınması üçün hər hansı bir orqana müraciət etmisinizmi?**

a) Bəli
b) Xeyr

**16). Muraciət etmisinzsə bu qurumun adını qeyd edin.**

a) Məhkəmələr
b) Hökumət strukturları
c) Beynəlxalq təşkilatlara
d) Xarici ölkə səfirliklərinə (ölkəni qeyd edin) ____________________
e) Digər (zəhmət olmasa qeyd edin)

________________________________

**17). Sərbəst toplaşmaq hüququnun həyata keçirilməsi ilə bağlı Respublikada qüvvədə olan qanunvericilik ilə nə dərəcədə tanışsınız?**

a) Qanunu oxumuşam.
b) Qanunun bir neçə maddəsi ilə tanış olmuşam.
c) Qanunu oxumamışım
d) Buna ehtiyac görmürəm

**18). Respublikada sərbəst toplaşmaq hüquqlarının reallaşdırılmasında hansı çətinlikləri görürsünüz?**

________________________________
________________________________
________________________________

Vətəndaşların Əmək
Hüquqlarını Müdafiə Liqası

**AZƏRBAYCAN RESPUBLİKASINDA SƏRBƏST TOPLAŞMA AZADLIĞININ TƏMİN OLUNMA VƏZİYYƏTİ**

**QANUNVERİCİLİK VƏ PRAKTİKA**

**MONİTORİNQİN NƏTİCƏLƏRİNƏ DAİR HESABAT**

| | |
|---|---|
| Çapa imzalanmışdır: | 27.08.2007 |
| Kağız formatı: | 70x100 1\16 |
| Hesab-nəşriyyat həcmi: | 4,5 ç.v. |
| Sayı: | 500 |
| Sifariş: | 159 |

Kitab "Teymur Poliqraf" MMC-nin mətbəəsində
ofset üsulu ilə çap edilmişdir.
*Ünvan: Salamzadə küç., 31*